HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

xüsusi buraxılış ■ 9 fevral 2015 www.vergiler.az Qiyməti: 40 qəp.



# Vergilər Nazirliyinin yaradılmasının 15 illiyinə həsr olunmuş xüsusi buraxılış



# Azərbaycanda beynəlxalq standartlara cavab verən vergi sistemi qurulmuşdur

**Fazil MƏMMƏDOV,**
**vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri**

2015-ci ilin fevral ayının 11-də Vergilər Nazirliyinin yaradılmasının 15 ili tamam olur. Həmin gün Azərbaycan Respublikasının Prezidenti, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Azərbaycan Respublikasının Vergilər Nazirliyinin yaradılması haqqında 11 fevral 2000-ci il tarixli 281 nömrəli fərman imzalamışdır. Bu tarixdən keçən 15 il Azərbaycanın vergi sisteminin inkişafında, vergi xidmətinin müstəqil struktur kimi formalaşmasında, ölkəmizdə vergi sisteminin müasir standartlar əsasında yenidən qurulmasında və vergi islahatlarının həyata keçirilməsində mühüm dövr olmuşdur.

Ümummilli lider Heydər Əliyevin Vergilər Nazirliyinin müstəqil dövlət strukturu kimi yaradılması barədə verdiyi bu mühüm siyasi qərar ölkəmizin həyatında aparılan köklü və davamlı islahatların dərinləşdiyi və artıq öz müsbət nəticələrini verməyə başladığı bir dövrə təsadüf edirdi. Bu elə bir vaxt idi ki, azad iqtisadi münasibətlər iqtisadiyyatı dirçəldir, əhalinin fəallığını artırır, yeni mülkiyyətçilər və sahibkarlar təbəqəsi formalaşırdı. Yeniləşən iqtisadi mühitin stimullaşdırılması, bazar iqtisadiyyatına keçidin sürətləndirilməsi dövlətin bu prosesdə tənzimləyici rolunu təkmilləşdirmək zərurəti yaradırdı. Məhz belə bir vaxtda ulu öndər Heydər Əliyevin «Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik» fikri dövlətin iqtisadi siyasətinin leytmotivinə çevrildi.

Mərkəzi icra hakimiyyəti orqanı kimi Vergilər Nazirliyinin qarşısına dövlət vergi siyasətini həyata keçirmək, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin etmək və bu sahədə dövlət nəzarətini həyata keçirmək kimi mühüm vəzifələr qoyuldu. Yeni vergi inzibatçılığının formalaşdırılması missiyası da Vergilər Nazirliyinin üzərinə düşürdü və ötən 15 il ərzidə Azərbaycanın vergi orqanları bu missiyanı layiqincə həyata keçirməyə çalışmışlar.

*İslahatlarla zəngin 15 il*

Yeni yaradılmış nazirliyin əsas prioritetləri əlbəttə ki, ilk növbədə uzun illər köhnə inzibati idarəetməyə əsaslanan bir sistemin müasir menecmentlə əvəzlənməsi, ölkəmizdə təşəkkül tapmaqda olan sahibkarlıq subyektləri, vergi ödəyiciləri ilə işin təmamilə başqa səviyyədə qurulması, qanunvericiliyin təkmilləşdirilməsi, inzibatçılığın dəyişdirilməsi idi. Məhz buna görə də ilk illər vergi xidmətinin idarəetmə sisteminin yenidən qurulması və vergi qanunvericiliyi bazasının yaradılması mühüm əhəmiyyət kəsb edirdi. Sonrakı mərhələlərdə vergi inzibatçılığının modernləşdirilməsi və vergi sisteminin texnoloji baxımdan təkmilləşdirilməsi davam etdirilmiş, elektron hökumətin qurulması ilə əlaqədar biznes və dövlət arasında yeni tərəfdaşlıq münasibətləri formalaşmışdır. Ötən 15 il ərzində aparılmış genişmiqyaslı islahatlar, reallaşdırılmış kompleks tədbirlər, konkret hədəflərə yönəlmiş proqramların uğurla yerinə yetirilməsi nəticəsində ölkəmizdə müasir beynəlxalq standartlara cavab verən vergi xidməti yaradılmışdır.

Əlbəttə, bütün bunlar asan əldə olunmamışdır. Ölkəmizin vergi sistemi və inzibatçılığının rəqabətqabiliyyətli olması, vergi menecmentinin müasirləşdirilməsi üçün xeyli zaman və əmək sərf olunmuş, bir sıra layihələr həyata keçirilmişdir.

***Təkmil vergi qanunvericiliyi, səmərəli vergi mühiti və aşağı vergi yükü***

Ölkənin uzunmüddətli strateji inkişaf planlarının uğurla reallaşdırılmasının əsas şərtlərindən biri vergi sisteminin stabilliyi və onun proqnozlaşdırıla bilən olmasıdır.

Məlum olduğu kimi, hər bir vergi sisteminin dayanıqlığı, ilk növbədə, onun fəaliyyəti üçün təkmil qanunvericiliyin və hüquqi-normativ bazanın mövcudluğu ilə şərtlənir. Ölkəmizdə vahid vergi qanunvericiliyinin formalaşdırılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Nazirlər Kabinetinin 1998-ci il noyabrın 6-da keçirilmiş geniş iclasındakı yekun nitqində dövlət müstəqilliyi əldə olunduqdan sonra vergitutma sahəsində qəbul edilmiş çoxsaylı normativ aktların Azərbaycanın vergi sisteminin ayrı-ayrı sahələrini əhatə etdiyindən vergi sisteminin idarə olunmasında bir sıra problemlərin yaranmasını, vergi qanunvericiliyində mövcud olan boşluqların istər vergi ödəyicilərinin, istərsə də vergi xidməti orqanlarının fəaliyyətində çətinliklər yaratdığını, vergitutmanın qanunvericilik və metodoloji bazasının təkmilləşdirilməsinin zəruriliyini qeyd edərək, qısa müddətdə Vergi Məcəlləsinin layihəsinin hazırlanması ilə əlaqədar hökumətə tapşırıqlar verdi. Bu tapşırıqdan sonra aparılan gərgin işlər 2000-ci ilin iyul ayında Vergi Məcəlləsinin layihəsinin geniş müzakirələrdən sonra Milli Məclis tərəfindən qəbul edilməsi və 1 yanvar 2001-ci il tarixdən qüvvəyə minməsi ilə nəticələndi. Məcəllənin qəbul edilməsi vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış ən vacib addımlardan biri idi və bu, aparılan islahatların genişləndirilməsi üçün bir təkan rolunu oynadı. Ötən illər ərzində Vergi Məcəlləsi iqtisadi reallığın tələblərinə adekvat olaraq təkmilləşdirilmişdir. Məcəllənin müddəalarının böyük bir hissəsi vergi ödəyicilərinin hüquqlarının qorunmasına və təmin edilməsinə xidmət edir.

Ötən 15 ildə iqtisadiyyatda başlanan inkişaf meyillərini sürətləndirmək və sahibkarlığa verilən dövlət dəstəyini genişləndirmək məqsədilə ölkədə biznesin fəaliyyəti üçün cəlbedici vergi mühiti yaradılmış, vergi yükü azaldılmış, vergilərin sayı və dərəcələri optimallaşdırılmış, sahibkarlıq üçün əlverişli iqtisadi mühit formalaşdırılmışdır.

Bu gün Azərbaycanın vergi qanunvericiliyi təkcə fiskal məqsədlərə deyil, həm də iqtisadiyyatın inkişaf etdirilməsi, ayrı-ayrı fəaliyyət sahələrinin inkişafının stimullaşdırılması, investisiyaların və yeni texnologiyaların cəlb olunması və bir sıra məqamlarda sosial sahələrin dəstəklənməsi kimi məqsədlərə də xidmət edir. Fiskal, sosial və tənzimləyici funksiyalara əsaslanan fəal vergi siyasəti Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin mühüm tənzimləmə mexanizmlərindən biridir.

Bunların sırasında 2001-ci ildən kənd təsərrüfatı məhsulları istehsalçılarına uzunmüddətli vergi güzəştlərinin verilməsi, sənayenin innovasiyalar əsasında inkişaf etdirilməsi, mühüm strateji layihələr kimi texnoparkların yaradılması və onların inkişafının stimullaşdırılması üçün vergi qanunvericiliyində güzəştlərin tətbiq edilməsini, fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərə gəlir vergisi üzrə verilən sosial xarakterli güzəştlər sistemini, ölkə iqtisadiyyatının aparıcı sahələrindən olan bank sektorunun inkişafı üçün ayrı-ayrı zamanlarda verilən vergi tətillərini, eləcə də cəmiyyətin müxtəlif sosial qruplarının gəlirləri arasındakı bərabərsizliyin minimuma endirilməsi üçün verilmiş sosial yönümlü vergi güzəştləri və azadolmalarını və s. qeyd etmək olar.

Hazırda ölkəmizin Avropaya inteqrasiyasının sürətləndirilməsi istiqamətində vergi sahəsində əsas prioritetlərdən biri vergi qanunvericiliyinin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılmasıdır. Qanunvericiliyin uyğunlaşdırılması ilə bağlı ilkin mərhələdə Avropa İttifaqının dolayı vergitutma sahəsində 7 Direktivi üzrə əsas tələbləri təhlil edilərək müəyyənləşdirilmişdir. 2015-ci il yanvarın 1-dən Vergi Məcəlləsinə aksizlərlə bağlı edilmiş son dəyişikliklər də məhz bu uyğunlaşdırma prosesinin tərkib hissəsidir.

Beləliklə, bu gün biz əminliklə söyləyə bilərik ki, ötən 15 il ərzində Azərbaycanda uzunmüddətli strateji inkişaf planlarının məqsədlərinə cavab verən sabit vergi sisteminin qurulmasına nail olunmuşdur. Vergi qanunvericiliyi sahibkarlıq fəaliyyəti üçün cəlbedicidir, vergi yükü rəqabətədavamlıdır.

***Aydın, şəffaf və sadə inzibatçılığa doğru: vergi inzibatçılığında islahatlar***

Vergi inzibatçılığının modernləşdirilməsi vergi öhdəliklərinin yerinə yetirilməsinin biznes üçün sadələşdirilməsinə, vergi orqanları üçün isə vergi nəzarəti prosesində inzibatçılığın müasirləşdirilməsinə əsaslanır.

Bu mühüm vəzifənin həyata keçirilməsi üçün ölkəmizin vergi xidməti əsaslı modernizasiya prosesindən keçmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 sentyabr 2005-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramının (2005-2007-ci illər)» uğurla həyata keçirilməsi nəticəsində vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsinə nail olunmuş, vergidən yayınma halları ilə mübarizə gücləndirilmiş, vergilərin məcburi ödənilməsi sistemi təkmilləşdirilmiş, vergi orqanlarında beynəlxalq standartlara uyğun idarəetmə sistemi inkişaf etdirilmiş, müasir informasiya-kommunikasiya sistemləri yaradılmışdır. 2005-2007-ci illərdə bu Dövlət Proqramının həyata keçirilməsi vergi sistemində geniş diapazonlu texniki imkanlara malik texnoloji bazanın yaradılması ilə nəticələnmişdir.

Vergi inzibatçılığının modernləşdirilməsi prosesi sonrakı illərdə də davam etdirilmiş, vergi xidmətində informasiya texnologiyalarının geniş tətbiqi vergi inzibatçılığının asanlaşmasına, ona çəkilən xərclərin əhəmiyyətli şəkildə azalmasına imkan vermişdir.

Hazırda vergitutmanın müasir dünya təcrübəsində mövcud olan ən mütərəqqi yenilikləri milli vergi sistemində tətbiq edilir. Dünya Bankının qiymətləndirmələrinə görə, ölkəmiz vergi ödəyicilərinin elektron qeydiyyatı sisteminin uğurlu tətbiqi üzrə dünyanın 12 aparıcı dövləti sırasındadır. Vergi inzibatçılığının modernləşdirilməsi nəticəsində bu gün Azərbaycanda sahibkar vergi orqanlarına gəlmədən bütün öhdəliklərini internet üzərindən yerinə yetirə bilir. Vergi bəyannamələrinin təqdim edilməsi, vergi öhdəliklərinin icrası, vergi orqanları ilə təmas imkanı verən bütün proseslər elektronlaşdırılmışdır. Vergi ödəyicilərinin təxminən 90 faizi vergi bəyannamələrini elektron şəkildə təqdim edir.

Mobil texnologiyaların imkanlarına söykənən «Asan İmza» layihəsi mobil telefondan istifadə olunmaqla dünyanın istənilən yerindən sahibkara müqavilələr imzalamağa, vergi öhdəliklərini idarə etməyə və yerinə yetirməyə imkan verir. Ölkəmizin bu təcrübəsi ötən il Avropa Parlamentində də uğurla təqdim edilmişdir. «Asan İmza» və «E-audit» kimi mühüm layihələr yalnız regionda deyil, ümumiyyətlə, postsovet məkanında ilk olaraq məhz Azərbaycanın vergi sistemində reallaşdırılmış və bu, bir çox ölkələrin marağına səbəb olmuşdur.

ƏDV inzibatçılığının təkmilləşdirilməsi və ƏDV-dən yayınma hallarının qarşısının alınması məqsədilə ƏDV depozit hesabının, elektron vergi hesab-fakturalarının tətbiqi, banklarla real vaxt rejimində inteqrasiya (bank hesablarının «onlayn» rejimdə açılması, şəhadətnamə-dublikatın «onlayn» rejimdə göndərilməsi), nəzarət-kassa aparatlarında məsafədənötürmə qurğularının (GPRS sistemi) tətbiqi, vergi orqanları və digər vergi ödəyiciləri ilə elektron yazışma sisteminin - onlayn kargüzarlığın təmin edilməsi, vətəndaşların internet üzərindən videoqəbulunun aparılması, vergilərin elektron qaydada ödənişinin aparılması sisteminin tətbiqi kimi innovativ-texnoloji yeniliklər vergi xidmətini Azərbaycanın ən müasir texnologiyalardan maksimum istifadə edən dövlət qurumu kimi tanıtdırmışdır.

***İnformasiya cəmiyyəti və vergi sistemi: elektron xidmətlər***

Bu sahədə aparılan işlərin əsas istiqaməti vergi ödəyicilərinə xidmət sektorunun genişləndirilməsi, informasiya cəmiyyətinin inkişafı ilə əlaqədar onun yaratdığı imkanların vergi xidmətlərində səmərəli istifadəsinə və vergi sistemində elektron hökumət quruculuğunun tətbiqinin genişləndirilməsinə nail olmaqdır.

Bütövlükdə, son 15 il ərzində vergi ödəyicilərinə xidmət sahəsi vergi sisteminin ən sürətlə inkişaf etdirilən sektoru olmaqla yanaşı, həm də elektron hökumətin elementlərinin praktiki tətbiqi üçün əlverişli müstəvi olmuşdur.

Vergilər Nazirliyi hələ 2003-cü ildə MDB ölkələri arasında ilk dəfə olaraq telefon-məlumat xidməti yaratmış, sonradan bu xidmət ən geniş spektrdə xidmətlər göstərən və Standartlaşma üzrə Avropa Komissiyası («Austrian Standards plus») tərəfindən EN-15838 standartlarına uyğunluğu barədə keyfiyyət Sertifikatına malik Çağrı Mərkəzinə çevrilmişdir.

Vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə 2007-ci ildən regionlarda, xüsusən ayrıca vergi orqanı olmayan iri şəhər və rayonlarda vergi ödəyicilərinə xidmət göstərən 54 mərkəz yaradılmış, müasir avadanlıqlar və sürətli kommunikasiya sistemi ilə təchiz edilmişdir. Burada vətəndaşlara vergi bəyannamələri, vergi qanunvericiliyi və onun tətbiqi barədə məlumat və izahatların verilməsi, sahibkarlıq fəaliyyəti subyektlərinin, fiziki və hüquqi şəxslərin elektron qeydiyyata alınması, bəyannamələrin, hesabat və arayışların göndərilməsi, bankda hesabın açılması və s. kimi məsələlərlə bağlı geniş spektrdə xidmətlər gostərilir.

**Davamı 2-ci səhifədə**

Vergilər

# Azərbaycanda beynəlxalq standartlara cavab verən vergi sistemi qurulmuşdur

**Əvvəli 1-ci səhifədə**

Ərazi vergi orqanlarına və vergi ödəyicilərinə xidmət mərkəzlərinə gəlmək imkanı olmayan vergi ödəyicilərinə onlar üçün rahat olan yerlərdə xidmət göstərmək üçün yerli vergi orqanları xüsusi xidmət avtomobilləri ilə təchiz olunmuşlar.

Bu gün Azərbaycanın vergi sistemi dünyanın ən qabaqcıl ölkələrində tətbiq olunan əksər vergi xidmətlərini vergi ödəyicilərinə təqdim edir. Hazırda Vergilər Nazirliyi vergi ödəyicilərinə 59 növ elektron xidmət göstərir. Bu, respublikamızda dövlət orqanları tərəfindən göstərilən ən geniş elektron xidmətlər toplusudur. Vergilər Nazirliyi inzibatçılıq sahəsində və elektron xidmətlərin geniş tətbiqi prosesini bundan sonra da fəal şəkildə davam etdirməklə korrupsiya hallarına qarşı mübarizədə mühüm rol oynayan məmur-vətəndaş təmaslarını minimuma endirmək niyyətindədir.

***Bizneslə dialoq: partnyorluq münasibətlərinin qurulması***

Vergilərin könüllü ödənilməsi sisteminin genişləndirilməsi, bu məqsədlə müasir iqtisadi münasibətlər şəraitində bizneslə tərəfdaşlıq və partnyorluq münasibətlərinin qurulması hazırda vergi orqanlarının fəaliyyətinin prioritet istiqamətlərindəndir.

Vergilər Nazirliyi yaradıldıqdan sonra aparılan islahatların mühüm bir istiqaməti də vergilərin məcburi yığılmasından könüllü ödəniş sisteminə keçidi təmin etmək üçün müvafiq tədbirlərin görülməsi olmuşdur.

Sosial-iqtisadi inkişafın indiki mərhələsində ölkədə vergilərin könüllü ödəniş sisteminin inkişaf etdirilməsinin, vergi mədəniyyətinin yüksəldilməsinin, vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin sivil və şəffaf əsasda qurulmasının, qarşılıqlı etimad mühitinin formalaşdırılmasının aktuallığı daha da artmışdır.

Müasir vergi inzibatçılığının qurulması, sabit qanunvericiliyinin formalaşdırılması, vergi öhdəlikləri və onların icrası sisteminin şəffaflığı, səmərəli apelyasiya sisteminin mövcudluğu, sahibkarlığın inkişafını dəstəkləyən vergi siyasətinin həyata keçirilməsi, vergi yükünün azaldılmasına yönələn vergi islahatları - bütün bunlar əlverişli biznes mühitinin formalaşmasına dəstək vermək istiqamətində Azərbaycanın vergi xidməti tərəfindən atılan addımlardır. Heç şübhəsiz ki, həyata keçirilmiş bu islahatlar bizneslə qurulan yeni tərəfdaşlıq modelinin formalaşmasına öz töhfəsini verəcəkdir.

> *Ümummilli lider Heydər Əliyevin Vergilər Nazirliyinin müstəqil dövlət strukturu kimi yaradılması barədə verdiyi mühüm siyasi qərar ölkəmizin həyatında aparılan köklü və davamlı islahatların dərinləşdiyi və artıq öz müsbət nəticələrini verməyə başladığı bir dövrə təsadüf edirdi*

***Rəqabətqabiliyyətli vergi sistemi***

Azərbaycanın vergi sisteminin və inzibatçılığının rəqabətqabiliyyətliliyinə nail olunması üçün vergi xidmətində mütərəqqi beynəlxalq təcrübənin tətbiqi məsələləri daim diqqətdə saxlanılır. Bu məqsədlə Vergilər Nazirliyinin beynəlxalq əlaqələri genişləndirilir.

Ölkəmizdə rəqabətli işgüzar mühitin yaradılması işinin iştirakçısı olan vergi orqanları qarşısında vergi ödəyiciləri ilə konstruktiv dialoq qurmaq, yaranmış problemlərin aradan qaldırılmasına diqqətlə yanaşmaq, biznesə və vətəndaşlara vergi məsələlərində və innovasiyalarda yardım etmək vəzifəsi durur.

Bu baxımdan, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi, mütərəqqi beynəlxalq təcrübənin öyrənilərək ölkəmizə gətirilməsi, digər ölkələrin vergi orqanları, habelə beynəlxalq və regional təşkilatlarla işgüzar əlaqələrin qurulması, vergi məsələləri üzrə beynəlxalq müqavilələrin bağlanması Vergilər Nazirliyinin prioritet fəaliyyət istiqamətlərindəndir.

Azərbaycanın beynəlxalq inteqrasiya siyasətinə uyğun olaraq, Vergilər Nazirliyi xarici ölkələrin vergi orqanları ilə həm ikitərəfli, həm də çoxtərəfli formatda əlaqələr qurur. Vergilər Nazirliyi dünyanın vergitutma sahəsində əksər aparıcı və nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində, habelə Avropadaxili Vergi Administrasiyaları Təşkilatının İcraiyyə Komitəsinin üzvü kimi dünyada mövcud olan ən mütərəqqi təcrübələrin öyrənilməsi və ölkəmizdə tətbiq olunması, insan resurslarının peşəkarlıq səviyyəsinin artırılması üçün bu təşkilatların verdiyi imkanlardan maksimum yararlanmağa çalışır.

Ölkəmiz vergi sahəsində bir çox beynəlxalq təşəbbüsləri dəstəkləyir. Azərbaycan hələ 2003-cü ildə «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» OECD-nin və Avropa Şurasının birgə Konvensiyasına qoşulmuşdur. 2014-cü ilin may ayında həmin Konvensiyaya düzəlişlər edilməsi haqqında Protokolun imzalanması zamanı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) baş katibi cənab Anxel Qurria ölkəmizin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirmişdir.

Beynəlxalq vergi siyasətinin həyata keçirilməsində çox mühüm məsələlərdən biri vergilərə dair beynəlxalq müqavilələrdir. İkiqat vergitutmanın aradan qaldırılması barədə beynəlxalq sazişlərin imzalanması, bir tərəfdən, ölkədə əlverişli investisiya mühitinin yaradılmasına birbaşa təsir göstərir, digər tərəfdən, vergidən yayınma hallarının qarşısının alınması məqsədilə vergi orqanları arasında qarşılıqlı yardım göstərilməsi üçün əlavə imkanlar yaradır.

Beləliklə, ötən 15 ilə nəzər salarkən, Azərbaycan vergi xidmətinin qarşısında duran əsas vəzifələrin yerinə yetirildiyini söyləmək olar. Aparılan islahatlar, həyata keçirilən kompleks tədbirlər vergi xidmətinin fiskal funksiyalarının da yerinə yetirilməsinə müsbət təsir göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi strategiyanın uğuru, eyni zamanda ölkə iqtisadiyyatının dinamik və davamlı inkişafı, eləcə də yuxarıda qeyd olunan amillərin nəticəsidir ki, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların həcmi son 15 il ərzində 14 dəfəyədək, 2000-ci ildəki 510,4 mln. manatdan 2014-cü ildə 7 mlrd. 113,6 mln. manata qədər artmışdır. Bu zaman qeyri-neft-qaz sektorundan daxilolmalar 14,4 dəfə artaraq 211,1 mln. manatdan 4306,5 mln. manata, regionlardan daxilolmalar isə 14,8 dəfə artaraq 40 mln. manatdan 591,8 mln. manata çatmışdır.

Xüsusilə vurğulamaq lazımdır ki, bu nailiyyətlərin təməlində, ilk növbədə, xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti, bu siyasətin davamçısı, ölkə başçısı cənab İlham Əliyevin birbaşa rəhbərliyi və tapşırıqları əsasında həyata keçirilən uğurlu islahatlar, vergi orqanlarına göstərilən dövlət dəstəyi, böyük zəhmət və gərgin iş dayanır.

***Bilik iqtisadiyyatına əsaslanan müasir vergi inzibatçılığının inkişaf etdirilməsi***

Qarşıda vergi xidmətini yeni çağırışlar gözləyir. Bu gün sərbəst bazar iqtisadiyyatı institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi nəticəsində ölkəmiz yeni bir inkişaf mərhələsinə qədəm qoyub. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılmasıdır.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası ölkə iqtisadiyyatı qarşısında dünyanın inkişaf etmiş dövlətləri sırasına daxil olmaq kimi mühüm bir vəzifə müəyyənləşdirmişdir. Bu isə yüksək rəqabət qabiliyyətli, yeni texnologiyalara əsaslanan innovasiya yönümlü bilik iqtisadiyyatının yaradılmasını zəruri edir. Konsepsiyanın icrası məqsədilə Vergilər Nazirliyi tərəfindən 2013-2020-ci illər üçün Strateji Plan təsdiq edilmişdir.

Strateji Planda informasiya texnologiyaları təməlli və bilik menecmentinə əsaslanan müasir vergi inzibatçılığının inkişaf etdirilməsi, onun şəffaflığının və yüksək səmərəliliyinin təmin edilməsi, transfert qiymətlərinin tətbiqi mexanizminin yaradılması, nağdsız ödənişlərin stimullaşdırılması, elektron auditin, elektron ticarətə nəzarətin təmin olunması, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin daha da genişləndirilməsi, ƏDV-nin tətbiqi mexanizminin təkmilləşdirilməsi, daxildə istehsal olunan və idxal edilən mallara aksizlərin tətbiqi mexanizminin təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması, vergitutma bazasının genişləndirilməsi, vergidən yayınma risklərinin qiymətləndirilməsi və nəzarət məqsədləri üçün seçim mexanizmlərinin təkmilləşdirilməsi prioritet istiqamətlər kimi müəyyənləşdirilmişdir.

Müasir vergi administrasiyasında analitik potensialın gücləndirilməsi, yeni analitik və informasiya texnologiyalarından sərbəst istifadə etməyi bacaran yüksək biliklərə malik kadrlar vergi orqanlarının dayanıqlı inkişafını və dövlət qarşısında öz funksiyalarının layiqincə yerinə yetirilməsini təmin edir. Bu baxımdan, Vergilər Naziriyi insan resurslarının təkmilləşdirilməsi işini daim davam etdirəcək. Bu məqsədlə artıq Avropa Birliyi, o cümlədən Fransa və İspaniya vergi administrasiyaları ilə birlikdə müvafiq tvinninq layihəsinin də reallaşdırılmasına başlanmışdır.

Vergi inzibatçılığı sahəsində İT innovasiyalarının təşviqinə daim dəstək verilməsi, bu istiqamətdə innovasiya yönümlü intellektual texnologiyaların inkişafı da yaxın gələcəkdə qarşımızda duran vəzifələr sırasındadır.

Heç kimə sirr deyil ki, bir çox dövlətlər dünyanı bürümüş böhranların fəsadlarını öz üzərində hiss edir, büdcə və sosial sahələrdə ciddi çətinliklərlə üzləşirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü iqtisadi strategiya bu böhranların yaratdığı problemlərin ölkəmizə təsirlərini azaltmağa, vətəndaşlarımızı onun neqativ təsirlərindən qorumağa, dövlətimizin sosial-iqtisadi inkişafının sabitliyinin saxlanılmasına zəmanət verir. Bu strategiyanın davamlı olması üçün dövlət büdcəsinin gəlirləri artmalıdır və şübhə yoxdur ki, ölkədə fəaliyyət göstərən sahibkarlar və vergi orqanları bu vəzifənin icrasını, ölkəmizin iqtisadi qüdrətinin ildən-ilə daha da artmasını təmin etmək üçün bütün imkanlarını səfərbər edəcəklər.

# Vergilər Nazirliyi 2014-cü ildə

***Ötən il Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 7 milyard 113 milyon 622,4 min manat vəsait daxil olmuşdur***

Bununla da proqnoza 100,2% əməl edilmişdir. Bu məbləğin 32,4%-i mənfəət vergisinin, 28,8%-i əlavə dəyər vergisinin, 13,8%-i fiziki şəxslərin gəlir vergisinin, 10,4%-i aksizlərin, 15%-i isə digər vergilərin payına düşür.

Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 4 milyard 306 milyon 486,5 min manat vəsait daxil olmuşdur ki, bu da 2013-cü illə müqayisədə 14,5% çoxdur.

Hesabat dövründə respublika üzrə 82.688 vergi ödəyicisi qeydiyyata alınmışdır. 1 yanvar 2015-ci il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 609.742 olmuşdur ki, bu da 2014-cü ilin 1 yanvar tarixinə qeydiyyatda olan vergi ödəyicilərinin sayından 13,4% çoxdur.

2014-cü ildə respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 90,2% təşkil etmişdir.

***Vergi borclarının azalma dinamikası davam etmişdir***

2014-cü ildə vergi orqanları tərəfindən vergi borclarının alınması sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində vergi ödəyicilərinin dövlət büdcəsinə olan borc məbləği ilin sonunda 1 yanvar 2014-cü il tarixlə müqayisədə 9,6% azalmışdır.

2014-cü il ərzində ümumilikdə 257 min 752 vergi ödəyicisinin borcları tamamilə ləğv edilmiş, borclu vergi ödəyicilərinin sayının ümumi vergi ödəyicilərinin sayında xüsusi çəkisi 4,1% təşkil etmişdir.

Vergi ödəyicilərinin dövlət büdcəsinə yaranmış borclarının ödənilməsinin təmin edilməsi məqsədilə vergi orqanları tərəfindən əmlakın siyahıya alınması barədə 84 min 465 qərar açılmış, bu qərarların 80,4%-i borclar ləğv edildiyi üçün bağlanılmışdır. Siyahıya alınmış əmlakların ixtisaslaşdırılmış açıq hərraclarda satılması məqsədilə məhkəmələrə verilmiş iddia ərizələri üzrə 1 milyon 612,3 min manat borc məbləğini əhatə edən 955 məhkəmə qətnaməsi qəbul olunmuşdur. Ümumilikdə əmlakın siyahıya alınması barədə açılmış qərarlar üzrə 68,9 milyon manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Fiziki şəxslərin borclarının onların mülkiyyətində olan avtonəqliyyat vasitələrinə yönəldilməsi nəticəsində 13.311 vergi ödəyicisinin 13,2 milyon manatdan çox borcu dövlət büdcəsinə ödətdirilmiş, 543 vergi ödəyicisi tərəfindən nəqliyyat vasitələri siyahıya alınmağa təqdim edilmədiyi üçün onların üzərlərinə həbs qoyulmaqla cərimə meydançalarında yerləşdirilməsi barədə məhkəmələr tərəfindən müvafiq qərarlar qəbul edilmişdir.

Hüquqi şəxslərdə təsisçi (payçı) kimi çıxış edən borclu fiziki şəxslərin borclarının həmin hüquqi şəxslərdəki paylarından tutulması məqsədilə həyata keçirilmiş tədbirlər nəticəsində 1640 fiziki şəxs üzrə 1.229,2 min manat məbləğində borc dövlət büdcəsinə ödətdirilmişdir.

Vergi orqanları tərəfindən 813 borclu fiziki şəxsin ölkədən getmək hüququnun məhdudlaşdırılması, habelə kiçik həcmdə borcları olan 3470 vergi ödəyicisinin borclarının tələbin icraya yönəldilməsi qaydasında tutulması məqsədilə aidiyyəti üzrə icra məmurlarına müraciətlər edilmişdir.

Xeyli və ya külli miqdarda vergiləri dövlət büdcəsindən yayındırdığına görə, ümumilikdə 892 vergi ödəyicisi üzrə 33,2 milyon manat borc məbləğini əhatə edən materiallar ibtidai istintaq qaydasında araşdırılması məqsədilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmişdir.

***Səyyar vergi yoxlamaları***

İl ərzində səyyar vergi yoxlamaları aparılmış vergi ödəyicilərinin 99,4%-də vergi qanunvericiliyinin pozulması halları aşkar edilmiş, bu dövr ərzində başa çatdırılmış səyyar vergi yoxlamaları nəticəsində 905 milyon 423,6 min manat əlavə vəsait hesablanmışdır. Bu məbləğin 62%-ni əlavə hesablanmış vergi məbləği, 38%-ni isə vergilərin azaldılmasına və digər hüquq pozuntularına görə tətbiq edilmiş maliyyə sanksiyası (faizlə birgə) təşkil etmişdir. Ümumilikdə 2013-cü illə müqayisədə 2014-cü il ərzində başa çatdırılmış səyyar vergi yoxlamaları zamanı cəmi əlavə hesablamanın məbləği 215 milyon 774,5 min manat və ya 31,3% artmışdır.

2014-cü il ərzində başa çatdırılmış səyyar vergi yoxlamaları üzrə orta hesabla 1 yoxlamaya düşən hesablanmış cəmi əlavə vəsaitin məbləği 78,6 min manat təşkil etmişdir ki, bu da əvvəlki dövrlə müqayisədə 8,3% çoxdur.

Əlavə hesablanmış vəsaitlərdə mənfəət vergisi 16,6%, əlavə dəyər vergisi 29,1%, ödəmə mənbəyində tutulan vergi (muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan gəlir vergisi istisna olmaqla) 40,8%, sadələşdirilmiş vergi 1,6%, sahibkarlıq fəaliyyətindən gəlir vergisi 1%, muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi 5,4%, digər vergilər isə 5,5% təşkil etmişdir.

**2014-cü ildə iqtisadiyyatın sahələri üzrə vergi daxiolmaları**




***Cinayət cəzasız qalmır...***

2014-cü il ərzində Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində vergi ödəməkdən yayınmaq və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq faktları üzrə cəmi 971 sayda cinayət işi başlanmışdır.

Bu cinayət işlərindən 205-i vergi ödəməkdən yayınmaq və qanunsuz sahibkarlıq (bunlardan 80-i külli miqdarda gəlir əldə etməklə vergidənyayınma) faktları ilə bağlı səyyar vergi yoxlamalarının nəticələrinə dair materiallar üzrə, 745-i vergi borcunun ödənilməməsi, 14-ü əmək müqaviləsi hüquqi qüvvəyə minmədən şəxslərin işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi, aksiz markası olmadan malların satışı və saxlanılması, qanunsuz idman mərc oyunlarının keçirilməsi ilə məşğul olmaq faktları üzrə operativ vergi nəzarəti tədbirlərinin nəticələrinə dair vergi orqanlarından daxil olmuş materiallar əsasında, 7 iş isə qanunsuz sahibkarlıq faktları ilə bağlı digər hüquq-mühafizə orqanlarından daxil olan materiallar üzrə başlanmışdır.

Departamentdə cinayət işləri və materiallar üzrə aparılan araşdırmalar zamanı 16 milyon 81,4 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir. Bir cinayət işi üzrə təqsirləndirilən şəxsin 530 min manat dəyərində olan əmlakı üzərinə həbs qoyulmuşdur.

**Davamı 3-cü səhifədə**

# Vergilər Nazirliyi 2000-2014-cü illərdə

**Ölkə üzrə ümumi vergi daxiolmaları** *(milyon manatla)*




**Dövlət və qeyri-dövlət sektorları üzrə vergi daxiolmaları** *(milyon manatla)*




Azərbaycanın vergi sistemində aparılan kompleks islahatlar, sahibkarlar və iş adamları üçün əlverişli vergi mühitinin yaradılması, iqtisadi inkişafı stimullaşdıran çevik və səmərəli vergi siyasətinin həyata keçirilməsi dövlət büdcəsinə vergi daxilolmalarının artması ilə nəticələnmişdir.

Əgər 2000-ci ildə vergi daxilolmaları cəmi 510,4 milyon manat təşkil edirdisə, 2014-ci ildə bu rəqəm 14 dəfəyədək artaraq 7113,6 milyon manata çatmışdır. Qeyri-dövlət sektorundan vergi daxilolmaları 24 dəfə artaraq, ümumi daxilolmaların 70,4%-ni təşkil etmişdir. Ölkə iqtisadiyyatında neft sektorunda əldə olunan gəlirlərin qeyri-neft-qaz sektorunun inkişafına yönəldilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində bu sahədən vergi daxilolmaları da əhəmiyyətli dərəcədə artmışdır. 2014-cü ildə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ümumi daxilolmaların 60,5%-ni təşkil etmişdir.

Son 15 ildə vergi daxilolmaları bütövlükdə 13.9 dəfə, o cümlədən qeyri-neft-qaz sektorundan daxilolmalar 14.4 dəfə, regionlardan daxilolmalar isə 14.8 dəfə artmışdır.

**Neft-qaz və qeyri-neft-qaz sektorları üzrə vergi daxiolmaları** *(milyon manatla)*




**Ərazi vergi orqanları üzrə vergi daxiolmaları** *(milyon manatla)*




# Vergilər Nazirliyi 2014-cü ildə

**Əvvəli 2-ci səhifədə**

Departamentin İstintaq idarəsində 405 cinayət işi üzrə ibtidai istintaq tamamlanmış, 26 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilmişdir. İcraatına xitam verilmiş 280 cinayət işindən 198 iş üzrə bəzi müəssisələrin rəhbərləri və fiziki şəxslər yayındırdıqları vergiləri (32 iş üzrə külli miqdarda) ibtidai istintaq zamanı tamamilə ödədiklərinə görə, barələrində müvafiq qərarlar qəbul edilmişdir. Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan edilmiş 26 nəfər şəxs tutularaq İstintaq idarəsinə təhvil verilmiş, ibtidai istintaqdan yayınan 324 şəxsin məcburi qaydada gətirilməsi, 226 şəxsin tapılaraq istintaqa gəlmələri, 208 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilmişdir.

Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 376 nəfər vergi ödəyicisi tapılaraq müvafiq vergi orqanlarına gəlmələri təmin olunmuşdur.

***Operativ nəzarət tədbirləri***

2014-cü ildə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 53.909 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkarlanmışdır. 29.025 vergi ödəyicisi tərəfindən nağd hesablaşmaların aparılması qaydalarının pozulduğu, 9830 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 7823 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu müəyyən edilmişdir. 3490 vergi ödəyicisi tərəfindən 4751 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi, 2842 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 899 vergi ödəyicisində 10.822 ədəd aksiz markaları ilə müvafiq qaydada markalanmamış mal olduğu aşkarlanmışdır.

Aşkar edilmiş nöqsanlarla bağlı qanunamüvafiq tədbirlər görülmüşdür.

***Yeni elektron xidmətlərin layihələri hazırlanmışdır***

Ötən il ərzində Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş «Elektron xidmət növlərinin Siyahısı»nda dəyişikliklər edilmiş və Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmət növləri siyahısına daha 3-cü - «Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış»ın təqdim edilməsi», «Vergi partnyorluğu Sazişi»nin bağlanılması üçün ərizələrin qəbulu» və «Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi» əlavə edilərək, elektron xidmətlərin ümumi sayı 60-a çatdırılmışdır.

Bununla yanaşı, Vergilər Nazirliyi tərəfindən daha bir neçə - «Gəlir və ya mənfəət vergisinin hesabatının verilməsi müddətinin uzadılması barədə ərizələrin qəbulu», «Azərbaycan Respublikasında kommersiya hüquqi şəxsin adının bron (rezerv) edilməsi» və «Çağrı Mərkəzi vasitəsi ilə sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsi» üzrə elektron xidmətlərin layihəsi hazırlanmış və onların da «Elektron xidmət növlərinin Siyahısı»na əlavə edilməsi nəzərdə tutulmuşdur.

***Çağrı Mərkəzinə müraciətlərin sayı artmışdır***

2014-cü ildə Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə canlı rejimdə 198.325 və ya əvvəlki illə müqayisədə 7,65% çox zəng daxil olmuşdur. Canlı əlaqə zamanı 190.553 müraciət cavablandırılmışdır ki, onların 13,57%-i qeydiyyat, 11,96%-i vergi növləri, 10,84%-i elektron xidmətlər, 10,72%-i «ASAN imza», 7,11%-i hesabatlar (bəyannamə və arayışlar) və onların doldurulma qaydaları, 5,83%-i əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi, 3,46%-i vergi ödəyicisinə göndərilmiş mesajlar, 3,30%-i büdcə ilə hesablaşmalar barədə olmuşdur.

Daxil olmuş müraciətlərin 5021-i barədə araşdırma aparılması üçün müraciət vərəqəsi tərtib edilmiş, həmin müraciətlər orta hesabla 2,4 gün ərzində cavablandırılmışdır.

Vergi ödəyiciləri tərəfindən 16.930 dəfə vergi borcu, 8460 dəfə vergi növləri barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə edilmişdir. Vergi ödəyicilərinə 2.296.678, o cümlədən 10.006 səsli mesaj göndərilmişdir.

Vergi ödəyicilərinin Çağrı Mərkəzinin xidmətindən razı qalma səviyyəsi 95,3% olmuşdur.

İl ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 3 milyon 633 min 992 daxilolma qeydə alınmışdır.

***Daxil olan hər bir müraciətə diqqətlə yanaşılır***

İl ərzində vergi orqanlarına cəmi 103196 müraciət daxil olmuşdur ki, onlardan da 98,2%-i ərizə, 1,6%-i şikayət, 154-ü təklifdir. Müraciətlərin 33,5%-i kameral vergi yoxlamaları, 30,8%-i müxtəlif arayışların alınması, 14,9%-i səyyar vergi yoxlamaları, 5,6%-i vergi borcları, 1,1%-i operativ vergi nəzarəti, 0,3%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,1%-i korrupsiya hüquqpozmaları, 13,7%-i isə digər məsələlərlə bağlı olmuşdur. Ümumilikdə müraciətlərin 75,4%-i müsbət həll olunmuş, 14,9%-i üzrə müvafiq izahatlar verilmiş, 5,7%-i əsassız sayılmışdır. Hesabat dövründə vergi orqanlarına daxil olmuş şikayətlərin faktiki sayı 1020 ədəd olmuşdur. Şikayətlərin 34%-i kameral vergi yoxlaması, 21,3%-i operativ vergi nəzarəti, 17,8%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 17%-i səyyar vergi yoxlamaları, 7%-i korrupsiya hüquqpozmaları, 2,9%-i isə digər sahələrlə əlaqəlidir.

Baxılmış şikayətlərin 36,7%-i əsassız sayılmış, 36,6%-i üzrə müvafiq izahatlar verilmiş, 15,5%-i müsbət həll olunmuşdur.

İcra intizamına nəzarətin gücləndirilməsi nəticəsində icra müddəti gecikdirilən müraciətlərin sayı əvvəlki ilə nisbətən nəzərəçarpacaq dərəcədə azalaraq cəmi 87 ədəd və ya 0,08% təşkil etmiş, şikayətlər üzrə gecikdirilmə hallarına yol verilməmişdir.

2014-cü il ərzində Vergilər Nazirliyinin aparatının müvafiq struktur bölmələrinin rəhbərləri və ya digər vəzifəli şəxsləri tərəfindən 1100 vətəndaş qəbul edilərək, onlara mövcud qanunvericilik çərçivəsində müvafiq köməklik göstərilmiş və ya izahatlar verilmişdir.

2014-cü ildə vergilər naziri tərəfindən Mingəçevir, Sabirabad, Göyçay, Xaçmaz, Zaqatala, Salyan, Kürdəmir və Xırdalan şəhərlərində ümumilikdə 325 nəfər vətəndaş qəbul edilmişdir. Onların müraciətlərindən 61-i hesablanmış verginin (tətbiq edilmiş maliyyə sanksiyasının) ləğvinə və ya ümidsiz borcların silinməsinə köməklik göstərilməsi, 50-si işə qəbul (və ya bərpa), yaxud iş yerinin dəyişdirilməsinə köməklik göstərilməsi, 31-i maddi yardım edilməsi, 25-i güzəştli şərtlərlə kredit alınmasına köməklik göstərilməsi, 21-i vergi qanunvericiliyi və inzibatçılığının izah olunması və ya onda müvafiq dəyişikliklərin edilməsi, 12-si vergi nəzarəti tədbirləri, 10-u sosial sığorta ödənişləri, 115-i isə digər məsələlərlə bağlı olmuşdur.

***Vergilər Nazirliyinin www.taxes.gov.az internet səhifəsi***

Ötən il ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsi (www.taxes.gov.az) yenidən inventarizasiya edilmiş, köhnə, aktual olmayan məlumatlar çıxarılmış, lazımi əlavə və düzəlişlər edilmişdir. Səhifəyə daxil olan istifadəçilərin axtardıqları məlumatları tez və rahat tapması üçün «Onlayn bələdçi» xidməti istifadəyə verilmişdir.

«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarlığın maraqlarının müdafiəsi haqqında» Qanunun icrası ilə əlaqədar nazirliyin rəsmi internet səhifəsində vergi orqanları tərəfindən aparılan yoxlamaların reqlamentini, onların hüquqi əsasları barədə dolğun məlumatı əks etdirən «Vergi yoxlamaları: əsaslar və prosedurlar» bölməsi yaradılmış və burada müvafiq sənədlər, vergi ödəyicilərinin məlumatlandırılması məqsədilə bildiriş-məlumatlar yerləşdirilmişdir.

«Borclu vergi ödəyiciləri barədə məlumat» bölməsi yaradılmış, «Qanunvericilik» altbölmələri, «ASAN imza» bölməsi yenilənmiş və həmin bölmədə müvafiq sənədlər yerləşdirilmişdir. «Sual-cavab» bölməsində yerləşdirilən suallara cavabların qiymətləndirilməsi mexanizmi yaradılmışdır.

Vergilər Nazirliyinin rəsmi internet səhifəsində vergi ödəyicilərinə xidmət mərkəzlərində və «195» Çağrı Mərkəzində göstərilən xidmətin səviyyəsinin və keyfiyyətinin müəyyən edilməsi və ölçülməsi məqsədi ilə «Birlikdə daha yaxşı olaq!», «Vergi məsələləri, o cümlədən vergi bəyannamələrinin hazırlanması və vergi orqanına göndərilməsi ilə bağlı hara müraciət edirsiniz?» və «Alış-veriş zamanı POS-terminaldan istifadə edirsinizmi?» mövzuları üzrə sorğular keçirilmişdir.

«Facebook» və «Twitter» sosial şəbəkələrindəki Vergilər Nazirliyinin rəsmi səhifələrində, «Youtube» video-hostinq serverində və video.az saytında vergi orqanlarının fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması mütəmadi olaraq həyata keçirilmişdir. Nazirliyin «Facebook» sosial şəbəkəsindəki səhifəsində «FACE-Vizit» layihəsi, eləcə də vergi ödəyicilərinin vergi qanunvericiliyi və inzibatçılığı barədə məlumatlandırılması məqsədilə «Onlayn müfəttiş» adlı layihə davam etdirilmişdir.

***«Vergi dostları» ilə əməkdaşlıq gücləndirilir***

Vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işini genişləndirmək, «vergi» məfhumunu ölkəmizin bütün ərazisinə, xüsusilə ərazi vergilər idarə və departamentlərinin, rayon vergilər şöbələrinin və vergi ödəyicilərinə xidmət mərkəzlərinin yerləşdiyi şəhər və rayon mərkəzlərinin əhatəsindən kənarda olan kənd və qəsəbələrə, hər bir ailəyə çatdırmaq məqsədilə «Vergi dostları» şəbəkəsi yaradılmışdır. Hazırda respublikanın 53 rayonları üzrə seçilmiş ümumtəhsil məktəbləri üzrə 1541 müəllim «vergi dostu» kimi fəaliyyət göstərir.

**Səyyar yoxlamalar üzrə əlavə hesablanmış vəsaitlər**




*Ötən il vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 53.909 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkarlanmışdır*

# İqtisadi inkişafa xidmət edən vergi sistemi



**Akif Musayev,**
*vergilər nazirinin vergi siyasəti məsələləri üzrə müşaviri*

Azərbaycanda milli vergi sisteminin formalaşdırılması, inkişaf etdirilməsi və modernləşdirilməsi zaman baxımından o qədər də uzun olmayan bir dövrü əhatə etsə də, bu tarix milli vergi xidmətinin müasir inkişafını təmin edən, hər bir ili islahatlarla zəngin olan mühüm inkişaf dövrüdür.

Ölkəmizdə sürətli iqtisadi inkişafın təmin olunmasında və gələcək nailiyyətlərin təməlinin yaradılmasında əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş vergi siyasətinin müstəsna rolu olmuşdur.

Ulu öndər Nazirlər Kabinetinin 1998-ci il noyabrın 6-da keçirilmiş geniş iclasındakı yekun nitqində dövlət müstəqilliyi əldə olunduqdan sonra vergitutma sahəsində qəbul edilmiş çoxsaylı normativ aktların Azərbaycanın vergi sisteminin ayrı-ayrı sahələrini əhatə etdiyindən vergi sisteminin idarə olunmasında bir sıra problemlərin yaranmasını, vergi qanunvericiliyində mövcud olan boşluqların istər vergi ödəyicilərinin, istərsə də vergi xidməti orqanlarının fəaliyyətində çətinliklər yaratdığını, vergitutmanın qanunvericilik və metodoloji bazasının təkmilləşdirilməsinin zəruriliyini qeyd edərək, qısa müddətdə Vergi Məcəlləsinin layihəsinin hazırlanması ilə əlaqədar hökumətə tapşırıqlar verdi.

«Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik» - deyən Heydər Əliyev vergi sisteminin təkmilləşdirilməsi, onun vahid normativ-hüquqi bazasının yaradılmasının vacibliyi ilə yanaşı, Vergi Məcəlləsində vergi dərəcələrinin aşağı salınması və vergi yükünün azaldılması hesabına vergitutma bazasının genişləndirilməsi, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılması, kiçik və orta sahibkarlıq üçün əlverişli vergi mühitinin yaradılması, habelə vergi xidməti orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində məqsədyönlü işlərin aparılmasının vacibliyini də həmişə xüsusi olaraq vurğulayırdı.

2000-ci ilin iyul ayında Vergi Məcəlləsinin layihəsi geniş müzakirələrdən sonra Milli Məclis tərəfindən qəbul edildi və 1 yanvar 2001-ci il tarixdən qüvvəyə mindi. Vergi Məcəlləsi ölkəmizdə vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyənləşdirdi.

Vergi sisteminin vahid normativ-hüquqi bazasını təşkil edən Vergi Məcəlləsinin tətbiqi nəticəsində vergi qanunvericiliyində olan boşluqlar, ziddiyyətlər və pərakəndəlik aradan qaldırıldı. Vergilərin sayı 14-dən 9-a endirildi, vergilərin dərəcələri, tətbiq olunan maliyyə sanksiyalarının məbləğləri aşağı salındı və vergi ödəyicilərinin hüquqları genişləndirildi.

Ölkədə müasir tələblərə cavab verən, beynəlxalq normalara uyğun çevik və səmərəli vergi inzibatçılığını həyata keçirən dövlət orqanının yaradılması məqsədilə Azərbaycan Prezidentinin 11 fevral 2000-ci il tarixli fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyinin bazasında dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin vaxtında və tam ödənilməsini təmin edən, bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı - Vergilər Nazirliyi yaradıldı.

Sonrakı dövrlərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında vergi inzibatçılığının modernləşdirilməsi ilə bağlı bir sıra uğurlu islahatlar həyata keçirildi. Dövlət başçısının 2005-ci il 12 sentyabr tarixli sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı (2005-2007-ci illər)»nın reallaşdırılması nəticəsində vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi və vergi ödəyicilərinin hüquqlarının etibarlı qorunmasının təmin olunması, vergi dələduzluğu və vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi, vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması, müasir tələblərə cavab verən kompüter informasiya sisteminin yaradılması istiqamətlərində mühüm işlər görüldü.

Azərbaycanda bir çox ölkələrin vergi orqanlarında maraq doğuran özünəməxsus vergi sistemi formalaşdırıldı. Aparılan vergi siyasəti bir tərəfdən tətbiq olunan vergilərin və onların dərəcələrinin iqtisadiyyatda fiskal situasiyanın nəticələrinə obyektiv qiymət verilməsinə, digər tərəfdən isə vergi sisteminin səmərəli, ədalətli, asan qavranılan və istifadə üçün sadə olmasına şərait yaratdı. Tam əminliklə deyə bilərik ki, hazırda ölkəmizin sosial qanunçuluğa və ədalətə söykənən iqtisadi sisteminə adekvat olan bir vergi sistemi formalaşıb.

Bu gün Azərbaycanın vergi siyasəti institutları vergi potensialının və vergi gəlirlərinin monitorinqini, vergi siyasətinin iqtisadi, struktur və gəlir aspektlərinin qiymətləndirilməsini, vergilər toplananadək və toplandıqdan sonra xərclənməsinin təhlilini aparır, aktiv vergi siyasətinin formalaşması, vergi potensialının qiymətləndirilməsi, proqnozlaşdırılması üzrə və bunlarla məhdudlaşmayan geniş spektrdə ex-post və ex-ante təhlillər əsasında qəbul olunmuş qərarların ölkədə sahibkarlıq mühitinə təsiri nəzərə alınmaqla qanunvericilik və inzibatçılıq sahəsində lazımi tədbirlər həyata keçirirlər.

Aparılan vergi siyasəti əsasən dövlət vergilərinin və digər büdcə daxilolmalarının düzgün hesablanmasına, onların vaxtında və tam həcmdə dövlət büdcəsinə köçürülməsinə, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsinə, vergi nəzarətinin gücləndirilməsinə, vergi ödəyicilərinə xidmətin keyfiyyətinin yüksəldilməsinə, ölkənin vergi sisteminin beynəlxalq vergi sisteminə inteqrasiya olunmasına və vergi sistemində insan resurslarından istifadənin səmərəliyinin artırılmasına yönəldilmişdir.

İnnovasiya və bilik iqtisadiyyatının inkişafının stimullaşdırılmasının zəruriliyi nəzərə alınaraq, innovativ sahibkarlığa və elmtutumlu məhsulların, yüksək texnologiyaların istehsalına investisiya qoyuluşlarının vergi stimullaşdırılması məqsədilə Vergi Məcəlləsində edilmiş dəyişikliklərlə sənaye və texnologiyalar parklarında sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlirlərinin 7 il müddətinə gəlir vergisindən, parkların idarəedici təşkilatının və operatorunun mənfəətinin parkın infrastrukturunun tikintisinə və saxlanılmasına yönəldilmiş hissəsi müddət qoyulmadan mənfəət vergisindən, sənaye və texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirləri 7 il müddətinə mənfəət vergisindən, sənaye və texnologiyalar parklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi məqsədilə idarəedici təşkilat və operator tərəfindən idxal edilən texnikaların, texnoloji avadanlıqların və qurğuların idxalının müddət qoyulmadan ƏDV-dən, parkların rezidenti olan şəxslər tərəfindən qeyd olunan məqsədlər üçün gətirilən texnika, texnoloji avadanlıq və qurğuların idxalı 7 il müddətinə ƏDV-dən azad edilib. Eyni zamanda, Vergi Məcəlləsində parkların idarəedici təşkilatı və operatoru, parkların rezidenti olan hüquqi və fiziki şəxslər üçün əmlak və torpaq vergiləri üzrə də azadolmalar müəyyənləşdirilib.

Kənd təsərrüfatı 2001-ci il 1 yanvar tarixindən torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad edilib və bu güzəştin müddəti məcəllədə olan son dəyişikliklərə əsasən 2019-cu ilə qədər uzadılıb. Bank depozitlərindən əldə olunan gəlirlər uzun müddət vergidən tam azad idi və 2015-ci il 1 yanvar tarixindən həmin gəlirlərin 500 manatadək olan hissəsi yenə vergidən azad olundu. Məktəbəqədər təhsil-tərbiyə müəssisələri, ödənişli təhsil isə ƏDV-dən azad olunub.

Dünyanın ƏDV tətbiq edən bütün qabaqcıl ölkələrində olduğu kimi, Azərbaycanın da vergi sisteminin əsas inkişaf istiqamətlərindən biri olan ƏDV inzibatçılığının təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanılır.

Beynəlxalq qurumların tövsiyələri və ƏDV-nin tətbiqi sahəsində əldə olunmuş təcrübə nəzərə alınmaqla ƏDV məqsədləri üçün vergi ödəyicilərinin qeydiyyatı, ƏDV-nin hesablanması və əvəzləşdirilməsi mexanizmi təkmilləşdirilib. Vergi Məcəlləsində dəyişikliklər edilməklə ƏDV məqsədləri üçün qeydiyyata alınmalı olan vergi ödəyicilərinin müəyyən edilməsində hüquqi və fiziki şəxslər arasında mövcud olan fərqli yanaşmanın aradan qaldırılmasına, ƏDV-nin hesablanması və əvəzləşdirilməsinin vahid prinsip əsasında həyata keçirilməsinə, qeydiyyatla bağlı meydana çıxan mübahisəli məsələlərin həllinə və ƏDV inzibatçılığının sadələşdirilməsinə nail olunub.

Azərbaycan Respublikası qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması istiqamətində həyata keçirilən son tədbirlərdən biri kimi yerli istehsalda tütün məmulatlarına tətbiq edilən aksizin advalor qaydada hesablanmasından spesifik qaydaya keçildiyini (malların dəyərinə tətbiq olunan aksiz dərəcəsindən onların həcminin kəmiyyət ölçüsünə tətbiq olunan aksiz dərəcəsinə keçilməsi), Azərbaycan Respublikasının ərazisində istehsal olunan içməli spirtə, pivə və spirtli içkilərin bütün növlərinə, tütün məmulatlarına tətbiq olunan aksiz dərəcələri ilə bağlı dəyişiklikləri göstərmək olar.

Ötən dövr ərzində Vergi Məcəlləsində edilmiş dəyişikliklər, əsasən, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi güzəştlərinin verilməsində ünvanlılığın təmin edilməsi, vergidən yayınma hallarına qarşı səmərəli vergi nəzarətinin təşkili, innovasiyalar üçün əlverişli investisiya mühitinin yaradılması, vergi ödəyiciləri ilə partnyorluq əlaqələrinin genişləndirilməsi ilə bağlı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasına uyğun olaraq, Vergilər Nazirliyi tərəfindən təsdiq olunmuş «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»da ölkə qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması, passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçid, vergilər üzrə güzəşt və azadolmaların səmərəliliyinin qiymətləndirilməsi, vergi bəyannamələrinin əvvəlcədən doldurulma sisteminə mərhələlərlə keçidin təmin olunması, ümumi bəyannamə sisteminə keçidlə bağlı hazırlığın görülməsi kimi tədbirlər müəyyən edilib.

Qeyd etmək lazımdır ki, vergi sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən bütün tədbirlərdə dövlət, biznes və istehlakçılar arasında qarşılıqlı etibar və korporativ sosial maraqların təmin edilməsi vergi siyasətinin əsas vəzifələrindən biri olub. Bu vəzifənin yerinə yetirilməsi üçün ölkəmizin iqtisadi sisteminin xüsusiyyətləri və əhalinin mentaliteti, psixologiyası və sosial-iqtisadi-demoqrafik imkanları əsas faktorlar kimi həmişə diqqət mərkəzində saxlanılır. Səmərəli maarifləndirmə və məlumatlandırma sisteminin yaradılması məqsədilə vergi ödəyicilərinin sosial-demoqrafik göstəricilərinə əsasən vergidən yayınmanın motivlərinin aşkar olunması, vergidən yayınma riskinə meyilli və risklərə neytral olan vergi ödəyicilərinin ayrılması və vergi ödəməkdən yayınmanın institusional xüsusiyyətlərinin müəyyənləşdirilməsinə imkan verən metodologiya hazırlanıb.

Artıq ölkədə büdcə planlaşması və vergi siyasətinin həyata keçirilməsinin kifayət qədər təkmil metodları formalaşıb. Belə ki, hər maliyyə ilinin sonunda büdcə planlaşdırılması sahəsində mövcud məsələlərin həlli ilə yanaşı, dövlətin vergi siyasəti institutları tərəfindən Azərbaycan Respublikasının növbəti və yaxın üç il üçün vergi siyasətinin əsas istiqamətləri işlənib hazırlanır. Vergi siyasətinin əsas istiqamətləri normativ sənəd statusuna malik olmasa da, bu istiqamətlər ölkə iqtisadiyyatının struktur komponentinin xüsusi çəkisinin artırılması, dünyada baş verən siyasi və iqtisadi konyukturdan asılı komponentin təsirinin neytrallaşdırılması, iqtisadi agentlərdə öz gələcək biznes-planlarının tərtibi zamanı biznes mühitinin sabitliyi və müəyyənliyi ilə bağlı əlavə imkanlar yaradır.

Vergi siyasəti sahəsində yuxarıda qeyd olunan prioritetlər və müəyyənlik orta və uzunmüddətli dövrdə vergi sisteminin səmərəliliyinin artırılması ilə yanaşı, bir tərəfdən, büdcənin dayanıqlığının təmin edilməsini nəzərdə tutan büdcə gəlirlərinin əldə olunmasına, digər tərəfdən isə ölkənin xarici iqtisadi inteqrasiyada vergi rəqabətliliyini təmin edən sahibkarlıq və investisiya aktivliyinə xidmət edir.

*«Xalq qəzeti», 05.02.2015*

# Vergi ödəyicilərinin hüquqları və qanuni mənafeləri qorunur



**Samirə Musayeva,**
*Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi*

Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən Vergilər Nazirliyi ona həvalə edilmiş vəzifə və funksiyalarını icra edərkən hüquqi dövləti səciyyələndirən hüquq və azadlıqların üstünlüyü prinsipini rəhbər tutaraq, vergi ödəyicilərinin hüquqlarını və qanuni mənafelərini təmin edir, bu istiqamətdə qanunvericiliklə müəyyən edilmiş bütün zəruri tədbirləri görərək əməli addımlar atır.

Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edən Vergi Məcəlləsi müstəqil Azərbaycanın həyatında tarixi bir hadisə olaraq vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış mühüm addımlardan biri olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının insan hüquq və azadlıqlarına xüsusi önəm verməsinin nəticəsidir ki, 221 maddədən ibarət Vergi Məcəlləsinin 100-dən artıq maddəsi vergi ödəyicilərinin hüquqlarının qorunması və onların qanuni maraqlarının təmin olunması ilə bağlıdır. Yeni ictimai münasibətlərin yaranması, aparılmış çoxsaylı islahatlar, insan hüquq və azadlıqlarının müdafiəsinin prioritetliyi, vergi sisteminin modernləşdirilməsi, vergi-hüquq normalarının beynəlxalaq standartlara uyğunlaşdırılması prosesinin sürətləndirilməsi məqsədi ilə Vergi Məcəlləsinə indiyədək 45 qanunla bir sıra mütərəqqi dəyişikliklər edilmişdir. Dəyişikliklərin əksəriyyəti vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, vergi yükünün azaldılmasına və vergi inzibatçılığının təkmilləşdirilməsinə yönəlmişdir. Qanunvericilik aktlarında vergi ödəyicilərinin hüquqlarının qorunması ilə bağlı maddələrin əks olunması Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər zamanı da diqqətdən yayınmamışdır. Sonuncu belə dəyişikliklərdən biri də bu yaxınlarda əmlak və yol vergisi ilə bağlıdır. Bu dəyişiklikdən sonra vergi ödəyicilərinin hüquqi vəziyyəti yaxşılaşdırılmış və vergilərin hesablanması mexanizmi daha da asanlaşdırılmışdır. Əmlak vergisinin binaların inventar dəyərinə əsasən hesablanma qaydası ləğv edilmiş, fiziki şəxslərin əmlak vergisi onların xüsusi mülkiyyətində olan binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə müəyyən edilmiş müvafiq dərəcələr tətbiq olunmaqla hesablanmağa başlanmışdır. Digər mühüm bir dəyişiklik yol vergisi ilə bağlıdır. 2015-ci ilədək illik yol vergisini dövlət büdcəsinə fiziki şəxslər avtonəqliyyat vasitələri texniki baxışdan keçirilən zaman onların mühərrikinin həcminə görə, hüquqi şəxslər isə balanslarında olan avtonəqliyyat vasitələrinə görə vergi orqanlarına müvafiq bəyannamə təqdim etməklə ödəyirdilər. Bu zaman hüquqi və fiziki şəxslər tərəfindən istismara yararsız avtonəqliyyat vasitələrinə görə də, onların avtomobil yollarından istifadə edib-etməmələrindən asılı olmayaraq, yol vergisi ödənilirdi. Son dəyişikliklə ölkə ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən və idxal olunan avtomobil benzini, dizel yanacağı və maye qazın hər litrinin topdansatış qiymətinə 2 qəpik əlavə edilməklə yol vergisi tətbiq edilmişdir. Artıq yol vergisi bəyannaməsini bütün avtomobil sahibləri deyil, yalnız Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı və ya idxalı ilə məşğul olan şəxslər təqdim edəcəklər.

Ölkənin iqtisadiyyatı, sosial həyatı və ictimai münasibətlərin digər sahələrinin tənzimlənməsində hüququn rolunun artması ilə əlaqədar olaraq, Vergilər Nazirliyində hüquqi təminat və məhkəmə işlərinin düzgün qurulması böyük əhəmiyyət kəsb edir. Normativ bazanın formalaşdırılmasını, məhkəmələrdə düzgün hüquqi müdafiənin qurulmasını təmin etmək, hüquqi təminat və məhkəmə işlərinin nəzəri və praktiki problemlərini təhlil etmək, yerli vergi orqanlarında hüquqi işlərin təşkilinə metodiki rəhbərliyi gücləndirmək, vergi orqanlarının fəaliyyətində qanunvericiliyin düzgün tətbiqini təmin etmək, vergi işçilərinin qanunvericilikdə baş verən yenilikləri daim izləyə bilmələrini və qanunvericiliyin təkmilləşdirilməsində onların fəal iştirakını təmin etmək məqsədilə Azərbaycan Respublikası vergilər nazirinin 1 oktyabr 2001-ci il tarixli əmri ilə Vergilər Nazirliyinin aparatında müstəqil hüquq strukturu yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il fərmanı ilə Vergilər Nazirliyinə Cinayət Məcəlləsinin bir sıra maddələri üzrə təhqiqat və istintaq aparılması səlahiyyətləri verilməsi ilə əlaqədar nazirlikdə Hüquq-mühafizə orqanları ilə əlaqələndirmə Baş İdarəsi, eləcə də Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti yaradılmışdır. Departamentin fəaliyyəti nəticəsində əksər hallarda ibtidai araşdırma zamanı vergi ödəyiciləri tərəfindən büdcədən yayındırılmış vergilərin dövlət büdcəsinə ödətdirilməsi təmin olunur və cinayət işinin başlanaraq məhkəməyə göndərilməsinə ehtiyac qalmır. Sonrakı dövrlərdə həmin strukturlar əhəmiyyətli dərəcədə genişləndirilmişdir və hazırda Vergilər Nazirliyində Hüquq Baş İdarəsi, yerli vergi orqanlarında isə müvafiq hüquq strukturları şəklində fəaliyyət göstərirlər.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq Baş İdarəsi hüquqi təminat, məhkəmə işlərinin təşkili və daxil olmuş materialların hüquqi ekspertizası sahəsində tənzimləmə fəaliyyətini həyata keçirir. Baş idarə Əsasnaməsi ilə ona verilmiş səlahiyyətlər çərçivəsində Vergilər Nazirliyini iddiaçı, cavabdeh, zərərçəkmiş və üçüncü şəxs qismində bütün məhkəmə instansiyalarında təmsil edir, vergi orqanlarının iştirak etdiyi məhkəmə işlərinə ümumi nəzarəti həyata keçirir, səyyar və kameral vergi yoxlamaları, operativ vergi nəzarəti tədbirlərinin nəticələri üzrə vergi ödəyicilərinin əməllərində cinayət əlamətlərinin aşkar edilməsinə dair göndərilmiş materialların hüquqi ekspertizasını keçirir, vergi ödəyicilərindən və vətəndaşlardan daxil olmuş ərizə və şikayətlərə baxılmasının nəticəsi üzrə hazırlanmış qərar və cavab məktublarının layihələrinə, habelə baş idarəyə daxil olmuş hüquqi akt layihələrinə münasibət bildirir, aidiyyəti hüquqi akt layihələrini hazırlayır və vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı nazirliyin rəhbərliyinə təkliflər verir.

Yerli hüquq strukturları da vergi orqanlarında hüquqi işlərin təşkilini 3 istiqamətdə: məhkəmə işlərinin təşkili, cinayət xarakterli materialların hüquqi ekspertizası və hüquqi təminat sahəsi üzrə həyata keçirirlər.

Vergi ödəyicilərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi, onların təkrar şikayətlərinə (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş qaydada baxılması, habelə məhkəməyə qədər sadələşdirilmiş prosedurlara əməl edilməklə mübahisələrin obyektiv şəkildə həll edilməsi məqsədilə vergilər nazirinin 7 mart 2008-ci il tarixli əmri ilə Vergi Apelyasiya Şurası yaradılmışdır. Vergi ödəyicilərinin hüquqlarının müdafiəsinin məhkəməyə qədərki icraatı hesab edilən Vergi Apelyasiya Şurasının fəaliyyəti nəticəsində ödəyicilərin hüquqları daha mükəmməl qorunur və vergi orqanları tərəfindən qanunvericiliyin tələblərinə uyğun olmayaraq qəbul edilən inzibati aktların məhkəmə qaydasında mübahisələndirilməsinin qarşısı alınır. Fiziki və hüquqi şəxslərdən daxil olmuş korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə nazirliyin aparatında daxili təhlükəsizlik sahəsində təşkilati və nəzarət tədbirlərini həyata keçirən struktur tərəfindən qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul edilir.

Hüquq strukturlarının peşə hazırlığını yüksəltmək məqsədilə mütəmadi olaraq təlim və treninqlər təşkil edilir, müvafiq məhkəmə qərarları öyrənilərək təhlil işləri aparılır, vergi orqanları tərəfindən yol verilmiş nöqsanlar ümumiləşdirilir, gələcəkdə həmin hallara yol verilməməsi məqsədi ilə müvafiq tədbirlər görülür və bütün bunlar aparılan işlərin keyfiyyətinə və büdcəyə vergi daxilolmalarının artmasına öz müsbət təsirini göstərməkdədir.

*«Respublika» qəzeti, 07.02.2015*

# Biliklərə əsaslanan vergi inzibatçılığı uğurlu nəticələr əldə etməyə imkan verir



*Vergilər nazirinin müşaviri **Asəf Əsədovun** müsahibəsi*

***- Asəf müəllim, məlum olduğu kimi, 2011-2013-cü illərdə Azərbaycanda Niderland Krallığının Vergi Administrasiyası ilə birlikdə elektron audit üzrə tvinninq layihəsi reallaşdırıldı. E-auditin tətbiqi vergi sistemində hansı mühüm dəyişikliklərlə nəticələnib?***

- Azərbaycanın vergi sistemi üçün çox mühüm əhəmiyyət daşıyan «Elektron audit» Tvinninq layihəsinin başa çatması ilə əlaqədar 2013-cü ilin may ayında ictimaiyyət üçün təqdimetmə mərasimi keçirildi. Bundan sonra pilot layihələrin uğurlu nəticəsi kimi nazirliyin e-audit üzrə treninq proqramında iştirak etmiş bir neçə əməkdaşının təmsil olunduğu e-audit şöbəsi təşkil edildi. Xüsusi Rejimli Vergi Xidməti Departamentində müvafiq struktur dəyişiklikləri aparılarkən ayrıca struktur vahidi kimi audit idarəsi, idarənin tərkibində isə elektron audit şöbəsi yaradıldı. Tvinninq layihəsi başa çatandan indiyədək elektron audit üsulu ilə 25 yoxlama həyata keçirilib və ənənəvi üsullarla aparılan yoxlamalarla bunun fərqi müqayisə edilib.

Nəticə isə bundan ibarətdir ki, əlavə hesablanmış vergilər dəfələrlə artıb, yoxlamaya sərf edilən orta vaxt müddəti isə 1,5 dəfə azalıb. Həyata keçirilmiş səyyar yoxlamalarda sübut olundu ki, e-audit texnologiyası hesabına daha çox sayda yoxlama aparmağa və yoxlamalar vasitəsilə 90-95% ehtimalı ilə vergidən yayınma hallarını aşkar etməyə real imkanlar yaranır.

***- E-audit texnologiyasının tətbiqini genişləndirmək üçün tələb olunan başlıca amil nədir?***

- Bunun üçün yeni e-auditorlar hazırlamaq tələb olunur. Bu istiqamətdə e-audit, insan resursları və İT sahələrinin modernizasiya məsələləri üzrə müşavir xidməti bölməsinin əməkdaşlarının və e-audit şöbəsinin birgə iştirakı ilə tədbirlər həyata keçirilib. 2014-cü ilin yanvar ayından başlayaraq dörd ay ərzində e-audit üzrə xüsusi təlim materialları hazırlanıb. Bura Azərbaycanda elektron mühasibat proqram təminatlarından ən çox istifadə olunan 1C mühasibat proqramı üzrə metodiki rəhbərlik, elektron faylların alınması üzrə tövsiyələr və praktik misallar daxildir. Bundan əlavə, e-auditin əsasları üzrə metodik rəhbərlik, e-audit üçün istifadə olunan ACL proqram təminatının mənimsənilməsi üçün praktiki misallar əsasında 30-a yaxın videomaterial hazırlanıb. Bütün bu materiallar Xüsusi Rejimli Vergi Xidməti Departamentindən seçilmiş auditorlara təqdim olunub. Tədris-təlim proqramı xarakteri daşıyan həmin materiallarda həm nəzəri, həm praktiki əsaslar, həm də mürəkkəb texnologiyaların mənimsənilməsi üçün çoxlu sayda 3-5 dəqiqəlik videomisallar mövcuddur.

Özünətədris proqramına əsasən, bütün tədris-təlim materialları 2014-ci ilin may ayında bir ay ərzində materialları öyrənmək üçün bir qrup auditora verilib, sonradan iki ay ərzində iş yerlərində onlara təlim kursları (həftədə bir dəfə 3 saat praktik seminarlar) təşkil olunub. Nəticə olaraq, Xüsusi Rejimli Vergi Xidməti Departamentində təlim keçmiş auditorlar üçün elektron imtahanlar keçirilib. E-imtahanlara həm testlər, həm də praktiki misallar daxil edilmişdi və bu üsulla biliyin daha düzgün qiymətləndirilməsi mümkün oldu. Bu ilin sentyabr ayından imtahandan keçmiş yeddi nəfər auditor e-auditlə məşğul olmağa başlayıb və onlar e-audit şöbəsinin daha təcrübəli üç işçisi ilə birgə işləyirlər. Hesab edirəm ki, bu, müsbət təcrübədir və onun tətbiqinin genişlənməsi ciddi fayda verəcək.

Hazırda e-auditin tətbiqi üçün işlər davam etdirilir. Fikrimcə, e-auditorların sayı artdıqca səyyar yoxlamalarda e-audit metodologiyasından daha çox istifadə olunacaq. Eyni zamanda, bu iş sistemləşdirilir. Dünyada müasir auditların ixtisaslaşması üzərində qurulur. Bir qrup auditor daha çox təcrübəli sahə bilikləri olan ixtisaslaşmış mütəxəssislərdir, digərləri isə elektron auditorlardır ki, onlar müasir təhlil üsulları ilə işləməyi bacarırlar.

E-auditlə bağlı bir vacib məsələyə də toxunmaq istərdim. Müasir auditin əsas əhəmiyyəti düzgün planlaşdırmadır. Bunun üçün mütləq qaydada vergi ödəyicilərinə bildirişlərin göndərilməsi ilə bağlı onlardan əvvəlcədən məlumat toplanılmaldır. Məqsəd - biznesin nədən ibarət olduğunu, daxili nəzarətin və mühasibat sisteminin necə işlədiyini, hansı tipdə və formatda elektron faylların əldə edilməsinin mümkün olduğunu öyrənməkdir. Buna görə bildirişdə konkret olaraq göstərilə bilər ki, hansı elektron fayllar tələb olunur.

E-auditin ilkin planlaşdırılması nə qədər dəqiq və mükəmməl aparılarsa, nəticə də bir o qədər dəqiq olur. Biz bu istiqamətdə fəal iş aparırıq, o cümlədən ACL proqram təminatının istifadəsinə əsaslanan 100-ə yaxın audit testindən ibarət kitabxana hazırlanır, risklərə görə spesifik sahələr üzrə ən vacib yoxlama testləri və ümumi testlər tərtib olunur ki, e-auditin tətbiqi sistemləşdirilsin və asanlaşsın. Yaxın gələcəkdə bu, imkan verəcək ki, ən yüksək beynəlxalq keyfiyyət standartları səviyyəsində səyyar vergi yoxlamalarının aparılması mümkün olsun. Nəzərə almaq lazımdır ki, bu, çox mürəkkəb və çətin işdir.

***- Ötən ay Vergilər Nazirliyi Avropa İttifaqının Qonşuluq Siyasəti çərçivəsində «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsinin tətbiqinə start verdi. Yeni layihənin əsas mahiyyəti nədən ibarətdir və bundan hansı nəticələr gözlənilir?***

- E-audit bir çox ölkələrdə tətbiq olunur. Xarici ölkələrdə bu sahədə çalışan auditorların səviyyəsi çox yüksəkdir. Biz e-auditlə bağlı öz üsullarımızın tətbiqi üçün işçilər hazırlanmasına başlamışıq. Qeyd etdiyim kimi, e-audit üzrə özünətədris proqramı çərçivəsində iş yerində treninqlər təşkil etdik. Əməkdaşları işlərindən ayırmamaq şərti ilə sırf praktiki biliklərin mənimsənilməsində çox böyük uğur qazandıq. Müqayisə üçün deyə bilərəm ki, Hollandiyanın e-audit mütəxəssislərinin hazırlığı üçün xüsusi proqram var, üç ay işdən ayrılmaqla işçilərə treninq mərkəzində dərslər keçilir, sonradan onlar təcrübəli e-auditorların yanında altı ay müddətində işləyib təcrübi bilkilər əldə edirlər. Amma biz başqa üsulla eksperiment apardıq. Birinci mərhələdə auditorlara özünətədris proqramı çərçivəsində asan başa düşülən, misallara əsaslanan daha praktiki yönümlü rəhbərliklər və videomateriallar təqdim edildi. Bu materiallarla yaxından tanış olduqdan sonra iki ay ərzində həftədə 3 saat dərs keçməklə, 60 saat vaxt müddətində işçilərə e-audit texnologiyası üzrə təcrübi şəkildə işləməyi öyrədə bildik.

Fikrimcə, nazirliyin iqtisadi təhlil, audit, borcların alınması və digər strukturlar üzrə müxtəlif sahələrdə çalışan işçilərini bu prosesə cəlb edərək onları öyrətmək olduqca vacibdir. Ona görə də insan resurslarının inkişafı ilə bağlı yeni Tvinninq layihəsinin həyata keçirilməsinə qərar verildi. Avropa İttifaqı tərəfindən elan olunmuş tenderə əsasən, Fransa və İspaniyanın vergi administrasiyaları qalib seçildi. Baş icraçı İspaniyanın vergi administrasiyası, partnyoru isə Fransanın müvafiq qurumudur. Bu il sentyabrın 1-dən start verilən layihənin geniş təqdimatı oldu.

***- «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsini zəruri edən əsas faktorlar nədən ibarətdir?***

- Məlum olduğu kimi, ildən-ilə mürəkkəbliyi artan biznes əməliyyatları həyata keçirilir, e-əməliyyatların sayı, e-ticarətin həcmi genişlənir. Bütün bunlarla bağlı Vergilər Nazirliyində çalışan insan resurslarının da müasir tələblərə cavab verməsi tələb olunur. Məsələ ondadır ki, texniki biliklər, peşəkar bilik və bacarıqların, özünüidarənin rolu getdikcə artır və bu amillər hər bir işçinin fəaliyyətində mühüm yer tutmalıdır. İşçinin peşəkar səviyyəsi yüksək olarsa, daha səmərəli iş görər. Sıravi işçilərlə yanaşı, şöbə rəisləri, idarə rəhbərləri də müasir menecment biliklərini mənimsəməlidirlər.

***- Layihənin həyata keçirilməsi üçün hansı konkret addımlar atılır?***

- Yeni tvinninq layihəsi çərçivəsində üç komponentə xüsusi önəm vermişik. Birincisi, insan resurslarının inkişafı ilə bağlı uzunmüddətli strategiyanın hazırlanması başlıca prioritetlərdəndir. Strategiya 2015-2020-ci illər üçün nəzərdə tutulur. Həmin sənədə əsasən, hər il üzrə ayrıca tədbirlər planı hazırlanacaq. Planda icra meyarları və icraçılar göstəriləcək, görülən işlərin və nəticələrin monitorinqi və qiymətləndirilməsi öz əksini tapacaq.

İkinci istiqamət insan resurslarının idarə edilməsi üzrə nazirliyin mövcud normativ bazasının yeniləşdirilməsidir. Hazırda nazirliyin əsas normativ sənədi «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»dir. 2001-ci ildə qəbul edilən sənədin ciddi şəkildə yenilənməsi tələb olunur. Bu sahədə ən yaxşı beynəlxalq təcrübəni öyrənməliyik. Layihənin 3-cü əsas istiqaməti - tədris-təlim sisteminin modernləşdirilməsi də mühüm əhəmiyyət kəsb edir. Başlıca hədəflər internet təməlli özünətədris xidmətləri həyata keçirməyə imkan verən onlayn texnologiyaların tətbiqi (e-tədrisin təşkili və daimi kontent dəstəyi), vergi administrasiyasının ehtiyaclarına uyğun tədris-treninq proqramlarının və kursların hazırlanması, praktiki məşğələlərin təşkilidir. Bu məqsədlə tədrisin müasir bilik texnologiyalarına əsaslanmaqla bilik menecerləri vasitəsilə aparılması planlaşdırılır. Nazirliyin işçiləri tərəfindən bu mexanizmi həyata keçirə bilən şəxslər seçilməlidir ki, əsasən, bilik menecmentin tətbiqi ilə məşğul olsunlar. Yəni bu şəxslər cari işlərlə yüklənməli deyillər, onların əsas vəzifələri müasir beynəlxalq təcrübəni öyrənmək, onun əsasında nazirliyin konkret struktur bölmələrinin ehtiyaclarına yuğun özünətədris proqramları və iş yerində treninqlərin təşkili və qiymətləndirilməsi olmalıdır. Tvinninq layihəsi çərçivəsində bu şəxslər üçün xüsusi treninq keçirilməli, bilik menecmentinin, elektron tədrislə bağlı proseslərin öyrənilməsi təmin edilməlidir.

***- Bu günlərdə nazirlikdə Tvinninq layihəsinin ilk missiyasının tədbiri keçirildi. Bu barədə nə deyə bilərsiniz?***

- Oktyabr ayının 20-dən 24-dək davam edən seminarlarda nazirliyin vergi siyasəti, hüquq, insan resursları və beynəlxalq idarələrinin əməkdaşları iştirak etdilər. Onlar beynəlxalq təcrübədə bizim üçün maraq doğuran insan resurslarını idarəetmə sistemi ilə əlaqədar ətraflı məlumatlar aldılar. Fransanın bu sahədəki təcrübəsini təhlil etdik, Azərbaycanla müqayisəsini nəzərdən keçirdik. Növbəti missiyada İspaniyanın təcrübəsi müzakirə olundu.

Ümumiyyətlə, tvinninq layihəsinin məqsədi ona yönəldilib ki, gələcəyin tələblərinə uyğun olaraq biliklərə əsaslanan vergi inzibatçılığını inkişaf etdirək. Bunun üçün müasir texnologiyalarla yanaşı, müasir biliklərə və bacarıqlara malik peşəkar vergi işçilərinin hazırlanması və onlara dəstək verilməsi tələb olunur. Belə olarsa, vergi ödəyiciləri görəcəklər ki, onlara göstərilən yüksək keyfiyyətli xidmətlərlə yanaşı, vergidən yayınmanı sübut etmək üçün bizim çox böyük, güclü potensialımız, ciddi nəzarət sistemimiz var. Bütün bunların vergilərin könüllü ödənilmə səviyyəsinin yüksəldilməsinə öz müsbət təsirini göstərəcək.

*«Xalq qəzeti», 30.10.2014*

# Beynəlxalq təcrübənin tətbiqi Vergilər Nazirliyinin fəaliyyətinin prioritet sahələrindəndir



*Vergilər nazirinin müşaviri **Ələkbər Məmmədovun** müsahibəsi*

**- Vergilər Nazirliyinin IOTA-nın İcraiyyə Şurasına ikinci dəfə üzv seçilməsi hansı cəhətdən faydalıdır?**

- Azərbaycan Vergilər Nazirliyinin IOTA-nın İcraiyyə Şurasına yenidən növbəti birillik müddət üçün üzv seçilməsi əlamətdar bir hadisədir. Bu təşkilat Avropa Birliyi ölkələrinin vergi sahəsində ən vacib strukturlarından biridir. Azərbaycan 2002-ci ildən IOTA-nın üzvüdür və bu təşkilatla sıx əməkdaşlıq edir. Bir qayda olaraq, belə nüfuzlu qurumlarda İcraiyyə Şurasına üzvlər Avropa Birliyinin aparıcı dövlətlərindən təşkil olunur. Buna səbəb belə nüfuzlu qurumların idarə olunması və menecmentində AB-nin mənafelərinin qorunması, eyni zamanda həmin dövlətlərdə formalaşmış böyük təcrübələrin IOTA-ya üzv ölkələrə ötürülməsidir.

Azərbaycanın İcraiyyə Şurasında təmsil olunması, əslində, ölkəmizə göstərilmiş böyük bir etimad, IOTA ilə uzun müddət davam edən səmərəli əməkdaşlığa verilən bir qiymətdir. Azərbaycanın vergi xidməti bu təşkilatın, demək olar ki, bütün tədbirlərində fəal iştirak edir və beynəlxalq təcrübənin öyrənilməsi, onun tətbiqinin genişləndirilməsi istiqamətində daim iş aparır. Təsadüfi deyildir ki, bu ilin may ayında İcraiyyə Şurasının 92-ci iclası Bakıda təşkil edilmişdi. Azərbaycan Respublikasının Vergilər Nazirliyi Niderland, Avstriya, İrlandiya, İspaniya, Finlandiya, Fransa, Çex Respublikası və Rumıniyanın vergi orqanları ilə birlikdə İcraiyyə Şurasının üzvü seçildi. Bu, bir daha ölkəmizin Avropanın aparıcı strukturlarında mühüm vəzifələrin öhdəsindən gəlməsinin bariz sübutudur.

**- Ələkbər müəllim, mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi bu gün vergi xidmətləri qarşısında duran aktual məsələlərdən biridir. Bu gün Vergilər Nazirliyi beynəlxalq əlaqələrin genişləndirilməsi və müasir beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində hansı işlər görür?**

- Bildiyiniz kimi, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası bir çox dövlət qurumları kimi, Vergilər Nazirliyi qarşısında da mühüm vəzifələr müəyyən etmişdir. Bu konseptual sənəddən irəli gələn məsələləri həll etmək məqsədilə Vergilər Nazirliyində «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan» və «2013-2020-ci illərdə vergi sisteminin İnkişaf Strategiyası» təsdiq edilmişdir. Bu iki mühüm sənəd vergi xidmətinin yaxın perspektivdə inkişaf istiqamətlərini, eyni zamanda beynəlxalq sahədə fəaliyyətinin növbəti illər üçün əsas hədəflərini müəyyən edir.

Vergilər Nazirliyində beynəlxalq təcrübənin öyrənilməsi daim ön planda olsa da, milli vergi qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində işlərin daha da sistemləşdirilməsi məqsədilə Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin tərkibində «Xarici ölkələrin vergi sisteminin tədqiqi» şöbəsi yaradılmışdır. Hazırda həmin şöbə xarici ölkələrin vergi sisteminin araşdırılması və zəruri təcrübələrin icmallaşdırılması istiqamətində zəruri işlər görür.

Bundan başqa, vergi qanunvericiliyini, xarici ölkələrin vergi təcrübəsini, Vergilər Nazirliyi əməkdaşlarının xarici ezamiyyə hesabatlarını, beynəlxalq təcrübənin araşdırılması istiqamətində müxtəlif icmal hesabatları və digər zəruri materialları əhatə edən çoxfunksiyalı imkanlara malik geniş məlumat bazasını əhatə edən elektron kitabxana da yaradılmışdır.

Hazırda milli vergi qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Almaniyanın GİZ təşkilatı ilə də sıx əməkdaşlıq edilir. Əlbəttə, qarşılıqlı səfərlər, təcrübə mübadiləsi konkret hədəflərə yönəlir. Bu səfərlər sadəcə tanışlıq xarakteri daşımır, tətbiq olunan mütərəqqi təcrübə əvvəlcədən araşdırılır, sonra həmin məsələ ilə bağlı işçi səfərlər reallaşdırılır.

Portuqaliya Vergi və Gömrük İdarəsi ilə aparılan təcrübə mübadiləsi nəticəsində vergi ödəyiciləri ilə əlaqənin idarə edilməsi sisteminin yaradılması, bütün vasitələrlə vergi ödəyicilərinə göstərilən xidmətin vahid sistemdə aparılması geniş öyrənilib və nəticə olaraq vergi ödəyicilərinə xidmət mərkəzlərində tətbiq olunan AVİS-in xidmət alt sistemində belə bir sistem yaradılıb. Yaxın gələcəkdə Vergilər Nazirliyinin Çağrı Mərkəzinin və digər xidmət kanallarının da bu sistemə inteqrasiyası həyata keçiriləcək. Portuqaliya təcrübəsindən yararlandığımız daha bir məsələ İnternet Vergi İdarəsində fərdi vergi təqviminin yaradılması ilə bağlıdır. Hazırda bu məqsədlə icraçı şirkət tərəfindən proqramlaşdırma işləri həyata keçirilir. İsveç Krallığının Vergi Agentliyi ilə apardığımız təcrübə mübadiləsi prosesində həmin ölkədə vergi ödəyicilərinə xidmət sahəsində tətbiq olunan vahid xidmət mərkəzi ideyasından ötən il yeni Vergi ödəyicilərinə xidmət mərkəzinin yaradılmasında geniş istifadə edildi.

Türkiyə Respublikasının Gəlirlər İdarəsi Başkanlığı ilə əməkdaşlıq prosesində Vergilər Nazirliyinin Çağrı Mərkəzinin fəaliyyəti tamamilə yenidən qurulub və tətbiq edilmiş qabaqcıl təcrübə nəticəsində mərkəzin fəaliyyəti EN 15838 standartlarına uyğunluq sertifikatı alıb, bununla yanaşı, ikitərəfli SMS xidməti yaradılıb.

İntensiv əməkdaşlıq etdiyimiz Niderland Krallığının Vergi və Gömrük Administrasiyası ilə birlikdə ölkəmizin vergi xidməti üçün mühüm layihələrdən biri olan elektron audit layihəsi reallaşdırılıb. Bundan başqa, yaxın perspektivdə tətbiqini nəzərdə tutduğumuz maraqlı bir layihə üzərində çalışırıq. Bu, Çağrı Mərkəzi vasitəsilə əməliyyatlar aparmaq imkanının yaradılmasıdır. Həmin layihəyə əsasən, sadələşdirilmiş verginin bəyannaməsi ASAN imzası olan vergi ödəyicilərinin əvəzinə Çağrı Mərkəzinin əməkdaşları tərəfindən göndəriləcək. Bu məqsədlə hazırlanmış proqram təminatı hazırda test mərhələsindədir.

**- Son illər Azərbaycanın vergi xidməti beynəlxalq təşkilatlarla intensiv əməkdaşlıq edir. Bu, xüsusilə də ölkəmizdə vergi sahəsində keçirilən tədbirlərin sayının artmasında özünü göstərir. Çoxtərəfli əməkdaşlığın bugünkü səviyyəsini necə qiymətləndirərdiniz?**

- Əlbəttə, nüfuzlu beynəlxalq təşkilatların tədbirlərinə ev sahibliyi etməsi ölkəmizin beynəlxalq miqyasda artan nüfuzunun göstəricisi olmaqla yanaşı, eyni zamanda respublikamızın iqtisadi sahədə əldə etdiyi uğurların təbliği baxımından çox vacibdir.

Vergilər Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə IOTA, OECD, IACA və s. kimi təşkilatların forum, seminar və iclasları uğurla keçirilir. Eyni zamanda, 2012-ci ildən başlayaraq, hər ilin fevral ayında vergi orqanı əməkdaşlarının peşə bayramı ərəfəsində Bakıda «Azərbaycanda vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda beynəlxalq vergi forumları təşkil olunur. Bu forumlar vergi sahəsində qarşıda duran bir çox qlobal məsələlərin müzakirə edildiyi mühüm bir tərəfdaşlıq platformasına çevrilib.

Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, eləcə də donor təşkilatlar - ABŞ Beynəlxalq İnkişaf Agentliyi, Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı, Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə əməkdaşlıq nəticəsində müxtəlif layihələr həyata keçirilməkdədir.

Avropa İttifaqının Tvinninq və TAIEX alətləri çərçivəsində əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir. «Kompüter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» adlı Tvinninq layihəsi 2011-2013-cü illərdə həyata keçirilib, «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» və «Müasir vergi ödəyicilərinə xidmət standartları, optimal idarəetmə modeli və qiymətləndirmə sahəsində islahatlara dəstək» adlı Tvinninq layihələrinin tətbiqinə dair isə müvafiq prosedurlara başlanılıb.

Vergilər Nazirliyində mövcud olan fəaliyyətin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə bir müddət öncə Avropa İttifaqının ekspertlərinin iştirakı ilə Aİ-nin texniki yardim aləti olan TAIEX proqramı çərçivəsində Ekspert Missiyası təşkil olunub. Hazırda ekspertlər tərəfindən hazırlanmış hesabat əsas götürülməklə, Vergilər Nazirliyində bu sistemin təkmilləşdirilməsi ilə bağlı təkliflər paketi hazırlanır.

Bildiyiniz kimi, Azərbaycan 2013-cü ilin fevralında OECD-nin Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumuna üzv qəbul edilmişdir və bizim mütəxəssislər həmin forumlarda fəal iştirak edirlər.

**Davamı 7-ci səhifədə**

# İri tədiyyəçilərin vergi daxilolmalarındakı artım dinamikası növbəti illərdə də davam edəcək



*Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamentinin rəisi **Zaur Fətizadənin** müsahibəsi*

***- Zaur müəllim, vergi daxilolmalarının mühüm bir hissəsi Xüsusi Rejimli Vergi Xidməti Departamentinin xətti ilə toplanan vəsaitlərin payına düşür. Departamentin 2014-cü il üçün vergi daxilolmaları ilə bağlı nəticələrin təhlili nə göstərir?***

- Vergilər Nazirliyi xətti ilə büdcə gəlirlərinin formalaşmasında Xüsusi Rejimli Vergi Xidməti Departamentinin (XRVXD) özünəməxsus payı vardır. Rəqəmlərə nəzər yetirərkən bu fakt bir daha öz təsdiqini tapır. Ötən ilin yekunlarına görə vergi daxilolmalarının 69%-dən çox hissəsi departamentin üzərinə düşmüşdür. Müqayisə üçün deyim ki, 2013-cü ildə bu göstərici 72,9%, 2012-ci ildə isə 73,1% idi. Təbii ki, bu nəticələrin əldə edilməsində ölkə iqtisadiyyatında mühüm rolu olan neft, enerji, rabitə, nəqliyyat və digər sahələrdə, o cümlədən hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən vergi ödəyicilərinin töhfəsi böyükdür.

İqtisadiyyatda müşahidə olunan müsbət dinamikanın və vergi inzibatçılığının səmərəli təşkilinin nəticəsidir ki, 2014-cü il üzrə vergi proqnozu artıqlaması ilə yerinə yetirilmişdir. 2014-cü ilin nəticələrinə əsasən, Vergilər Nazirliyi tərəfindən XRVXD qarşısında proqnozun icrasına dair qoyulmuş vəzifə tam yerinə yetirilmiş və 4 milyard 929,4 milyon manat proqnoza qarşı 4 milyard 934,4 milyon manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir. Bu da daxilolmalar üzrə proqnozun 100,1% icra olunması deməkdir.

Əlbəttə, dövlət büdcəsinin formalaşmasında xüsusi çəkiyə malik olan vergi ödəyicilərinin departamentdə qeydiyyatda olması bizim üzərimizə böyük məsuliyyət qoyur, yeni çağırışlar yaradır. Çünki iri və xüsusi vergi rejimli ödəyicilərin vergi xidmətinin təşkili ilə bağlı gözləntiləri və tələbləri daha yüksəkdir. Departament bu çağırışlara cavab vermək üçün fəaliyyətini yeniliklərə açıq bir qurum kimi təşkil edir və bu əsasda da davam etdirir. Onu da qeyd edim ki, bu işlərin təşkilində və həyata keçirilməsində vergi öhdəliklərinin qabaqcadan müəyyən edilməsi, elektron alətlərin tətbiqi və s. kimi mütərəqqi üsul və metodlardan geniş istifadə olunur.

***- Qeyri-neft sektorunun inkişafı Azərbaycan hökumətinin qarşısında duran prioritet vəzifələrdəndir. Son illər bu sahədə iri vergi ödəyicilərinin sayında hansı dəyişikliklər olmuşdur?***

- Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab Prezident İlham Əliyev qeyri-neft sektorunu iqtisadi siyasətin başlıca prioriteti elan etmiş, bu sahəni iqtisadiyyatın hərəkətverici qüvvəsi adlandıraraq dövlət dəstəyinin gücləndirilməsinin vacibliyini vurğulamışdır. 2014-cü ilin «Sənaye ili», 2015-ci ilin «Kənd təsərrüfatı ili» elan edilməsi bu sahəyə dövlətin xüsusi önəm verməsini bir daha təsdiqləyir.

Düşünülmüş iqtisadi siyasətin nəticəsində qeyri-neft sektorunun inkişafında ciddi nailiyyətlər qazanılmış və Nazirlər Kabinetinin iclasında qeyd edildiyi kimi, ötən il ərzində 230-dan çox sənaye müəssisəsi yaradılmış, mövcud sənaye müəssisələrinin istehsal gücü genişləndirilmişdir. Bundan əlavə, regionlarda 410-dan artıq sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisəsi fəaliyyətə başlamışdır, 530-dan artıq müəssisənin tikintisi isə davam etdirilir.

Qeyri-neft sektoru üzrə daxilolmaların ümumi vəziyyətinə gəldikdə həm iqtisadi artımın, həm də aparılmış vergi nəzarəti tədbirlərinin nəticəsi olaraq iri vergi ödəyicilərinin dövlət büdcəsinə vergi ödənişlərində ildən-ilə artım müşahidə olunmaqdadır. XRVXD üzrə 2014-cü ildə qeyri-neft sektorundan vergi daxilolmaları 2 milyard 160,0 milyon manat (o cümlədən mərkəzləşdirilmiş ödəniş üzrə 113,6 milyon manat) təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 166,2 milyon manat və ya 8,3% çoxdur.

***- Azərbaycan iqtisadiyyatına bir çox başqa mənfəətlər gətirməklə yanaşı, vergi daxilolmalarının artması baxımından da müsbət təsiri olmuş neft müqavilələri çərçivəsində dövlət büdcəsinə təxminən hansı həcmdə vəsait ödənilib?***

- Bu gün ölkəmizdə əldə edilən bütün iqtisadi uğurların başlanğıcını məhz ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu neft strategiyası təşkil edir. Neft strategiyasının uğurlarının nəticəsidir ki, Azərbaycan regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri olmuşdur. Ancaq cənab Prezidentin də qeyd etdiyi kimi, neft-qaz amili bizim üçün inkişaf etmək, dayanıqlı və çoxşaxəli iqtisadiyyat qurmaq üçün bir vasitədir.

2014-cü ildə də neft-qaz sektoru büdcə daxilolmalarının formalaşmasında mühüm rol oynamışdır. Bu sektor üzrə daxilolmanın məbləği 2 milyard 827 milyon manat olmuşdur ki, bu da ümumi vergi daxilolmalarının 39,7%-ni təşkil etmişdir. 2013-cü ildə bu göstərici 43,8%, 2012-ci ildə isə 45,5% idi. Məhz düşünülmüş iqtisadi siyasətin nəticəsidir ki, iqtisadiyyatın neft amilindən asılılığı ilbəil azalır, qeyri-neft sektorunun büdcə daxilolmalarındakı xüsusi çəkisində isə artım müşahidə olunur. Təkcə 2014-cü ildə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı müəssisələrin mənfəət vergisi 1 milyard 107,5 milyon manat olmuşdur. Ümumilikdə isə 2006-cı ildən bəri hasilatın pay bölgüsü üzrə sazişlər çərçivəsində fəaliyyət göstərən podratçı tərəflər, əməliyyat şirkətləri və subpodratçı təşkilatlar tərəfindən 2015-ci ilin yanvar ayına qədər 15,6 milyard manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir. Podratçı tərəflərin mənfəət vergisi 11,6 milyard manat təşkil etmişdir.

***- Dünya bazarında neftin qiymətinin ucuzlaşmasının büdcə ödəmələrinə hansı təsirləri olmuşdur?***

- Ölkə başçısının böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət, bu siyasətin prioritet istiqamətlərindən olan iqtisadiyyatın şaxələndirilməsi ötən illərdə mühüm əhəmiyyət kəsb etmişdir. Ölkənin davamlı inkişafı təmin olunmaqla dünya iqtisadiyyatındakı böhran meyillərinin, enerji bazarında ötən il başlamış və bu gün də davam edən neftin qiymətlinin ucuzlaşmasının mənfi təzahürlərinin qarşısı alınmışdır. Qeyd olunan tədbirlər və vergi nəzarətinin düzgün qurulması 2014-cü ildə neft sektoru üzrə vergi proqnozunun tam şəkildə icra olunmasını təmin etmişdir.

Bununla belə, 2015-ci ildə dünya karbohidrogen bazarında mövcud olan əlverişsiz konyuktur, əlbəttə ki, neft sektorunda gəlirlərə müəyyən həcmdə təsir göstərir. Ancaq ötən illər ərzində iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər, xüsusilə dünyada mövcud olan mütərəqqi tendensiyalar əsasında sənayeləşmənin sürətləndirilməsi üçün həyata keçirilən tədbirlər, o cümlədən ölkədə qeyri-neft sənayesinin əsas halqalarını formalaşdıran maşınqayırma, avadanlıq istehsalı, cihazqayırma və tikinti materiallarının istehsalı sahəsində yeni rəqabətqabiliyyətli müəssisələrin yaradılması hesabına yumşalacaqdır. Həyata keçirilən sənayeləşdirmə siyasətinin nəticəsi olaraq yaradılan vergi ödəyicilərinin iqtisadi göstəriciləri qeyri-neft sektorunda vergi ödənişləri üzrə müşahidə olunan müsbət dinamikanı sonrakı illərdə də təmin edəcəkdir.

Ölkə başçısının Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr edilmiş iclasındakı çıxışında da dünyada neftin qiymətinin iki dəfədən çox aşağı düşməsinin bizim gəlirlərimizə mənfi təsir edəcəyi qeyd edilmiş, lakin buna baxmayaraq, iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində görülən və bundan sonra görüləcək işlər, institusional islahatlar və daha səmərəli idarəetmə üsullarının tətbiq edilməsi nəticəsində Azərbaycanın bu vəziyyətdən də uğurla çıxacağı əminliklə bildirilmişdir.

***- Dövlətə məxsus 7 əsas iri tədiyyəçi üzrə daxilolmaların hazırkı vəziyyəti necədir?***

- Bütün sektorlarda olduğu kimi, dövlətə məxsus əsas iri tədiyyəçilərin də fəaliyyət sahələrini səciyyələndirən iqtisadi göstəricilərin artımı fonunda onların büdcə daxilolmalarındakı əhəmiyyətini xüsusilə vurğulamaq istərdim. Departamentdə qeydiyyatda olan həmin vergi ödəyicilərinin illər üzrə təsdiq olunmuş gəlir və xərclər smetası nəzərdə tutulan minimum büdcə ödənişlərinin vaxtında köçürülməsini təmin etmişdir. Belə ki, 7 iri tədiyyəçinin vergi daxilolmaları 2012-ci ildə 1 milyard 574,2 milyon manat, 2013-cü ildə 1 milyard 710,1 milyon manat, 2014-cü ildə isə 1 milyard 978,2 milyon manat olmaqla respublika üzrə cəmi vergi daxilolmalarının 2012-ci il üzrə 26,1%-ni, 2013-cü il üzrə 25,7%-ni, 2014-cü il üzrə isə 27,8%-ni təşkil etmişdir. Bu göstəricilər həmin ödəyicilərin dövlət büdcəsinin formalaşmasında nə qədər mühüm rola malik olduğunu bir daha sübut edir.

Dövlət şirkətlərində idarəetmə prinsiplərinin təkmilləşdirilməsi onların fəaliyyət sahələri üzrə iqtisadi göstəricilərinə öz müsbət təsirini göstərmişdir. Keyfiyyətli və qənaətbəxş telekommunikasiya xidmətlərinin təqdim olunması, peyk rabitəsi texnologiyalarından istifadə, kommunal təsərrüfat sferasında göstərilən xidmətlərin dəyərinin ödənilməsi üzrə yığım faizinin artımı, su infrastrukturunun yenilənməsi, nəqliyyat sahəsində yeni su və hava gəmilərinin alınması, xarici ölkələrə yeni marşrutların açılması, dəmiryol xətlərinin çəkilişi, yük daşımaları üzrə gəlirlərin artımı dövlət büdcəsinə iri tədiyyəçilərin vergi daxilolmalarındakı artan tendensiyasının növbəti illərdə də davam etdiriləcəyindən xəbər verir.

***- XRVXD-nin 2015-ci ildə nəzərdə tutulmuş plan və proqnozları ilə bağlı məlumat verməyinizi xahiş edirik.***

- Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında 2015-ci ildə dünyada müşahidə olunan iqtisadi proseslərin hələ bir müddət davam edəcəyi qeyd edilsə də, Azərbaycanda əvvəlki illərdə aparılmış siyasətin cari ildə də ciddi fəsadlar olmadan, inkişaf tempini təmin etməklə başa vurmağa zəmin yaradacağı bildirilmişdir.

Ölkə başçısının sədrliyi ilə keçirilən iclasın ən mühüm cəhəti isə «ucuz neft dövründə iqtisadi proqram»ın açıqlanması olmuşdur. Proqramın əsas istiqamətləri olan makroiqtisadi sabitliyin qorunması, infrastruktur layihələrinin icrası, ixrac potensialının artırılması, güzəştli kreditlər siyasətinin davam etdirilməsi, real sektora investisiya yatırımlarının artırılması, idxalı əvəzləyən məhsul istehsalının genişləndirilməsi, dövlət investisiyalarının dayanıqlı inkişafa və strateji istehsal sahələrinə yönəldilməsi iqtisadiyyatın bütün sahələrində artım tempinin təmin oluması ilə nəticələnəcəkdir ki, bu da vergi ödəyicilərinin vergi potensialının çoxalmasına zəmin yaradacaqdır. 2015-ci ildə proqnoz tapşırıqlarının icrasına dair aparılmış bölgüyə əsasən, XRVXD üzrə 4 milyard 698,2 milyon manat (o cümlədən mərkəzləşdirilmiş ödəniş üzrə 144,2 milyon manat) vəsaitin dövlət büdcəsinə səfərbər edilməsi üçün proqnoz tapşırığı müəyyənləşdirilmişdir. İnamla qeyd etmək olar ki, cari ildə də XRVXD qarşıya qoyulmuş plan və proqnozların həyata keçirilməsini təmin edə biləcək.

*«Respublika» qəzeti,*
*23.01.2015*

# Nağdsız ödənişlər üçün lazımi maddi-texniki baza yaradılıb



*Vergilər nazirinin müşaviri*
***İlqar Əhmədovun** müsahibəsi*

***- İlqar müəllim, ölkəmizdə nağdsız ödəniş sisteminin genişləndirilməsi ilə bağlı görülən işlər barədə məlumat verməyinizi xahiş edirik.***

- Bu gün ölkə iqtisadiyyatının müasirləşməsində, şəffaf idarəetmə sisteminin qurulmasında nağdsız ödəniş sisteminin genişləndirilməsinin rolu danılmazdır. Dünya təcrübəsi sübut edir ki, ölkənin maliyyə və sosial-iqtisadi fəaliyyətində hesabatlılığın və şəffaflığın təmin edilməsi sahəsində mühüm tədbirlərdən biri də nağdsız ödəniş sisteminə keçiddir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişlərinə uyğun olaraq nağdsız ödəniş sisteminin genişləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin əsas məqsədi iqtisadi subyektlər arasında şəffaflığa nail olunmasından, «gizli iqtisadiyyat»ın həcminin azaldılmasından, vergidən yayınma hallarının qarşısının alınmasından ibarətdir. Nəzarətdən kənarda qalan iqtisadi əməliyyatlar bir tərəfdən dövlət büdcəsinə vergi daxilolmalarının azalmasına, digər tərəfdən isə iqtisadi mexanizmlər vasitəsilə dövlət tərəfindən iqtisadi tənzimləmə üsullarının səmərəliliyinin aşağı düşməsinə səbəb olur.

Nağdsız ödənişlər vəsaitlərin dövriyyəsinin sürətləndirilməsində, nağd pulların çapı, daşınması, saxlanması və təsərrüfat əməliyyatlarının xərclərinin azalmasında, bütövlükdə iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynayır. Nağdsız ödəmə aləti kimi POS-terminallar həm ödəniş kartı sahibləri, həm də biznes subyektləri üçün faydalıdır. Çünki ödəniş məbləğlərinin dəqiq olması və hesablaşmaların rahat aparılması, müştərilərin sayının artırılması, nağd vəsaitlərlə aparılan əməliyyatlarda iş yükünün azaldılması, mal və xidmətlər üzrə hesablaşmalar zamanı təhlükəsizliyin artırılması, şəxsi büdcənin düzgün planlaşdırılması baxımından POS-terminallardan istifadə daha məqsədəuyğundur.

***- Vergilər Nazirliyi tərəfindən 2014-cü ildə nağdsız ödəmə avadanlıqları olan POS-terminalların tətbiqinin genişləndirilməsi ilə bağlı ardıcıl işlər aparılır...***

- Nağdsız dövriyyənin artırılmasının əsas şərtlərindən biri POS-terminalların tətbiqinin genişləndirilməsidir. Ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması, vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün təsərrüfat subyektlərində POS-terminalların quraşdırılması, qeydiyyatı, istifadəsi, eləcə də POS-terminalların tətbiqi ilə bağlı digər münasibətlər Nazirlər Kabinetinin 4 oktyabr 2012-ci il tarixli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi» qaydaları ilə tənzimlənir.

Banklar tərəfindən verilmiş sifarişlər üzrə təkcə 2014-cü ildə ölkəmizə 60 min ədəd POS-terminal gətirilmişdir. Xüsusilə qeyd etmək istəyirəm ki, POS-terminalların bir hissəsi «kart vasitəsilə birbaşa təmas olmadan» istifadəni nəzərdə tutan ən müasir qurğulardır ki, son illərdə bunlar daha çox dünyanın inkişaf etmiş ölkələrində tətbiq edilməyə başlanılmışdır. 2014-cü il yanvarın 1-də respublikada 31 minə yaxın POS-terminal olduğu halda, artıq bu say 82 mini keçmiş, il ərzində daha 51 min POS-terminalın quraşdırılması təmin edilmişdir. İndiyədək quraşdırılmış POS-terminalların 64,1%-i Bakı şəhərinin, 35,9%-i isə regionların payına düşür. 2014-cü ildə əlavə quraşdırılmış POS-terminalların sayında regionların payı daha çoxdur. Bakı şəhəri üzrə POS-terminalların sayında 1,9 dəfə artım baş verdiyi halda, regionlardakı artım 7,1 dəfə olmuşdur. Xüsusilə Sumqayıt, Mingəçevir, Şəmkir, Şirvan və Lənkəran şəhərlərində, Abşeron, Şamaxı, İsmayıllı, Oğuz, Qəbələ, Şəki, Göyçay, Balakən, Qax və Zaqatala rayonlarında POS-terminalların quraşdırılması daha fəal həyata keçirilmişdir.

Vergilər Nazirliyi Mərkəzi Bank və kommersiya bankları ilə birlikdə ölkənin ticarət və xidmət sektorunda ödəmələrin nağdsız qaydada aparılması üçün zəruri infrastrukturun qurulması istiqamətində 2014-cü ilin fevral ayından başlayaraq ciddi tədbirlər həyata keçirir. Nazirlikdə yaradılmış qərargah tərəfindən POS-terminal quraşdırılmalı olan obyektlərin siyahısı müəyyənləşdirilmiş, onların quraşdırılması üçün həyata keçiriləcək proseslərin xəritəsi tərtib olunmuş və banklarla razılaşdırılmışdır. Qərargahın üzvləri ilə yanaşı, yerli vergi orqanlarında bu işlərlə məşğul olacaq məsul şəxslər müəyyən edilmiş və əlavə işçi qüvvəsi cəlb olunmuşdur.

Vergilər Nazirliyi tərəfindən POS-terminallardan istifadənin üstünlükləri və istifadə qaydası barədə mütəmadi olaraq məlumatlandırma işləri aparılır. Vergi ödəyicilərinə obyektlərdə quraşdırılmış POS-terminallardan istifadə vərdişlərinin aşılanması, eləcə də nağdsız ödənişlərin əlverişliliyi və üstünlükləri barədə geniş izahat və təbliğat işlərinin həyata keçirilməsi üçün nazirlik tərəfindən «POS-terminalların tətbiqi ilə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması zamanı görülməli işlərə dair tövsiyələr» hazırlanmışdır. 2014-cü il ərzində bununla bağlı 22500-dən çox şəxs fərdi şəkildə məlumatlandırılmışdır.

Vergilər Nazirliyinin Mərkəzi Bank və digər təşkilatlarla əlaqəli fəaliyyətinin nəticəsidir ki, POS-terminalların sayının artması ilə yanaşı, onlardan istifadə də genişlənməyə başlamışdır. Ölkə ərazisində POS-terminal vasitəsilə aparılmış əməliyyatların həcmi 2014-cü ilin 11 ayı ərzində 353 milyon manat, yaxud 2013-cü ilin müvafiq dövründəkindən 17 milyon manat və ya 5,1% çox olmuşdur. Bu fakt, eləcə də ölkə vətəndaşlarının həmin dövrdə Azərbaycanın xaricində POS-terminal vasitəsi ilə apardıqları nağdsız ödəmə əməliyyatlarının məbləğinin bundan iki dəfə artıq olduğu nəzərə alınaraq, tam əminliklə söyləmək olar ki, vətəndaşlarımızın böyük hissəsi artıq nağdsız ödənişlərə üstünlük verməyə başlayıb.

2015-ci ildə nağd əməliyyat aparan bütün obyektlərdə POS-terminalların quraşdırılması nəzərdə tutulmuşdur.

***- Azərbaycanda tam nağdsız ödəniş sisteminə keçilməsinə zəmin varmı?***

- Ölkəmizdə nağdsız ödəniş sisteminə keçilməsinə imkan verən amillərdən biri ödəniş kartlarının sayının artıq 6 milyona çatmasıdır. Mövcud POS-terminalların sayı da nağdsız ödəniş sisteminə keçmək üçün kifayət qədərdir. İndi qalır onlardan hər yerdə istifadə edilməsinə nail olmaq. Bunun üçün əhali arasında aparılan maarifləndirmə işləri daha da genişləndirilməli, banklar POS-terminallardan istifadənin əhali üçün iqtisadi cəhətdən daha sərfəli olması üçün konkret əməli tədbirlər görməli, nağd ödənişlərin həcminin azaldılması və nağdsız ödənişlərin stimullaşdırılması üçün qanunvericilikdə bir sıra dəyişikliklər edilməlidir.

Bunlar isə öz növbəsində iqtisadiyyatda şəffaflığın daha da artmasına, ölkə başçısının dəfələrlə vurğuladığı kimi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə və büdcəyə vergi daxilolmalarının artmasına öz müsbət təsirini göstərəcəkdir.

***- Azərbaycan bu il ilk Avropa Oyunlarına ev sahibliyi edəcək, bu səbəbdən ölkəyə turist axınının artacağı gözlənilir. Bunu POS-terminalların quraşdırılması prosesinin sürətləndirilməsini şərtləndirən amillərdən biri hesab etmək olarmı?***

- Ölkəmizin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artması son illər Bakıda və bölgələrdə kecirlilən beynəlxalq və regional tədbirlərin miqyasını da genişləndirib. Azərbaycana gələn turistlərin sayında da ciddi artım müşahidə olunur. Tarixdə ilk dəfə Bakıda keçiriləcək Avropa Oyunları zamanı respublikamıza çoxlu sayda idman heyətlərinin və azarkeşlərin gələcəyi gözlənilir və bu qonaqlar, təbiidir ki, Avropa ölkələrində qəbul olunduğu kimi, müxtəlif ticarət, əyləncə, iaşə və s. obyektlərdə nağdsız ödənişlərə üstünlük verəcəklər. Ona görə də Vergilər Nazirliyi tərəfindən Avropa Oyunlarının keçiriləcəyi ərazilərdə POS-terminalların quraşdırılması və onlardan istifadəyə ciddi nəzarət olunur.

*«Xalq qəzeti»,*
*29.01.2015*

# Azərbaycanın vergi qanunvericiliyi Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılır



*Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi* ***Natiq Şirinovun*** *müsahibəsi*

***- Natiq müəllim, Vergilər Nazirliyinin həyata keçirdiyi vergi sisteminin 2013-2020-ci illərdə inkişafı üzrə strateji planda nəzərdə tutulan tədbirlərdən biri Azərbaycan qanunvericiliyinin Avropa İttifaqı (Aİ) qanunvericiliyinə və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tələblərinə uyğunlaşdırılmasıdır. Hazırda bununla bağlı hansı işlər görülür?***

- Aİ ilə Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinin mühüm şərtlərindən biri də ölkəmizin mövcud qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılmasıdır. Bu məsələ ölkəmizin Avropaya inteqrasiyasının sürətləndirilməsi istiqamətində əsas prioritetlərdəndir və onun həlli Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş vergi sisteminin inkişafı üzrə strateji planda nəzərdə tutulmuşdur. Artıq bu sahədə hazırlıq işlərinə başlanılmışdır. Qanunvericiliyin uyğunlaşdırılması ilə bağlı ilkin mərhələdə Aİ-nin dolayı vergitutma sahəsində 7 direktivi üzrə əsas tələblər təhlil edilərək müəyyənləşmişdir.

Avropada belə bir fikir formalaşmışdır ki, uyğunlaşdırılmamış vergi qanunvericilikləri ölkələr arasında malların, xidmətlərin və kapitalın sərbəst hərəkətinə mane olur və rəqabət prinsiplərini pozur. Bu baxımdan milli qanunvericiliklərin Aİ qanunvericiliyinə uzlaşdırılması prioritet hesab edilir. Uyğunlaşdırma prosesi isə birmənalı olaraq, əsasən, dolayı vergilər sahəsində aparılır ki, bu da yalnız həmin vergilərin qarşılıqlı ticarət münasibətlərinə təsir etməsi ilə şərtlənir.

Birbaşa vergilərə gəldikdə, bu qrupa daxil olan vergi növlərinin harmonizasiyasına ehtiyac duyulmur. Çünki birbaşa vergilər dolayı vergilər kimi kapitalın, malların sərbəst hərəkətinə və xidmətlərin göstərilməsinə birbaşa təsir etmir. Birbaşa vergilər hər bir ölkənin daxili iqtisadi siyasətinə uyğun müəyyən edilir.

Aİ-nin əsas tələblərindən biri təhsil xidmətlərinin ƏDV-dən azad olunması ilə bağlıdır. Aİ-nin ƏDV üzrə 28 noyabr 2006-cı il tarixli direktivinin tələblərinə uyğun olaraq 2013-cü il yanvarın 1-dən Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164-cü maddəsinə dəyişiklik olunmaqla ödənişli təhsil xidmətləri ƏDV-dən azad edilmişdir.

Hazırda Aİ-nin ƏDV və aksizlərlə bağlı digər direktivlərinin aksizli malların əhatə dairəsi, ƏDV-yə cəlb olunan əməliyyatlar, ƏDV-nin dərəcəsinin diferensiallaşdırılması və s. barədə tələblərinin tətbiqi imkanları ilə bağlı araşdırma və müzakirələr davam etdirilir.

***- Hazırda aktual məsələlərdən biri də ölkədə nağdsız hesablaşmaların inkişaf etdirilməsidir. Vergilər Nazirliyi mütəmadi olaraq bu sahənin inkişafı üçün mühüm işləri yerinə yetirir. Bu sahənin inkişafının gələcək hədəfləri barədə nə deyərdiniz?***

- Son illərdə Azərbaycanda mütərəqqi Milli Ödəniş Sisteminin yaradılması üçün qabaqcıl beynəlxalq təcrübədən istifadə olunmaqla elektron hesablaşma sistemlərinin yaradılıb istifadəyə verilməsi istiqamətində bir sıra islahatlar aparılmışdır. İslahatlar nəticəsində real vaxt rejimində banklararası hesablaşmalar sistemi və xırda ödənişlər üzrə hesablaşma klirinq sistemi yaradılmış, onların tətbiqi nəticəsində böyük məbləğli və təcili ödənişlərin real vaxt rejimində (onlayn) həyata keçirilməsinə və xırda ödənişlərin, o cümlədən telefon, qaz, su, elektrik enerjisi üzrə kommunal ödəmələrin elektron daşıyıcılar, habelə plastik kartlar əsasında şəffaf, təhlükəsiz, səmərəli şəkildə həyata keçirilməsinə geniş imkanlar yaradılmışdır.

Görülən tədbirlər nəticəsində cəmi pul kütləsinin artımında müsbət tendensiya olaraq nağd pul kütləsinin azalması prosesi davam etməkdədir. Təhlillər göstərir ki, 2012-ci ildə cəmi pul kütləsinin həcmi 20,7%, nağd pul kütləsi 29,3% artmışdı. 2013-cü ildə isə cəmi pul kütləsi 15,4% artmış, nağd pul kütləsinin artımı 13% təşkil etmişdir.

Qeyd edim ki, bu sahədə beynəlxalq təcrübə araşdırılaraq respublika ərazisində nağd qaydada aparılan hesablaşmaların məhdudlaşdırılmasını və nağdsız ödənişlərin stimullaşdırılmasını nəzərdə tutan müvafiq qanunvericilik aktlarının layihələrindən ibarət təkliflər hazırlanmış, baxılmaq üçün artıq hökumətə təqdim olunmuşdur. Bununla yanaşı, ölkə iqtisadiyyatında nağdsız ödənişlərin stimullaşdırılmasında beynəlxalq tələblərə cavab verən daha təkmil qanunvericilik bazasının yaradılmasında texniki kömək üçün hazırda Dünya Bankının Azərbaycandakı nümayəndəliyi ilə müzakirələr aparılır.

Bu işlərlə yanaşı, vergi xidməti öz üzərinə düşən bir sıra işləri artıq tamamlamışdır. 2012-ci ilin aprel ayından başlayaraq vergi ödəyiciləri plastik bank kartından istifadə etməklə vergi və rüsumların internetlə ödənilməsi imkanını əldə etmişlər.

POS-terminal şəbəkəsinin genişləndirilməsi istiqamətində mühüm tədbirlər görülmüşdür. Bildiyiniz kimi, «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanuna edilmiş dəyişikliklərə əsasən, ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmalar aparılması üçün POS-terminalların quraşdırılması hüquqi və fiziki şəxslərin vəzifələrinə aid edilmişdir. Qanunun icrasından irəli gələrək nağdsız ödənişlərin genişləndirilməsi məqsədilə Nazirlər Kabineti tərəfindən 2012-ci ildə «Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları» və «POS-terminallar quraşdırılacaq obyektlərin meyarları» təsdiq edilmişdir. Hazırda həmin qərarla müəyyən olunmuş qrafikə uyğun olaraq, vergi ödəyicilərinin obyektlərində POS-terminalların quraşdırılması işləri davam etdirilməkdədir.

Görülmüş işlər nəticəsində POS-terminal və ATM-lər vasitəsilə həyata keçirilən nağdsız ödənişlərin həcmi artmaqdadır. POS-terminal və ATM-lərin sayında da artım özünü göstərir. Bu il iyunun 1-nə respublika üzrə qeydiyyatda olan POS-terminalların sayı ilin əvvəlinə olan göstəriciyə nisbətən 1,6 dəfədən çox artaraq 51773 ədəd olmuşdur. Son 3 il ərzində POS-terminal və ATM-lər vasitəsilə həyata keçirilən nağdsız dövriyyənin həcmi dörd dəfəyədək artaraq 2013-cü ildə 578 milyon manat təşkil etmişdir.

***- Müzakirə olunan aktual məsələlərdən biri də elektron ticarətlə bağlıdır. Bu sahədə hansı işlərin görülməsi nəzərdə tutulur və hazırda bu sahəyə vergi nəzarəti necə təşkil edilir?***

- İnternet vasitəsilə elektron ticarətin həyata keçirilməsi dünyada gedən qloballaşma prosesinin tərkib hissələrindən biridir. Son dövrlərdə inkişaf etmiş ölkələr də artıq yeni inkişaf mərhələsinə - vahid informasiya cəmiyyətinin yaradılması mərhələsinə daxil olmaqdadır. Sahibkarlıq fəaliyyəti sahəsində bu istiqamətdə baş verən yeni dəyişikliklər biznesin elektron qaydada aparılmasında və ya elektron ticarətin tətbiqində öz əksini tapmışdır.

Dünya miqyasında elektron ticarət deyilən yeniliyin meydana çıxması yeni yaranmış münasibətlərin tənzimlənməsinə, o cümlədən texniki, iqtisadi, maliyyə, vergi və hüquq normalarının uzlaşdırılmasına zərurət yaratmışdır. Son illərdə ABŞ, Kanada, Avstraliya və bəzi Avropa ölkələrində elektron qaydada həyata keçirilən biznesi tənzimləyən qanunvericilik aktları qəbul edilir.

Artıq Azərbaycanda da biznesin elektron qaydada aparılması zamanı meydana çıxan hüquqi və iqtisadi münasibətləri tənzimləyən bir sıra qanunvericilik aktları qəbul edilmişdir. Bunlara «Elektron sənəd, elektron imza haqqında», «Elektron ticarət haqqında» qanunları, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə elektron ticarətlə bağlı müddəaların daxil edilməsini göstərmək olar.

Hazırda sahibkarlıq fəaliyyətinin bütün sahələrinə, o cümlədən elektron ticarətə vergi nəzarəti Vergi Məcəlləsi ilə müəyyən olunmuş ümumi qaydada aparılır. Lakin elektron ticarətin yuxarıda göstərilən xüsusiyyətləri nəzərə alınaraq vergi nəzarətinin təkmilləşdirilməsi vacib məsələlərdəndir. Yaxın gələcəkdə elektron ticarətə vergi nəzarətinin həyata keçirilməsi sahəsində beynəlxalq təcrübənin öyrənilərək təkmil vergi nəzarəti mexanizminin yaradılması ilə bağlı tədbirlərin görülməsi nəzərdə tutulur.

***- Bir müddət öncə Vergilər Nazirliyinin dəvəti ilə Aİ TAIEX proqramı çərçivəsində Avstriya Vergi Administrasiyasının ekspert qrupu Bakıda səfərdə oldu. Qrup nazirlik daxilində fəaliyyətin qiymətləndirilməsi sistemini təhlil etmiş və onun təkmilləşdirilməsi ilə bağlı tövsiyələrini hazırlamışdı. Bu sahədə hansı işlərin görülməsi planlaşdırılır?***

- Vergi sisteminin inkişafı ilə bağlı qəbul edilmiş Strateji Planda nazirliyin strukturları və işçilərinin fəaliyyətinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi, bu sahədə beynəlxalq təcrübənin araşdırılaraq tətbiqi imkanlarının müəyyən edilməsi və digər ölkələrin vergi orqanları ilə təcrübə mübadiləsi aparılması nəzərdə tutulur. Bu məqsədlə Vergilər Nazirliyi tərəfindən fəaliyyətin qiymətləndirilməsi sahəsində mütərəqqi beynəlxalq təcrübə öyrənilmişdir. 2014-cü ilin martında Aİ-nin TAIEX proqramı çərçivəsində Avstriya Vergi Administrasiyasının nümayəndələri ekspert missiyası şəklində Bakıda olmuş, mövcud vəziyyəti qiymətləndirmiş və ekspert hesabatı hazırlamışlar. Hesabatda Vergilər Nazirliyində fəaliyyətin qiymətləndirilməsi sisteminin güclü və zəif tərəfləri barədə rəy verilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın qərarı ilə «Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları» təsdiq edilmişdir. «Dövlət qulluğu haqqında» qanun əsasında hazırlanmış qaydalar dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsini müəyyən edir. «Dövlət qulluğu haqqında» qanuna əsasən, vergi orqanlarının vəzifəli şəxslərinin fəaliyyətinin qiymətləndirilməsi bu qaydalara müvafiq olaraq aparılmalıdır. Vergilər Nazirliyində tətbiq olunan fəaliyyətin qiymətləndirilməsi qaydalarının qeyd olunan qaydalara uyğunlaşdırılması məqsədilə «Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları»nın yeni layihəsi hazırlanmışdır və layihənin müzakirələri aparılır.

***- Son dövrlərdə bələdiyyələrdə uçot sisteminin təkmilləşdirilməsi və bələdiyyələrə bu sahədə metodiki rəhbərliyin həyata keçirilməsi istiqamətində mühüm işlər görülür...***

- Məlum olduğu kimi, «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» qanunun tətbiq edilməsi barədə ölkə Prezidentinin fərmanına əsasən, yerli vergilərin və ödənişlərin düzgün hesablanmasında, tam və vaxtında ödənilməsində, habelə vergi qanunvericiliyinə tam və dəqiq riayət edilməsində bələdiyyələrə metodik rəhbərliyi Vergilər Nazirliyi həyata keçirir.

Bələdiyyələrin büdcəsinə daxil olmuş vəsaitlərin təhlili göstərir ki, bələdiyyələr tərəfindən yığılmış vergi və ödənişlər onların fəaliyyətinin təşkili üçün kifayət etmir: 1700-dən çox bələdiyyənin topladığı yerli vergi və ödənişlərin məbləği 2013-cü ildə 47 milyon 209,7 min manat olmaqla, orta hesabla 1 bələdiyyəyə düşən illik daxilolmanın məbləği cəmi 27,8 min manat təşkil etmişdir.

Mövcud vəziyyətin yaxşılaşdırılması, bələdiyyələrin vergi xidmətlərinin fəaliyyətinin gücləndirilməsi üçün yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqi prioritet məsələyə çevrilmişdir. Bu məsələ «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da nəzərdə tutulan vəzifələrdəndir.

Bələdiyyələrdə elektron uçotun həyata keçirilməsi ilə bağlı Vergilər Nazirliyinin sifarişi əsasında «Bələdiyyə Vergi İnformasiya Sistemi» (BVİS) proqram təminatı hazırlanmışdır. Bələdiyyələrdə avtomatlaşdırılmış uçot sisteminin tətbiq olunması onlarda geniş məlumat bazasının yaradılmasını təmin etməklə, yerli vergi və ödənişlərin düzgün hesablanmasına, onların yerli büdcələrə tam və vaxtında ödənilməsinə, bütövlükdə isə bələdiyyələrin sürətli inkişafına xidmət edəcəkdir.

Vergilər nazirinin əmrinə əsasən, yerli vergilərin ödəyiciləri olan fiziki şəxslərin, habelə yerli vergi və ödənişlərin uçotunun tətbiqi üzrə 2014-cü ildə pilot layihənin həyata keçirilməsi nəzərdə tutulmuşdur və həmin layihə hazırda 8 bələdiyyədə (Binəqədi rayonunun M.Ə.Rəsulzadə, Binəqədi qəsəbə, Binəqədi, Xocasən, Biləcəri bələdiyyələrində, Abşeron rayonunun Saray bələdiyyəsində, Sumqayıt şəhərinin Sumqayıt bələdiyyəsində və Şəmkir rayonunun Şəmkir bələdiyyəsində) həyata keçirilməkdədir. Qısa müddət ərzində pilot layihə həyata keçirilən bələdiyyələrdə proqram təminatı quraşdırılmış və yerli vergilərin 14 minə yaxın ödəyicisi BVİS-də elektron qaydada uçota alınmışdır.

Müvafiq proqram təminatının istifadə qaydalarını əks etdirən «Azərbaycan Respublikası Bələdiyyə Vergi İnformasiya Sistemi (BVİS)» adlı istifadəçi təlimatı da hazırlanmışdır. Hazırda Vergilər Nazirliyinin əməkdaşları tərəfindən gündəlik olaraq pilot layihənin əhatə etdiyi bələdiyyələrdə yerli (bələdiyyə) vergi ödəyicilərinin BVİS-də elektron qaydada uçota alınması üçün bələdiyyə əməkdaşlarına əməli və metodiki kömək göstərilir.

***- Bu gün sahibkarları narahat edən məsələlərdən biri mövcud təcrübədə vergi qanunvericiliyi sahəsində yaranmış mübahisəli halların onlara izah edilməsidir. Bu məsələ ilə bağlı hansı işlər həyata keçirilir?***

- Qeyd etmək istərdim ki, Vergi Məcəlləsində vergilər haqqında qanunvericiliyin bütün ziddiyyətləri və aydın olmayan məqamlarının vergi ödəyicisinin xeyrinə şərh olunması öz əksini tapmışdır. Qanunvericilikdə müxtəlif cür tətbiq oluna biləcək halların mövcudluğu vergi sistemində məcəllənin müddəalarının tətbiqinə vahid yanaşmanın formalaşdırılmasını və məcəlləyə rəsmi şərhlərin hazırlanmasını zəruri edir.

Göstərilənlərlə əlaqədar, vergilər nazirinin 20 noyabr 2013-cü il tarixli əmrinə əsasən, Vergi Məcəlləsinin şərhlərinin hazırlanması ilə bağlı komissiya yaradılmışdır. Vergi Məcəlləsinin müddəalarının aydın və konkret şərh edilməsi üçün hazırda həmin komissiya tərəfindən çox ciddi işlər görülür. Düşünürük ki, Vergi Məcəlləsinə şərhlərin hazırlanması ayrı-ayrı maddələrlə əlaqədar sorğuların sayının da əhəmiyyətli dərəcədə azalmasına səbəb olacaqdır.

***- Vergi qanunvericiliyində mütəmadi olaraq dəyişikliklər edilir. Bu dəyişikliklər makroiqtisadiyyat və vergi sistemində olan əsas göstəricilərin təhlilinə əsaslanır. Vergi qanunvericiliyi və inzibatçılığı sahəsində baş vermiş dəyişikliklərin sonrakı qiymətləndirilməsi və monitorinqinin aparılması zamanı hansı üsullardan istifadə olunur?***

- Vergi sisteminin inkişafı üzrə Strateji Plana əsasən bu məsələ də öz həllini tapmalıdır. Planda vergi güzəşti və azadolmalarının monitorinqinin aparılması və təkliflərin verilməsi, vergi potensialının qiymətləndirilməsi, proqnozlaşdırılması modelləri sisteminin və müvafiq tətbiqi proqram paketinin təmin edilməsi nəzərdə tutulmuşdur. Həmin vəzifənin icrası, həmçinin ümumilikdə iqtisadiyyatda və vergi sistemində baş verən dəyişikliklərin qiymətləndirilməsi məqsədilə AVİS-də «Strateji araşdırmalar modulu» proqram təminatının hazırlanması üzrə işlər davam etdirilir.

Vergi potensialının müəyyən edilməsi, vergi güzəştlərinin hesablanması və qiymətləndirilməsi ilə bağlı görülən tədbirlər, ölkə iqtisadiyyatını və vergi sistemini əhatə edən geniş məlumat bazası vergi sisteminin inkişafının monitorinqini aparmağa və onun obyektiv qiymətləndirilməsinə imkan yaradacaqdır.

*«Xalq qəzeti», 27.08.2014*

# Beynəlxalq təcrübənin tətbiqi Vergilər Nazirliyinin fəaliyyətinin prioritet sahələrindəndir

**Əvvəli 5-ci səhifədə**

Bu il mayın 23-də Parisdə «Vergi məsələlərində qarşılıqlı inzibati yardım haqqında Avropa Şurası və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının çoxtərəfli Konvensiyasına dəyişiklik edilməsi haqqında» Protokolun imzalanması ölkəmizin bank sirrini aradan qaldırmaqla şəffaflığa tərəfdar olduğunu bir daha nümayiş etdirmiş, eyni zamanda artıq bu saişi imzalamış 63 dövlətlə geniş əməkdaşlıq imkanı əldə edilmişdir.

Bundan başqa, çoxformatlı qurumlarla da ciddi iş aparılır. Vergilər Nazirliyi MDB ölkələrinin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurası və vergi (maliyyə) təhqiqat orqanları rəhbərlərinin Koordinasiya Şurasının işində fəal iştirak edir. Korrupsiyaya qarşı mübarizə sahəsində Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) ilə sıx əlaqələr qurulub. Ölkəmiz bu qurumun Baş Assambleyasının bürosuna üzv seçilib. Vergilər Nazirliyi Avropa Kommersiya Qeydiyyatçıları Forumunun (ECRF) və Korporativ Qeydiyyatçılar Forumunun üzvüdür, həmçinin İslam Ölkələrinin Vergi Orqanları Assosiasiyası (ATAIC) ilə müşahidəçi statusunda əməkdaşlıq edir.

Yeri gəlmişkən, qeyd edim ki, 2013-cü ildə BMT-nin vergi məsələlərində beynəlxalq əməkdaşlıq üzrə Ekspertlər Komitəsinin yeni tərkibi təsdiqlənərkən təşkilatın baş katibinin qərarı ilə dünyanın müxtəlif regionlarını təmsil edən namizədlər arasından seçilmiş 25 ekspert sırasında Vergilər Nazirliyinin əməkdaşı da vardır.

**- İkiqat vergitutmanın aradan qaldırılması ilə bağlı sazişlərin bağlanması sahəsində işlər nə yerdədir? Sizcə, mövcud sazişlər şəbəkəsi ölkəmizin əsas tərəfdaşlarını əhatə edirmi?**

- Ölkəmizdə investisiya mühitini şərtləndirən mühüm məsələlərdən biri də «Gəlir və əmlak vergilərinə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması» haqqında sazişlərin mövcudluğudur. Artıq Azərbaycan Respublikası əksər Avropa Birliyi, Cənub-Şərqi Asiya, Yaxın Şərq ölkələri, Kanada, Yaponiya və MDB üzvü olan dövlətlər də daxil olmaqla, 48 ölkə ilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər imzalamış, onlardan 43-ü qüvvədədir, 6 ölkə ilə sazişlərin mətnləri üzrə mütəxəssislər səviyyəsində razılıq əldə edilmiş, 10 ölkə ilə layihələrin razılaşdırılması üzrə müzakirələr davam etməkdədir. Hesab edirəm ki, hazırkı vəziyyətdə ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı sazişlər ölkəmizin əsas ticarət tərəfdaşlarını əhatə edir. Hazırda digər dövlətlərlə vergi məsələlərinin tənzimlənməsində əhəmiyyətli rol oynayan məlumat mübadiləsi və vergi orqanları arasında əməkdaşlıq haqqında sazişlər şəbəkəsi də genişlənməkdədir.

Azərbaycan Respublikası 10 ölkə ilə (Gürcüstan, Özbəkistan, Qazaxıstan, Rusiya, Litva, Moldova, Belarus, Latviya, Qırğızıstan, Argentina) ikitərəfli və 2 çoxtərəfli «Vergi qanunvericiliyinə əməl olunması üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında» sazişlər, 7 ölkə ilə (Gürcüstan, Özbəkistan, Qazaxıstan, Rusiya, Litva, Moldova, Polşa) ikitərəfli və 1 çoxtərəfli «Vergi cinayətlərinə qarşı mübarizədə əməkdaşlıq haqqında» sazişlər və 8 ölkə ilə (Gürcüstan, Litva, Estoniya, Macarıstan, Fransa, Çexiya, Ukrayna, Türkiyə) ikitərəfli «Əməkdaşlıq haqqında» sazişlər imzalayıb.

Bundan əlavə, Niderland Krallığının Maliyyə Nazirliyi ilə vergi məsələləri üzrə məlumat mübadiləsi haqqında Anlaşma Memorandumu layihəsi qarşı tərəflə razılaşdırılıb, Türkmənistan Baş Dövlət Vergi Xidməti ilə əməkdaşlığa dair Memorandum layihəsi üzrə dövlətdaxili prosedurlar tamamlanıb, Serbiya ilə analoji saziş layihəsi razılaşdırılması üçün qarşı tərəfə göndərilib. Bunlarla yanaşı, OECD tərəfindən hazırlanmış «Azərbaycan Respublikası Vergilər Nazirliyi və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı arasında əməkdaşlıq fəaliyyəti haqqında Saziş» layihəsinin razılaşdırılması üzrə müzakirələr davam etməkdədir.

Yuxarıda qeyd olunan sazişlər əsasında digər ölkələrin səlahiyyətli orqanları ilə səmərəli məlumat mübadiləsi həyata keçirilir.

Bildiyiniz kimi, ABŞ-da 2010-cu ildə vergidən yayınma hallarının qarşısının alınması məqsədilə qəbul edilmiş və FATCA adlandırılan Xarici hesablar üzrə vergi əməletməsi Aktı cari ilin iyul ayından qüvvəyə minmişdir. Həmin sənəddə müvafiq məlumatları təqdim etməyən xarici maliyyə institutlarına ağır sanksiyalar nəzərdə tutulur. Nəzərinizə çatdırmaq istərdim ki, Azərbaycan və ABŞ hökumətlərinin birgə səyləri nəticəsində maliyyə hesabları haqqında məlumatların qarşılıqlı mübadiləsinə dair hökumətlərarası saziş layihəsi üzrə artıq razılıq əldə edilmişdir.

Əlbəttə, dünyada baş verən qlobal tendensiyalar və beynəlxalq inteqrasiyanın dərinləşməsi bilik menecmentinə əsaslanan, texnoloji baxımdan daim təkmilləşən bir vergi sisteminin yaradılmasını zəruri edir. Belə bir sistemin qurulması istiqamətində Vergilər Nazirliyinin həyata keçirdiyi mütərəqqi islahatlar zamanla ayaqlaşan mühüm prinsiplərə söykənir. Bu prinsiplər bütövlükdə milli vergi sisteminin inkişafının elmi əsaslar üzərindən aparıldığının, strateji təhlil və innovasiyalardan istifadəyə verilən önəmin əhəmiyyətini bir daha göstərir. Hesab edirəm ki, Vergilər Nazirliyinin nümayiş etdirdiyi belə yanaşma milli vergi xidmətinin daim inkişafın ön cərgəsində olduğuna dəlalət edir.

*«Yeni Azərbaycan» qəzeti, 24.07.2014*

# Vergi hüquqpozmalarına qarşı mübarizə tədbirləri gücləndirilir



*Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin (VCİAD) rəisi* ***Vidadi Məmmədovun*** *müsahibəsi*

***- Vidadi müəllim, Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən 2014-cü ildə vergi hüquqpozmaları ilə bağlı həyata keçirilən mübarizə tədbirləri haqqında məlumat verməyizini xahiş edirik.***

- İl ərzində departamentə daxil olmuş 1024 material üzrə 971 cinayət işi başlanmışdır. VCİAD tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (CM) 213-cü maddəsi ilə (vergi ödəməkdən yayınma) 897 cinayət işi, 192-ci (Qanunsuz sahibkarlıq) və 213-cü maddələri ilə 46, 192-1.2-ci maddəsi ilə (Qanunsuz olaraq lotereyaların və idman mərc oyunlarının təşkili və ya keçirilməsi) 4, 192-ci maddəsi ilə 11, CM-in 205-1-ci maddəsi ilə (Saxta aksiz markalarını hazırlama, əldə etmə və ya satma) ilə 1, CM-in 162-1-ci maddəsi ilə (Əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) 6, 213-1-ci maddəsi ilə (aksiz markası ilə markalanmalı olan məhsulları (malları) belə marka olmadan satma, satış məqsədi ilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə) 6, ümumilikdə 971 cinayət işi başlanaraq istintaqı davam etdirilmişdir. Qeyd edim ki, bu göstərici 2013-cü ilə nisbətdə 452 cinayət işi çoxdur.

Vergiləri dövlət büdcəsinə ödəməkdən yayınan şəxslərlə bağlı ötən il departamentin istintaq idarəsində 395 cinayət işi 125 nömrə altında birləşdirilərək ittiham aktları ilə məhkəməyə göndərilmişdir: bunlardan 72-si 2014-cü ildə, 31-i 2013-cü ildə, 22-si isə əvvəlki illərdə başlanmış cinayət işləridir. Ümumilikdə ötən il vergi hüquqpozmaları nəticəsində 134 nəfər cinayət məsuliyyətinə cəlb edilmişdir. İl ərzində 36 nəfər şübhəli şəxs qismində tutulmuş, 26 nəfər barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Departamentə daxil olmuş material və başlanmış cinayət işləri üzrə dövlət büdcəsinə dəymiş ziyan tam şəkildə ödənildiyindən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.11-ci maddəsi ilə 340 prosessual qərar qəbul edilərək, materiallar üzrə cinayət işinin başlanması rədd edilmiş, başlanmış cinayət işləri üzrə icraata xitam verilmişdir.

***- Görülən tədbirlər nəticəsində dövlət büdcəsinə ödəmələr nə qədər olmuşdur?***

- 2014-cü il ərzində departamentdə cinayət işləri və materiallar üzrə aparılan araşdırmalar zamanı dövlət büdcəsinə ödənilməsi təmin olunmuş vəsaitin məbləği 16 milyon 81 min 402,17 manat təşkil etmişdir ki, bunun da 4 milyon 583,3 min manatı istintaqı tamamlanmış cinayət işləri üzrə, 779,6 min manatı cinayət işinin başlanması rədd edilmiş materiallar üzrə, 2 milyon 197,9 min manatı icraatı dayandırılmış cinayət işləri üzrə, 111,4 min manatı aidiyyəti üzrə göndərilmiş cinayət işləri üzrə, 8 milyon 409,2 min manatı isə istintaqı davam etdirilən cinayət işləri üzrə ödənişlərdir.

***- Əsasən hansı fəaliyyət sahələri və tədiyyə növləri üzrə vergi cinayətlərinə yol verilmişdir?***

- Başlanmış cinayət işləri ilə bağlı vergi ödəyicilərinin fəaliyyət istiqaməti üzrə təsnifata nəzər salsaq görərik ki, daha çox ixtisaslaşdırılmamış (ərzaq, məişət və digər) məhsulların alqı-satqısı, təmir-tikinti xidməti, tikinti materiallarının alqı-satqısı fəaliyyəti ilə məşğul olan şəxslər vergi ödəməkdən yayınırlar. 2014-cü il ərzində vergi ödəməkdən yayınma cinayəti törətmiş şəxslər daha çox ƏDV, sadələşdirilmiş vergi və mənfəət vergisi üzrə ödəyicilər olmuşlar.

***- Geniş yayılmış hüquqpozmalardan biri də ƏDV fırıldaqçılığıdır...***

- Ötən illərdə olduğu kimi, 2014-cü il ərzində də departament tərəfindən ƏDV fırıldaqçılığı ilə məşğul olan şəxslərin aşkar edilməsi və cinyət məsuliyyətinə cəlb edilməsi istiqamətində mühüm işlər görülmüşdür. 49 cinayət işi üzrə ümumilikdə 32 milyon 950 min 452,94 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayınan şəxslərin 49-u barəsində Cinayət Məcəlləsinin 213-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı qəbul edilmiş, onlara ittiham elan olunmuş, həmin şəxslərdən 9-u barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilərək cinayət işləri ittiham aktı ilə məhkəməyə göndərilmişdir. Cinayət işlərinin istintaqı zamanı müəyyən edilmişdir ki, son dövrlər bəzi qrup şəxslər hüquqi şəxsin elektron formada təsis edilməsi ilə bağlı vergi orqanları tərəfindən göstərilən operativ və şəffaf xidmətlərdən öz cinayətkar məqsədləri üçün istifadə edirlər. Onlar ƏDV ödəyicisi kimi qeydiyyata durmamaq və vergidən yayınmaq məqsədilə müxtəlif şəxslərin adlarına yüzlərlə müəssisə təsis edirlər. Əksər hallarda təsis edilən hüquqi şəxslərin hüquqi ünvanları eyni olur. İstintaq zamanı ifadə verən şəxslərin bəziləri ilkin ifadələrində heç bir müəssisə təsis etmədiklərini, qısa müddət ərzində tanıdığı şəxslər tərəfindən onlardan notarial qaydada təsdiq edilmiş etibarnamə və adlarına elektron imza alındığını bildirmişlər. İstintaq təcrübəsində artıq bir neçə şəxsin elektron imzasının bloklaşdırılmasına nail olunmuş və həmin şəxslər tərəfindən təsis edilmiş müəssisələrin ləğv edilməsi istiqamətində müvafiq proseslər aparılmışdır.

Bir epizod üzrə cinayət işinin istintaqı zamanı müəssisə rəhbərinin evində axtarış-istintaq hərəkəti aparılmışdır. İstintaq zamanı 100-ə yaxın müəssisənin təsis sənədləri, həmin müəssisəsələrə dair ciddi hesabat blankları, möhürlər götürülmüşdür. Müəyyən edilmişdir ki, şəxs müxtəlif ərazi vergi orqanlarında ayrı-ayrı şəxslərin adlarına müəssisələr təsis etdirmiş və öz yaxın qohumlarını direktor vəzifəsinə təyin etdirərək banklarda aparılmış əməliyyatlara görə daxil olmuş pul vəsaitlərini özü götürərək vergi orqanına bəyannamə təqdim etməmişdir. Həmin şəxs şübhəli şəxs qismində saxlanılmış, məhkəmənin qərarı ilə həbs edilmişdir. Külli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmaqda təqsirli bilinərək cinayət işi ittiham aktı ilə məhkəməyə göndərilmişdir.

Ötən il departament tərəfindən aparılmış əməliyyat-istintaq tədbirləri zamanı 109 müəssisə təsis edərək külli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayınan 6 nəfərdən ibarət qabaqcadan birləşmiş sabit cinayətkar qrup - mütəşəkkil dəstə zərərsizləşdilmiş və həmin şəxslərin hər biri barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir. Vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmış şəxslərin müxtəlif müəssisələr təsis edərək tender və kotirovkalarda iştirakının qarşısının alınması məqsədi ilə adlarına 1886 müəssisə olan 35 şəxs barədə məlumatlar dövlət orqanlarına, təhsil müəssisələrinə göndərilmişdir.

***- Vergi cinayətlərinin ibtidai araşdırılması zamanı qarşılaşdığınız əsas çətinliklər nədən ibarətdir?***

- Bunlardan biri müəssisənin rəhbərinin vergi orqanındakı baza məlumatları ilə müəssisənin bank hesablarında olan məlumatların üst-üstə düşməməsidir. Yəni müəssisənin təsisçisi və direktoru vergi orqanının baza məlumatlarında və müəssisənin bank hesablarında müxtəlif şəxslər olur. Hesab edirəm ki, vergi cinayətlərinin qarşısının alınması və ödəyicilər tərəfindən bəyannamələrin vaxtında təqdim edilməsinin təmin olunması üçün qanunvericiliyə müvafiq dəyişikliyin edilməsi zəruridir. Təcrübə göstərir ki, müəssisənin rəhbərinin vergi orqanlarında kim olmasından asılı olmayaraq, bankda hesab açan həmin müəssisənin faktiki rəhbəri «təsisçi tərəfindən direktor təyin etmə haqqında» əmri banka təqdim etməklə digər şəxslərin bankda direktor kimi göstərilməsinə nail olur və müəssisələrin bank hesablarına daxil olmuş pul vəsaitlərini həmin şəxslər götürür. Yerli vergi orqanları isə həmin şəxslərin direktor təyin edilməsindən xəbərsiz olurlar. Aparılmış əməliyyatlar barədə məlumatlar olduqda isə vergi orqanlarında direktor kimi adı olan şəxsləri bəyannamə təqdim etmək üçün vergi orqanına dəvət edirlər. Hesab edirik ki, bununla bağlı mövcud qanunvericiliyə dəyişiklik etməklə banklarda yalnız vergi orqanından verilmiş reyestrdə adı olan şəxsin direktor kimi imza nümunəsi götürülməlidir. Yeni direktor təyin edildikdə və bu barədə vergi orqanına məlumat daxil olduqdan və müvafiq vergi orqanı tərəfindən verilmiş reyestrdən çıxarışdan sonra banklar tərəfindən həmin şəxslərə əməliyyat aparılmasına şərait yaradılmalıdır.

***- Vergi cinayətlərinin ibtidai araşdırılması sahəsində işlərin daha səmərəli təşkili üçün gələcəkdə hansı yeniliklərin və ya tədbirlərin həyata keçirilməsi planlaşdırılır?***

- Vergi hüquqpozmalarına, cinayətkarlığa qarşı mübarizə aparılması üçün həmin fəaliyyətlə məşğul olan əməkdaşların - əməliyyat müvəkkilinin, tədqiqatçının, müstəntiqin ixtisaslaşması zəruridir. Yəni ixtisasca hüquqşünas olan əməkdaşlarımız iqtisadi biliklərə yiyələnməli, ixtisasca iqtisadçı olan əməkdaşlarımız isə hüquqi bilikləri mənimsəməlidirlər. Bu məqsədə nail omaq, peşəkar formada vergi cinayətlərinin istintaqını aparmaq üçün 2010-cü ildən VCİAD-da tədrisə xüsusi diqqət ayrılmış və müstəqil treninqlərin aparılması təmin edilmişdir. Təsadüfi deyil ki, departamentin bütün əməkdaşları həftənin müxtəlif günlərində öz profillərinə uyğun olaraq tədrisə cəlb edilirlər.

Planlaşdırdığımız tədbirlər Vergilər Nazirliyi yanında yaradılmış Tədris-metodiki Şura ilə əlaqələndirilmiş şəkildə tədris proqramlarına uyğun olaraq həyata keçirilir. İstintaqının aparılması Vergilər Nazirliynin səlahiyyətlərinə aid edilmiş cinayətlər üzrə əməliyyat-istintaq tədbirlərinin daha peşəkar səviyyədə aparılması üçün bundan sonra da təlim və tədrisə xüsusi diqqət yetiriləcəkdir.

*«Respublika» qəzeti, 15.01.2015*

# Konstitusiya və vətəndaşlıq borcu



***Xanoğlan Şıxəliyev****, Baş Prokurorluğun Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin İstintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti*

Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin demokratik təsisatların yaradılmasında həm də dünyanın inkişaf etmiş dövlətlərinin təcrübəsinə istinad etməsi demokratik prosesləri, hüquqi, iqtisadi və digər sahələrdəki islahatları sürətləndirmiş və nəticədə ölkəmiz qısa müddətdə uğurlu inkişaf yolu keçmişdir. Bu gün isə Prezident İlham Əliyev tərəfindən ölkə iqtisadiyyatının dnamik inkişafı təmin olunmuş, Azərbaycan inkişaf sürətinə görə dünyada öncüllər sırasına çıxmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergiləri və başqa dövlət ödənişlərini ödəməyə məcbur edilə bilməz.

Bu gün ölkəmizdə iqtisadi sahədəki bütün uğurlu işlərdə və dinamik inkişafda layiqli payı olan Vergilər Nazirliyi tərəfindən səlahiyyətlərinə aid edilən cinayət və digər hüquqpozma hallarına, xüsusilə vergiləri ödəməkdən yayınma, qanunsuz sahibkarlıq və iqtisadi fəaliyyət sahəsində olan digər cinayətlərə qarşı məqsədyönlü, ardıcıl və səmərəli mübarizə aparılır. Bunun üçün ölkəmizdə təkmil qanunvericilik və informasiya texnologiyaları bazası olan qurumlar yaradılmışdır.

Azərbaycanın iqtisadi və sosial inkişafının əsasını təşkil edən dövlət büdcəsi gəlirlərinin formalaşmasında vergi xidməti orqanlarının rolu durmadan artır. Bu xidmət orqanları tərəfindən fiziki və hüquqi şəxslərə vergi xidməti, onların qeydiyyata alınması, vergi qanunvericiliyinin tətbiqi və icrası ilə bağlı uğurlu tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının 11 iyul 2000-ci il tarixli qanunu ilə vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edən Vergi Məcəlləsi qəbul edilmişdir. Həmin məcəlləyə əsasən ölkəmizdə ödənilməsi məcburi olan dövlət vergiləri və yerli vergilər (bələdiyyə vergiləri) sistemi müəyyən olunmuşdur. Dövlət vergilərinə fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa), əlavə dəyər vergisi, aksizlər, hüquqi şəxslərin əmlak vergisi, hüquqi şəxslərin torpaq vergisi, yol vergisi, mədən vergisi, sadələşdirilmiş vergilər daxildir.

Ölkəmizin vergi qanunvericiliyi Konstitusiyadan, Vergi Məcəlləsindən və onlara uyğun qəbul edilmiş Azərbaycan Respublikasının qanunvericilik aktlarından ibarətdir. Bu qanunvericilik aktları sisteminə Azərbaycan Respublikasının Cinayət Məcəlləsi də daxildir və həmin məcəllənin 213.1-ci maddəsi ilə xeyli miqdarda, 213.2-ci maddəsi üzrə isə mütəşəkkil dəstə tərəfindən törədilən və külli miqdarda vergiləri və ya məcburi dövlət sığorta haqlarını ödəməkdən yayınmaya görə cinayət məsuliyyəti müəyyən edilmişdir. Bu maddənin qeydinə əsasən «xeyli miqdar» dedikdə, 2 min manatdan 50 min manatadək, «külli miqdar» dedikdə, 50 min manatdan yuxarı olan məbləğ nəzərdə tutulur.

«Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» Prezidentin 25 avqust 2000-ci il tarixli fərmanına əsasən Cinayət Məcəlləsinin bir sıra maddələri ilə yanaşı, 213-cü maddəsində nəzərdə tutulmuş cinayətlərə dair işlər üzrə ibtidai istintaq Vergilər Nazirliyi tərəfindən aparılır. 14 iyul 2000-ci il tarixli qanunla qəbul edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi ilə Vergilər Nazirliyinə həm də ibtidai araşdırma funksiyası verilmişdir. Onu da qeyd edək ki, istintaq, təhqiqat, əməliyyat-axtarış və bir sıra digər funksiyaları həyata keçirmək üçün 12 sentyabr 2000-ci ildə Vergilər Nazirliyinin Hüquq-Mühafizə Orqanları ilə Əlaqələndirmə Baş İdarəsinin bazasında Vergi Cinayətlərinin İbtidai Araşdırılması İdarəsi yaradılmış və 11 iyun 2001-ci il tarixdə bu qurum Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə çevrilmişdir.

Ölkəmizdə azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul olmaq üçün hər cür şərait yaradılmışdır. Bunun nəticəsidir ki, dövlət büdcəsinə vergi daxilolmalarının xüsusi çəkisi 1995-ci ildə 234,8 milyon manat olduğu halda, 2010-cu ildə 4.292.800,0, 2011-ci ildə 5.475.062,0, 2012-ci ildə 6.025.366,5, 2013-cü ildə 6.663.633,4, 2014-cü ildə isə 7.113.622,4 min manat təşkil etmişdir. Daxilolmaların əsas hissəsi sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin payına düşür. Bu o deməkdir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan əksər hüquqi və fiziki şəxslər vergiləri və məcburi dövlət sosial sığorta haqlarını ödəməklə bağlı konstitusiya və vətəndaşlıq borclarını vicdanla yerinə yetirirlər.

Dünyanın əksər dövlətlərində, həmçinin ölkəmizdə iqtisadi sahədə cinayətkarlığa, o cümlədən vergiləri ödəməkdən yayınma cinayətlərinə qarşı ciddi mübarizə aparılır. Məsələn, dünyanın iqtisadi nəhəngi sayılan ABŞ-da bütün səviyyələrdə deyirlər ki, bu ölkədə iki şeydən qaçmaq olmaz: ölümdən və vergidən. Bir sıra inkişaf etmiş ölkələrdə qanunvericilikdə istənilən məbləğdə vergidən yayınmaya görə müəyyən hüquqi nəticələrə səbəb olmaqla məhkumiyyət yaradan cinayət məsuliyyəti müəyyən edilmişdir. Azərbaycanda isə bu iş daha çox ədalət və humanizm prinsiplərinə söykənir. Yəni, qanunvericiliyə əsasən, 2 min manatadək məbləğdə vergiləri ödəməkdən yayınmaya görə maddi məsuliyyətin bir növü olan vergi məsuliyyəti müəyyən edilmişdir.

XXI əsrdə həm dünyada, həm də ölkəmizdə cinayətkarlığın dinamikasında ciddi dəyişikliklər baş vermiş, vergiləri ödəməkdən yayınma kimi kriminal fəaliyyət forması cinayətkarlığın mənzərəsini müəyyən edən əsas göstəricilərdən birinə çevrilmişdir.

Ölkəmizdə bazar iqtisadiyyatına keçid şəraitində məqsədyönlü və ardıcıl iqtisadi siyasətin həyata keçirilməsində, ölkənin iqtisadi və sosial inkişafının əsasını təşkil edən dövlət büdcəsi gəlirlərinin formalaşmasında bir sıra yeni səlahiyyətlər, o cümlədən də ibtidai araşdırma səlahiyyəti verilməklə əməliyyat-axtarış fəaliyyətinin subyektinə çevrilmiş, dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən vergi xidməti orqanlarının rolu 2014-cü ildə də durmadan artmışdır. Həm Vergilər Nazirliyi rəhbərliyinin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi təşkilati və hüquqi tədbirlərin, həm də ibtidai araşdırmaya prosessual rəhbərliyin və nəzarətin düzgün təşkilinin nəticəsi olaraq vergi xidməti orqanları tərəfindən 2013-cü ildə 766, 2014-cü ildə isə 1213 iqtisadi fəaliyyət sahəsində cinayət faktları aşkar olunaraq qanunauyğun tədbirlər görülmüşdür.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən son illərdə Azərbaycan Respublikası CM-in 213-cü və s. maddəsi ilə çoxsaylı cinayət işləri istintaq edilmiş, dövlət büdcəsindən yayındırılan on milyonlarla manat vəsaitin büdcəyə ödənilməsi təmin olunmuş və həyata keçirilən preventiv tədbirlər nəticəsində iqtisadi fəaliyyət sahəsində çoxsaylı cinayətlərin qarşısı alınmış, faktiki fəaliyyət üçün deyil, yalnız vergiləri ödəməkdən yayındırmaq üçün vasitə kimi formal olaraq təşkil edilmiş çoxsaylı hüquqi və fiziki şəxslərin cinayətkar fəaliyyətinə son verilmişdir. Vergilər Nazirliyi rəhbərliyinin həyata keçirdiyi bir sıra uğurlu islahatların nəticəsi olaraq ölkədə iqtisadi cinayətlərə, o cümlədən bunun bir növü olan vergi ödəməkdən yayınma hallarına qarşı mübarizə işində departament mobil bir quruma çevrilərək digər struktur qurumlar və hüquq-mühafizə orqanları ilə birlikdə ayrı-ayrı cinayət faktlarının aşkar edilməsi, təhqiqatı, istintaqı və əməliyyat-axtarış tədbirləri üzrə tədbirlər həyata keçirmişdir.

Təkcə bir faktı qeyd etmək kifayətdir: əgər sözügedən departament yarandıqdan sonra, yəni, 2001-2005-ci illəri əhatə edən 5 ildə 472 nəfər haqqında 377 cinayət işinin istintaqı tamamlanmış və dövlətə vurulan 15.477.874 manat məbləğində ziyan ödənilmişsə, təkcə 2013-cü ildə bu qurumun istintaq idarəsinin müstəntiqləri tərəfindən 331 nəfər haqqında 383 cinayət işinin, 2014-cü ildə isə 365 nəfər haqqında 405 cinayət işinin istintaqı tamamlanmış və son iki ildə istintaq olunan cinayət işləri və bəraətverici əsaslar olmadan cinayət işinin başlanması rədd edilən 237 material üzrə dövlətə vurulmuş 47.657.701 manat ziyan ibtidai araşdırma mərhələsində ödətdirilmişdir. 2013-2014-cü illərdə məhkəmələrə göndərilən 225 nəfər haqqında 215 mürəkkəb və çoxepizodlu cinayət işlərinə vergidən yayınma faktlarına görə başlanılaraq ayrıca icraatda istintaq olunan çoxepizodlu 404 cinayət işinin birləşdirilməsi də nəzərə alınsa, onda departamentin istintaq idarəsinin fəaliyyəti ilə bağlı tam aydın mənzərə yaranar. 2012-2014-cü illərdə istintaqı tamamlanmış cinayət işləri üzrə cinayət prosesində 147.090.273 manat ziyanın təqsirləndirilən şəxslərdən alınıb dövlət büdcəsinə ödənilməsi haqqında mülki iddialar qaldırılmışdır ki, onların da hamısı məhkəmələr tərəfindən təmin olunmuşdur. Yeri gəlmişkən qeyd edək ki, 2013-cü ildə vergi sahəsində hüquqpozmalarla bağlı qeydə alınmış cinayətlərin açılma faizi 95,4, 2014-cü ildə 95,7 faiz təşkil etmişdir. Bu ilə qalıq qalmış 414 cinayət işi üzrə dövlətə vurulmuş ziyandan 8.409.000 manatının müstəntiqlər tərəfindən 2014-cü ildə ibtidai araşdırma mərhələsində ödətdirilməsi təmin olunmuşdur. Beləliklə, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti yarandığı 15 il ərzində səlahiyyətlərinə aid bütün sahələr üzrə yüksək göstəricilərə nail olmuşdur.

İstintaq və məhkəmə təcrübəsi göstərir ki, bəzi şəxslər fəaliyyətləri barədə uzun illər vergi orqanlarına bəyannamələr təqdim etməməklə və ya bəyannamələrə təhrif olunmuş məlumatlar daxil etməklə külli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmışlar. Məsələn, vergiləri ödəməkdən yayınma cinayətinə görə məhkum olunmuş Bakı şəhər sakini İlkin Abbasov əvvəllər məhkum olunmuş 7 nəfərdən ibarət mütəşəkkil dəstə yaradaraq 2012-2013-cü illər ərzində 109 müəssisə yaratmaqla və əldə etməklə bu müəssisələr üzrə 6.611.095 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırdığına görə 2014-cü ildə Azərbaycan Respublikası CM-in 213.2.1 və 213.2.2-ci maddələri ilə cinayət məsuliyyətinə cəlb edilərək onların hər biri haqqında həbs qətimkan tədbiri seçilməklə başlanmış cinayət işinin istintaqı bu ilin yanvar ayında tamamlanıb məhkəmə məsuliyyətinə verilmişdir. Lakin bu onların son əməlləri deyil. Son illər vergi ödəməkdən yayınma cinayətlərinə görə ölkə vətəndaşları ilə yanaşı, vergi ödəyiciləri olan xarici ölkə vətəndaşları da cinayət məsuliyyətinə cəlb olunaraq haqlarında müxtəlif, o cümlədən həbs qətimkan tədbirləri seçilərək məhkəmə məsuliyyətinə, yaxud istintaqdan qaçıb gizləndikləri üçün beynəlxalq axtarışa verilmişlər.

Lakin bəzən vergi ödəməkdən yayınan belə şəxslər bir sıra müxtəlif kütləvi informasiya vasitələri, qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar və ölkəmizdə fəaliyyət göstərən xarici qurumlar tərəfindən hər vəchlə «müdafiə» olunurlar. Hətta vergi ödəməkdən yayınma cinayətlərinə görə cinayət məsuliyyətinə alınanları və məhkum olunmuşları «siyasi məhbus» adlandırmaqdan belə çəkinmirlər. Bu cür qanunazidd «fəaliyyət»ə bir sıra xarici dövlətlərin və beynəlxalq təşkilatlarin rəsmi nümayəndələrinin, hətta səfirliklərinin də qoşulması heç cür başadüşülən deyil. İfşa olunmuş və ifşa olunmaq təhlükəsi ilə üz-üzə qalan məharətlə maskalanmış bir qrup şəxsin cinayət məsuliyyətindən azad olunmaları üçün aparılan iftira və böhtan kampaniyalarının kimlərdən və haralardan qaynaqlandığı, bunun məram və məqsədi hamıya yaxşı məlumdur.

Hər kəs yaxşı bilməlidir ki, Azərbaycan Respublikasının Konstitusiyasına və beynəlxalq hüququn qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanan Cinayət Məcəlləsinin qanun qarşısında bərabərlik prinsipi adlanan 6-cı maddəsinə əsasən cinayət törətmiş şəxslər qanun qarşısında bərabərdirlər. Bundan əlavə, vergidən yayınma cinayətlərinin müəyyən edilməsi və qarşısının alınması üçün informasiya texnologiyaları sahəsində tətbiq olunan müasir metodların və səmərəli iş prinsiplərinin tətbiqi şəraitində belə cinayətləri və başqa hüquq pozuntularını törətmiş şəxslərin müəyyən edilməməsi və məsuliyyətdən yaxasını qurtarması sadəcə, mümkün deyil. Odur ki, hər kəs öz hüquqları ilə bərabər, vəzifələrini də yaxşı bilməli və bunlara hər zaman əməl etməlidir. Bu vəzifələrdən biri də ölkədə həyata keçirilən uğurlu və genişmiqyasli sosial layihələrin icrasında mühüm mənbə və vasitə olan, dövlət büdcəsinin əsasını təşkil edən bütün növ vergilərin vaxtında ödənilməsidir.

*«Azərbaycan» qəzeti, 05.02.2015*

# Çalışmaq lazımdır ki, borclu olmayasan, xüsusilə də dövlət büdcəsinə...



*Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsinin rəisi* ***Tural Quliyevin*** *müsahibəsi*

Son illər ölkəmizdə qanunla müəyyən olunmuş vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması, borcların alınmasında fərdi yanaşma prinsipinin tətbiqi ilə bağlı bir sıra əhəmiyyətli işlər görülmüşdür. Bütün bunlar vergi öhdəliklərinin yerinə yetirilməsinə və vergi borclarının azalmasına da öz təsirini göstərmiş, 2010-cu illə müqayisədə vergi borclarının ümumi məbləği 2,5 dəfəyə qədər azaldılmışdır.

Təkcə cari ilin 10 ayı ərzində vergi ödəyicilərinin dövlət büdcəsinə olan borc məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,4% azalmış, 209.988 vergi ödəyicisinin borcları tamamilə ləğv edilmişdir. Hazırda borclu vergi ödəyicilərinin sayının ümumi vergi ödəyicilərinin sayında xüsusi çəkisi cəmi 8,4% təşkil edir.

Bütövlükdə dövlət büdcəsinə vergi daxilolmalarının təxminən üçdə birini vergi inzibatçılığı tədbirləri və vergi borclarının alınması ilə məşğul olan qurumların fəaliyyəti nəticəsində daxilolmaların təşkil etdiyini nəzərə alaraq, bu yazıda vergi borcları və onların alınma üsulları barədə məlumat vermək istəyirik.

## Hüquqi şərtlər

Vergi borclarının alınması prosedurları, əsasən, Vergi Məcəlləsi (VM) ilə müəyyənləşdirilir. Bununla yanaşı, həmin prosedurlar həyata keçirilərkən Mülki, Mülki-Prosessual, Cinayət məcəllələrinə, «İcra haqqında» Azərbaycan Respublikasının Qanununa və digər qanunvericilik aktlarına da istinad edilir. Vergi Məcəlləsinin 85.4-cü maddəsinə əsasən, vergi orqanları verginin, faizlərin və maliyyə sanksiyalarının hesablanmış məbləğini vergiyə cəlb edilən hesabat dövrü qurtardıqdan sonra 5 il ərzində tutmaq hüququna malikdir. Məhkəmə qərarına əsasən əmələ gələn tələb isə yalnız otuz il keçdikdən sonra qüvvəsini itirir (Mülki Məcəllənin 551.2.4-cü maddəsi).

## İnzibati tədbirlər

Vergi borcları vaxtında ödənilmədikdə vergi orqanları tərəfindən bir sıra inzibati tədbirlər həyata keçirilir. Bunlardan biri ödənilməmiş vergi məbləğlərinə faizlərin hesablanmasıdır. VM-in 59.1-ci maddəsinə əsasən, vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur. Bundan başqa, vergi ödəyicisi vergi öhdəliyini yerinə yetirmədikdə vergi orqanı VM-ə müvafiq olaraq hesablanmış və ya yenidən hesablanmış vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının 5 gün müddətində ödənilməsi barədə vergi ödəyicisinə bildiriş göndərir.

Vergi Məcəlləsinin 65.1-ci və 65.2.1-ci maddələrinə əsasən, vergi borcları bildirişdə göstərilən müddətdə ödənilmədikdə vergi orqanları tərəfindən vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcların vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə alınması üçün kredit və ya bank əməliyyatları aparan şəxsə icra (ödəniş) sənədi olan sərəncamlar verilir. Borclu vergi ödəyicilərinin bank hesablarına sərəncamların qoyulması nəticəsində 2013-cü ildə 22,4 milyon manat, cari ilin ötən dövrü ərzində isə 27,1 milyon manat məbləğində borcun dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

## Əmlakın siyahıya alınması

VM-in 89.1-ci maddəsinə əsasən, vergi ödəyicisi vergi öhdəliyini yerinə yetirmədikdə yaranmış vergi borclarının, habelə həmin öhdəliyin yerinə yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq olunmuş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi onun əmlakı siyahıya alınır. Məcəllənin 89.4-cü maddəsinə görə, vergi ödəyicisi olan hüquqi şəxsin bütün əmlakı, vergi ödəyicisi olan fiziki şəxsin isə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tələb yönəldilə bilməyən əmlakından başqa digər əmlakı siyahıya alınır. Vergi ödəyicilərinin dövlət büdcəsinə yaranmış borclarının ödənilməsinin təmin edilməsi məqsədilə 2014-cü ilin 10 ayı ərzində vergi orqanları tərəfindən əmlakın siyahıya alınması barədə 67.404 sayda qərar açılmış, bu qərarlardan 72,6%-i vergi borcu ləğv edildiyi üçün bağlanılmış, siyahıya alınmış əmlakların ixtisaslaşdırılmış açıq hərraclarda satılması məqsədilə məhkəmələrə verilmiş iddia ərizələri üzrə 1 milyon 478,7 min manat borc məbləğini əhatə edən 693 məhkəmə qətnaməsi qəbul olunmuşdur. Ümumilikdə, əmlakın siyahıya alınması barədə açılmış qərarlar üzrə 52,3 milyon manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, Cinayət Məcəlləsinin 303.1-ci maddəsinə əsasən siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş əmlakın etibar olunmuş şəxs tərəfindən israf edilməsi, özgəninkiləşdirilməsi, gizlədilməsi, həmçinin dəyişdirilməsinə görə həmin şəxslər cinayət məsuliyyəti daşıyırlar.

Siyahıya alınan əmlak müəyyən edilərkən avtonəqliyyat vasitələrinə xüsusi diqqət yetirilir. VM-in 23.1.15-1-ci və 23.1.16-cı maddələrinə əsasən, avtonəqliyyat vasitələrinin cərimə meydançalarına yerləşdirilməklə üzərlərinə həbs qoyulması və borc məbləğinin həmin avtonəqliyyat vasitələrinə yönəldilməsi məqsədilə aidiyyəti məhkəmə orqanlarına müraciətlər edilir. Cari il ərzində vergi ödəyicilərinin borclarının onların mülkiyyətində olan avtonəqliyyat vasitələrinə yönəldilməsi nəticəsində 11.589 vergi ödəyicisinin 12 milyon manatdan çox borcunun dövlət büdcəsinə alınması təmin edilmiş, 501 vergi ödəyicisi tərəfindən avtonəqliyyat vasitələri siyahıya alınmaya təqdim edilmədiyi üçün üzərlərinə həbs qoyulmaqla onların cərimə meydançalarında yerləşdirilməsi məqsədilə məhkəmələr tərəfindən müvafiq qərarlar qəbul olunmuşdur.

## Operativ vergi nəzarəti

VM-in 23.1.3-cü və 50-1-ci maddələrinə əsasən, istehsal həcminin və ya satış dövriyyəsinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi məqsədi ilə vergi ödəyicilərinin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin saxlanılması ilə bağlı olan istehsal, anbar, ticarət və digər binalarında (ərazilərində) operativ vergi nəzarəti növü olan xronometraj metodu ilə müşahidə aparılır. Məcəllənin 50.1-ci və 50.2.3-cü maddələrinə əsasən isə vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılması barədə vergi orqanlarının tələblərini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin gəlir götürmək üçün istifadə etdikləri, yaxud vergi tutulan obyektlərin və ya əmtəə-material ehtiyatlarının saxlanılması məqsədilə anbar, ticarət və bu qəbildən olan digər binalarında (ərazilərində) (yaşayış binaları (sahələri) istisna olmaqla), nəqliyyat vasitələrində (sahibkarlıq fəaliyyəti üçün istifadə edilməyən şəxsi nəqliyyat vasitələri istisna olmaqla) vergi öhdəliklərinin təmini üsulu kimi operativ vergi nəzarəti həyata keçirilir.

Borclu vergi ödəyicilərində vergi borclarının alınması strukturları tərəfindən son 10 ay ərzində xronometraj metodu ilə keçirilmiş müşahidələr nəticəsində həmin vergi ödəyicilərinin vergi tutulan dövriyyələrinin az göstərilməsi və dolayısı ilə vergilərin az bəyan edildiyi aşkar olunaraq müvafiq tədbirlər görülmüş, nəticədə onların vergi tutulan dövriyyələri 1,8 dəfə artırılmışdır.

## Borc məbləğinin məhkəmə qərarı ilə məcburi qaydada alınması

Vergi Məcəlləsinin 23.1.15-1-ci və 23.1.16-cı maddələrinə əsasən, borc məbləğinin vergi ödəyicisindən məcburi qaydada alınması məqsədi ilə aidiyyəti məhkəmə orqanlarına müraciətlər edilir.

Cari ilin 10 ayı ərzində vergi orqanları tərəfindən 154.040,6 min manat məbləğində vergi borcu olan 5785 vergi ödəyicisi üzrə məhkəmələrə edilmiş müraciətlər əsasında 128.922,5 min manat məbləğində vergi borcu olan 4785 vergi ödəyicisi barəsində iddialar təmin edilmiş, 208 vergi ödəyicisi üzrə isə 809,9 min manat məbləğində vergi borcu ödənildiyi üçün borcun ödənilməsinə dair qərardadlar qəbul olunmuşdur.

## Borclu fiziki şəxslər inzibati qaydada həbs oluna bilər

Vergi Məcəlləsinin 23.1.16-cı maddəsinə əsasən, borclu fiziki şəxslərə inzibati həbs tətbiq olunması üçün məhkəmələrə təqdimat verilməsi məqsədi ilə müvafiq icra məmurlarına müraciətlər edilir. İnzibati Xətalar Məcəlləsinin 313-1.1-ci maddəsində isə göstərilir ki, məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə və ya icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədinin üzrsüz səbəbdən icra edilməməsinə görə fiziki şəxslərə işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

## Borclu vergi ödəyiciləri cinayət məsuliyyətinə cəlb oluna bilər

VM-in 23.1.12-ci maddəsinə və «Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə»nin 11.16-cı bəndinə əsasən, cinayət tərkibi yaradan vergi borcu materialları ibtidai istintaq qaydasında araşdırılması məqsədi ilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilir.

Cinayət Məcəlləsinin 213-cü maddəsinə əsasən, xeyli miqdarda (iki min manatdan əlli min manatadək olan məbləğ) və ya külli miqdarda (əlli min manatdan yuxarı olan məbləğ) vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma cinayət əməli hesab edilir. Bununla əlaqədar xeyli və ya külli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırdığına görə cari il ərzində 690 vergi ödəyicisi üzrə 28,9 milyon manat borc məbləğini əhatə edən materiallar ibtidai istintaq qaydasında araşdırılması məqsədilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmişdir.

## Əsas məqsəd yayındırılmış vergilərin dövlət büdcəsinə ödənilməsidir

Vergilər Nazirliyinin əsas məqsədi vergidən yayınan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi deyil, yayındırılmış vergi məbləğlərinin dövlət büdcəsinə ödətdirilməsidir. Məsələn, 3,2 milyon manat məbləğində vergilərin dövlət büdcəsinə ödəməkdən yayındırılmasına görə «Azərinşaatservis» MMC-nin rəhbəri və baş mühasibi barəsində cinayət işi açılmış, yayındırılmış vergi məbləği tamamilə ödənildiyindən və həmin şəxslər cinayət əməlini ilk dəfə törətdiklərindən başlanılmış cinayət işinə xitam verilmişdir.

Cari ilin 10 ayı ərzində 145 iş üzrə 1 milyon 411,6 min manat məbləğində yayındırılmış vergi məbləği dövlət büdcəsinə ödənildiyi üçün həmin şəxslər barəsində cinayət işi başlanılmamış və ya başlanılmış cinayət işlərinə xitam verilmişdir.

Yayındırılmış vergi məbləğlərini ödəməyən vergi ödəyiciləri barəsində isə qanunvericilikdə nəzərdə tutulan daha sərt tədbirlər görülür. Məsələn, «Kənan-P» MMC-nin fəaliyyətinə faktiki rəhbərlik edən Elqan Hikmət oğlu Vəliyev 1,05 milyon manat məbləğində əlavə dəyər vergisini dövlət büdcəsinə ödəməkdən yayındığına görə barəsində açılmış cinayət işi üzrə təqsirli bilinərək məhkəmənin hökmü ilə 4 il müddətinə azadlıqdan məhrum edilmişdir. Qeyd edilməlidir ki, şəxsin məhkum olunması heç də onu vergi öhdəliyinin yerinə yetirilməsindən azad etmir. Belə ki, həmin şəxs cəzasını çəkib qurtardıqdan sonra yayındırdığı vergiləri ödəməlidir və 30 il ərzində borc ondan tələb ediləcəkdir.

## Borc məbləğinin nizamnamə kapitalındakı paya yönəldilməsi

VM-in 23.1.15-1-ci və 23.1.16-cı maddələrinə əsasən, borclu vergi ödəyicisinin vergi borclarının ödənilməsinin təmini üsulu kimi siyahıya alınmalı əmlakı olmadıqda və ya kifayət qədər əmlakı olmadıqda, habelə əmlakın satışından daxil olan pul vəsaiti vergilər, faizlər və maliyyə sanksiyaları üzrə dövlət büdcəsinə yaranmış borcların ödənilməsi üçün kifayət etmədikdə və ya əmlak qanunvericilikdə nəzərdə tutulmuş qaydada hərracda satılmadıqda borclu vergi ödəyicilərinin digər əmlaklarının müəyyən edilməsi üçün həmin şəxslərin məhdud məsuliyyətli cəmiyyətdə, ortaqlıqda və ya kooperativdə təsisçi olub-olmamaları araşdırılır.

Təsisçi olduqları təqdirdə, borc məbləğinin onun həmin hüquqi şəxsin nizamnamə kapitalındakı payına uyğun hissəsinə yönəldilməsi məqsədilə ilk olaraq hüquqi şəxslərə, bu nəticə vermədikdə isə aidiyyəti üzrə məhkəmə orqanlarına müraciətlər edilir. Qanunvericiliyə əsasən, hüquqi şəxsin təsisçisi borclarını ödəyə bilmədikdə həmin borc onun təsisçisi olduğu hüquqi şəxsdən tələb oluna bilər. Hüquqi şəxslərdə təsisçi (payçı) kimi çıxış edən borclu vergi ödəyicilərinin borclarının həmin hüquqi şəxslərdəki paylarından tutulması məqsədilə həyata keçirilmiş müvafiq tədbirlər nəticəsində son 10 ay ərzində 1107 vergi ödəyicisi üzrə 952,7 min manat məbləğində borcun dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

## Borc məbləğinin əməkhaqqına yönəldilməsi

VM-in 23.1.15-1-ci və 23.1.16-cı maddələrinə əsasən, borclu fiziki şəxs hər hansı bir yerdə muzdlu işçi kimi çalışdıqda, borc məbləğinin onun muzdlu işlə əlaqədar gəlirlərinə yönəldilməsi məqsədilə aidiyyəti məhkəmə orqanlarına müraciətlər edilə bilər. Bununla əlaqədar olaraq, dövlət büdcəsi qarşısında borcları olan fərdi sahibkarların muzdlu işlə əlaqədar gəlirlərinin olub-olmamasının dəqiqləşdirilməsi üçün həmin şəxslərin rəsmi iş yerləri barədə məlumatların alınması məqsədilə Dövlət Sosial Müdafiə Fonduna müraciət edilir.

Nəticələr Vergilər Nazirliyi tərəfindən təhlil olunaraq qanunauyğun tədbirlərin görülməsi məqsədilə müvafiq yerli vergi orqanlarına təqdim edilir.

## Tələbin icraya yönəldilməsi

VM-in 23.1.16-cı maddəsinə əsasən, borc məbləğinin tələbin icraya yönəldilməsi qaydasında tutulması məqsədilə icra məmurlarına müraciətlər edilir.

Qanunvericiliyə görə, pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktların məcburi qaydada icrası məhkəmə icraçıları tərəfindən həyata keçirilir. İnzibati aktı qəbul etmiş inzibati orqan tələbin icraya yönəldilməsi haqqında qərar qəbul edir. Bu halda tələbin icraya yönəldilməsi üçün məhkəmə qərarının qəbul edilməsi tələb olunmur. Vergi orqanları tərəfindən cari ilin 10 ayı ərzində 2.261,5 min manat məbləğində vergi borcu olan 2785 vergi ödəyicisi haqqında tələbin icraya yönəldilməsi barədə müvafiq qərarlar qəbul edilmişdir ki, həmin ödəyicilərdən 1169-u və ya 42%-i artıq borclarını ödəmişlər.

## Borclu fiziki şəxslərin ölkədən getmək hüquqları məhdudlaşdırılır

VM-in 23.1.16-cı maddəsinə əsasən, borclu fiziki şəxslərin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması məqsədilə müvafiq icra məmurlarına müraciətlər edilir. «İcra haqqında» Qanunun 84-1.1-ci maddəsində isə göstərilir ki, məhkəmə qərarları əsasında verilmiş icra sənədləri könüllü icra üçün müəyyən olunmuş vaxtda borclu tərəfindən üzrsüz səbəbdən icra edilmədikdə, borclunun ölkədən getmək hüququ icra məmurunun əsaslandırılmış təqdimatı əsasında məhkəmənin qərarı ilə müvəqqəti məhdudlaşdırıla bilər. Borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə icra məmuru tərəfindən dərhal borclunun özünə, tələbkara və müvafiq icra hakimiyyəti orqanına məlumat verilir.

Vergi orqanları tərəfindən cari ilin 10 ayı ərzində borclu fiziki şəxslərin ölkədən getmək hüququnun məhdudlaşdırılması ilə əlaqədar icra məmurlarına edilmiş müraciətlər üzrə onların verdikləri təqdimatlar əsasında məhkəmələr 39 vergi ödəyicisinin ölkədən getmək hüququnun məhdudlaşdırılması barədə qərarlar qəbul etmişdir. Həmin şəxslərdən 6 nəfəri dövlət büdcəsinə olan borclarını tam həcmdə ödədiklərinə görə, onlara tətbiq olunmuş məhdudiyyətlər ləğv edilmişdir. Ölkədən getmək hüququ məhdudlaşdırılmış vergi ödəyicilərinin siyahısı Vergilər Nazirliyinin rəsmi internet saytında da yerləşdirilir.

## Hər bir borclu vergi ödəyicisinə fərdi yanaşılır

Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsi tərəfindən borclu vergi ödəyiciləri barədə məlumat bazası yaradılmış və həmin vergi ödəyiciləri müvafiq meyarlar nəzərə alınmaqla risk qrupları üzrə təsnifləşdirilmişdir. Borclu vergi ödəyiciləri barədə məlumat bazasının yaradılması vergi borcunun ödənilməsi istiqamətində daha tez nəticə verə biləcək metodların seçilməsinə, borclu vergi ödəyicilərinin müvafiq risk qruplarına ayrılması isə həmin ödəyicilər üzrə görülmüş və görüləcək işlərə nəzarətin daha səmərəli şəkildə həyata keçirilməsinə kömək edir. Məlumatlar Vergilər Nazirliyi tərəfindən hər ay yenilənərək yerli vergi orqanlarına təqdim edilir və onlara borcların dövlət büdcəsinə alınması ilə bağlı lazımi əməli köməklik göstərilir.

## Vergi borclarının alınması sahəsində beynəlxalq təcrübə

Məlum olduğu kimi, Vergilər Nazirliyi Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və digər nüfuzlu beynəlxalq qurumlarla sıx əməkdaşlıq edir. Vergi sahəsində keçirilən beynəlxalq tədbirlər zamanı təşkil olunan təcrübə mübadiləsi də vergi borclarının idarə olunmasında böyük rol oynayır. 2012-ci ildə IOTA-nın «Vergi borclarının idarə edilməsi» üzrə işçi qrupunun iclası Bakıda keçirilmişdir. Həmin iclas zamanı bir çox qabaqcıl ölkələrin vergi ödəyicisinin əmlakı olmadıqda vergi borcunun alınması mexanizmləri, borcların alınması məqsədi ilə icra məmurları ilə qarşılıqlı fəaliyyətin təşkili, borcların alınması üçün yeni mənbələrin müəyyən olunması sahəsində təcrübələri öyrənilərək təhlil edilmişdir.

Respublikamızda mövcud qanunvericiliyə müvafiq olaraq siyahıya alınmış əmlakın satılması yalnız məhkəmə qərarı ilə həyata keçirilir. Beynəlxalq təcrübədə isə bu proses bir qədər fərqlidir. Məsələn, ABŞ-da vergilər vaxtında ödənilməzsə, Daxili Gəlirlər Xidməti tərəfindən vergi ödəyicisinin əmlakı müsadirə olunur və hərraclar vasitəsilə satılır. Hərracların (onlayn və ya adi) keçirilməsi haqqında məlumatlar ictimaiyyətə rəsmi internet səhifələri ilə yanaşı, avtomatik SMS və elektron ünvanlara məlumatların göndərilməsi yolu ilə çatdırılır.

Türkiyə Respublikasında vergi orqanı öz qərarı ilə vergi ödəyicisinin əmlakı üzərinə həbs qoyur. Həmin əmlakın satılması ilə bağlı bütün işləri də vergi orqanlarının əməkdaşları həyata keçirirlər. Böyük Britaniyada Gəlirlər və Gömrük Administrasiyası borclu vergi ödəyicilərinin əmlaklarını müsadirə etmək, satışını onlayn və adi formatda təşkil etmək hüququna malikdir. Əmlakı siyahıya alınmış vergi ödəyicisi bir ay ərzində siyahıya alınmanın qanunsuz olduğuna dair məhkəməyə müraciət etməklə, siyahıya alınmanın qanunauyğunluğunu məhkəmə qaydasında mübahisələndirə bilər. Əgər vergi ödəyicisi 1 ay ərzində iddia ərizəsi ilə məhkəməyə müraciət etmirsə, siyahıya alınmış əmlaka sahiblik hüququ vergi administrasiyasına keçir.

Macarıstanda müsadirə edilmiş əmlakların satışı Milli Vergi və Gömrük Administrasiyası tərəfindən onlayn və ya adi formada həyata keçirilir. Çex Respublikasında əmlakın satışı Vergi Məcəlləsinin 194-cü maddəsi ilə tənzimlənir. Bu maddəyə əsasən, daşınar və daşınmaz əmlakın satışı vergi orqanı tərəfindən həyata keçirilir. Bolqarıstanda 2010-cu ilin yanvar ayından etibarən Milli Vergi Agentliyi borclu vergi ödəyicilərinin əmlaklarının siyahıya alınmasını və hərraclar vasitəsilə satışını həyata keçirir. 2012-ci ilin yanvar ayından isə vergidən yayınan ödəyicilərin müsadirə edilmiş əmlakları vergi orqanının yaratdığı onlayn mağaza vasitəsilə satışa çıxarılır, mallar onlayn hərraclar vasitəsilə satılır. Keçirilmiş hərracda mallar satılmadıqda növbəti hərracda malın qiyməti 10% aşağı salınır.

Ümumiyyətlə, beynəlxalq təcrübədə vergi borclarının alınması istiqamətində son illər daha sərt tədbirlərin görülməsinə üstünlük verilir.

Azərbaycan Respublikasının Vergilər Nazirliyi isə vergi borclarının alınmasında ilkin mərhələdə maarifləndirmə və izahat işləri aparılmaqla borcların dövlət büdcəsinə alınmasını təmin etməyə çalışır, bu tədbirlər nəticə vermədikdə, qanunvericilikdə nəzərdə tutulmuş inzibati tədbirləri tətbiq etməklə borcların alınmasını təmin edir.

*«Respublika» qəzeti, 27.11.2014*

# «Azərbaycanın vergi sistemi: 15 ilin uğurları və yeni çağırışların astanasında»

*Yanvarın 22-də Beynəlxalq Mətbuat Mərkəzində «Vergilər» qəzetinin təşkilatçılığı ilə «Azərbaycanın vergi sistemi: 15 ilin uğurları və yeni çağırışların astanasında» mövzusunda «dəyirmi masa» keçirilib. Tədbirdə Milli Məclisin deputatları Xanhüseyn Kazımlı və Çingiz Qənizadə, vergilər nazirinin vergi siyasəti məsələləri üzrə müşaviri Akif Musayev, Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsi müdirinin müavini Fikrət Şirinov, İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin sektor müdiri Mehdi Həsənov, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının baş məsləhətçisi Çingiz Hüseynov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək siyasəti şöbəsinin baş məsləhətçisi Bəxtiyar Məmmədov, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin şöbə müdiri İlqar Abdullayev, Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Murtuzəli Hacıyev, eləcə də KİV nümayəndələri iştirak etmişlər.*



«Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev müstəqil Azərbaycanın müasir inkişaf mərhələsinə çatmasında ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi strategiyanın əhəmiyyətini vurğulayaraq bildirmişdir ki, ümummilli lider tərəfindən Azərbaycanın uğurlu iqtisadi siyasətinin mühüm tərkib hissəsi olan müasir, təkmil və dayanıqlı vergi sistemi formalaşmış, nəticədə ölkəmizin güclü vergi inzibatçılığı yaradılmışdır: «Dövlət müstəqilliyinin ilk illərində qəbul olunmuş və vergitutmanın müxtəlif sahələrini tənzimləyən ayrı-ayrı normativ sənədlərin pərakəndə şəkildə olması həm dövlət vergi orqanları, həm də vergi ödəyiciləri üçün müəyyən çətinliklər və anlaşılmazlıqlar yaradırdı. Ölkəmizin beynəlxalq iqtisadi proseslərə inteqrasiyasında daha fəal iştirakını təmin etmək üçün dünya standartlarına cavab verən vergi qanunvericiliyinin yaradılması olduqca zəruri idi. Bununla əlaqədar respublikamızda vergitutmanı tənzimləyən vahid normativ sənədin - Azərbaycan Respublikası Vergi Məcəlləsinin qəbul edilməsi tarixi zərurət kimi meydana çıxmışdı. Beynəlxalq maliyyə qurumlarının, yerli və xarici iş adamlarının və mütəxəssislərin fikir və tövsiyələri nəzərə alınmaqla, Vergi Məcəlləsi layihəsinin hazırlanması prosesində onun ayrı-ayrı hissələri ulu öndər Heydər Əliyevin yanında keçirilən müşavirələrdə dəfələrlə müzakirə edilmiş, vergitutmanın sadələşdirilməsi, onun bazasının genişləndirilməsi, vergi yükünün azaldılması və s. barədə ümummilli liderin dəyərli tövsiyələri bu işin uğurla başa çatdırılmasına şərait yaratmışdır.

Sənəd Milli Məclisdə geniş müzakirə olunaraq 2000-ci ilin iyul ayında qəbul edilmiş və 2001-ci il yanvarın 1-dən qüvvəyə minmişdir.

Bu prosesin davamı olaraq, 2000-ci il fevralın 11-də ölkədə aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı - Vergilər Nazirliyi yaradıldı. Yeni struktur sistemlilik, operativlik, koordinasiya və güclü təşkilati-idarəetmə mexanizmi kimi müsbət keyfiyyətləri özündə birləşdirdi».

Bildirilmişdir ki, ümummilli liderin müəyyənləşdirdiyi iqtisadi siyasətin onun layiqli davamçısı möhtərəm Prezident İlham Əliyev tərəfindən ardıcıl və inamla davam etdirilməsi vergi sistemində islahatların yeni mərhələyə daxil olmasına, büdcə daxilolmalarında vergilərin rolunun əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Xüsusilə də son illərdə qeyri-neft sektoru üzrə vergi daxilolmaları hissolunacaq dərəcədə artmaqdadır: «Milli vergi sistemi son 15 ildə cənab Prezident İlham Əliyevin rəhbərliyi altında əsaslı modernizasiya prosesindən keçmiş, müasir texnoloji baza qurulmuşdur. Çevik texnologiyalara əsaslanan vergi xidmətlərinin elektronlaşdırılması istiqamətində işlər bu gün də davam etdirilməkdədir.

Ölkəmizdə həyata keçirilən uğurlu vergi siyasəti biznes mühitinin yaxşılaşmasına, qeyri-neft sektorunun inkişafının təmin edilməsinə, büdcə gəlirlərinin həcminin artırılmasına töhfə verməkdədir».

---

## Son 15 ildə dövlət büdcəsinə vergi daxilolmaları 14 dəfə, qeyri-neft sektoru üzrə 15 dəfə artıb



***Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin müdir müavini Fikrət Şirinov*** makroiqtisadi sahədə müvəffəqiyyətlərin təmin edilməsinin əsas amillərindən biri kimi büdcə-vergi siyasətinin ugurla həyata keçirilməsini qeyd etmişdir: «Azərbaycan Respublikasının büdcə-vergi siyasəti ölkənin iqtisadi siyasətinin tərkib hissəsi olmaqla makroiqtisadi göstəricilərin sabit artımına, qeyri-neft sektorunun dayanıqlı inkişafına, sosial siyasətin davam etdirilməsinə, əhalinin rifahının və yaşayış səviyyəsinin yüksəldilməsinə, iqtisadiyyatın prioritet sahələrinin modernləşməsinə və şaxələndirilməsinə, investisiya mühitinin daha da yaxşılaşdırılmasına, maliyyə intizamının gücləndirilməsinə nail olmağa yönəldilmişdir. Bunun nəticəsi olaraq, son 15 il ərzində vergi orqanlarının xətti ilə dövlət büdcəsinə vergi daxilolmaları 2014-cü ildə 2000-ci illə müqayisədə 14 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 15 dəfə artmışdır».

Maliyyə Nazirliyinin rəsmisi çıxışında onu da qeyd etmişdir ki, ölkədə aparılan vergi siyasətinin əsas istiqamətlərindən biri də vergi yükünün azaldılması olmuşdur: «Son 15 il ərzində mənfəət, əlavə dəyər və fiziki şəxslərdən gəlir vergisinin dərəcələri yalnız azalma istiqamətində dəyişmişdir. Lakin vergi yükünün azaldılması aparılan digər məqsədyönlü tədbirlərlə yanaşı, ölkə iqtisadiyyatının bütün sahələrində dinamik artım templərinə rəvac vermiş və büdcə daxilolmalarının artmasına şərait yaratmışdır. Ayrı-ayrı vergi daxilolmalarının strukturuna nəzər saldıqda əlavə dəyər vergisinin vergi daxilolmalarında xüsusi çəkisi 22,4%-dən 28,7%-dək, hüquqi şəxslərin mənfəət vergisi 24,6%-dən 31,9%-dək artmışdır ki, bu da nəzərdə tutulmuş tədbirlərin, həmçinin sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi və əlverişli investisiya mühitinin yaradılması işlərinin davam etdirilməsi nəticəsində mümkün olmuşdur».

Çıxışda son 15 ildə həyata keçirilmiş mühüm qərarlardan biri kimi Azərbaycanda ilk dəfə ƏDV inzibatçılığı prosesində 2008-ci ildə vergi daxilolmalarına nəzarətə imkan verən ƏDV depozit hesablarının tətbiqinə başlanılması qeyd edilmişdir: «Vergi Məcəlləsinə edilmiş dəyişikliyə uyğun olaraq, əlavə dəyər vergisinin 2008-ci ildən xəzinədəki depozit hesabları vasitəsilə ödənilməsi ilk növbədə dövlət tərəfindən ƏDV-nin ödənilməsinə nəzarətin daha da təkmilləşdirilməsinə və vergidən yayınma hallarının qarşısının alınmasına xidmət edir. Bundan başqa, ƏDV-nin depozit hesabı vasitəsilə ödənilməsi nağdsız hesablaşmaların aparılmasını nəzərdə tutur ki, bu da nağd qaydada aparılan hesablaşmaların məhdudlaşmasına şərait yaradır. ƏDV depozit hesablarının tətbiqi nəticəsində dövlət büdcəsinə bu tədiyyə növü üzrə daxilolmalar 2008-ci illə müqayisədə 3,2 dəfədən çox artmışdır».

F.Şirinov vergi daxilolmalarının düzgün qiymətləndirilməsində vergi orqanlarının səmərəli iştirakını xüsusi olaraq qeyd etmiş, bu məqsədlə Maliyyə Nazirliyi tərəfindən dövlət gəlirlərinin proqnozlaşdırılması prosesinin beynəlxalq standartlara uyğun modellər əsasında həyata keçirilməsi üçün «Dövlət gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası»nın hazırlandığını və tətbiqinə başlanıldığını bildirmişdir: «Ümumiyyətlə, ekonometrik modellər iqtisadiyyatda baş verən dəyişikliklər nəticəsində vergi gəlirlərini dəqiq əmsallar vasitəsilə hesablamaqla yanaşı, vergi və iqtisadi dəyişənlər arasında münasibətlərin, habelə vergi siyasəti dəyişikliklərində səmərəliliyin qiymətləndirilməsi imkanını vermişdir. Ölkə iqtisadiyyatı dünyada xam neftin qiymətlərinin dəyişməsinə həssas olduğundan, model xam neftin qiymətlərində olan dəyişikliyin qeyri-neft sektoru üzrə vergi daxilolmalarına təsirini də müəyyən edir. Növbəti illərdə nazirlik tərəfindən bu modelin daha da təkmilləşdirilməsi nəzərdə tutulur».

Bildirilmişdir ki, hazırda xəzinə əməliyyatları real vaxt rejimində həyata keçirilir ki, bu da dövlət büdcəsinin icrasının təxminən 90%-ni təşkil edir. 2011-ci ilin iyul ayından başlayaraq vergi daxilolmalarının avtomatik emalı məqsədilə Mərkəzi Bankın Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi Xəzinədarlığın İnformasiyanın İdarə Edilməsi Sisteminə inteqrasiya olunmuşdur.

F.Şirinovun sözlərinə görə, həyata keçirilən büdcə-vergi siyasətinin başlıca istiqamətləri növbəti illərdə də dövlət büdcəsinin qeyri-neft gəlirlərinin qeyri-neft ÜDM-də xüsusi çəkisinin yüksəldilməsi, vergi daxilolmalarının yığım əmsalının artırılması, vergi borclarının ləğv edilməsi və vergidən yayınmaların qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi, ölkənin şəhər və rayonları üzrə yerli gəlir və xərclərin tarazlaşdırılması sahəsində işlərin davam etdirilməsini əhatə edəcək. Bununla yanaşı, vergi yükünün optimal səviyyədə saxlanılması və vergi sisteminin liberallaşdırılması istiqamətində siyasətin aparılması ilə bağlı Maliyyə Nazirliyi Vergilər Nazirliyi ilə birlikdə fəaliyyətini genişləndirəcəkdir».

---

## Vergilər Nazirliyi təqdim etdiyi e-xidmətlərin sayına görə birincidir



***Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin şöbə müdiri İlqar Abdullayevin*** sözlərinə görə, son illər ölkəmizdə «Elektron hökumət» quruculuğu, elektron xidmətlərin təşkili və göstərilməsi sahəsindəki mühüm nəticələr əldə olunub və artıq bu inkişaf beynəlxalq miqyasda da nəzərəçarpacaq dərəcədə maraq doğurmaqdadır. BMT-nin ənənəvi olaraq iki ildən bir nəşr etdiyi «Elektron hökumət - arzuladığınız gələcək naminə - 2014» adlı hesabatın son nəşrində Azərbaycanın 193 ölkə arasında «Elektron hökumətin inkişafı indeksi» üzrə əvvəlki mövqeyini 28 pillə artıraraq 96-cı yerdən 68-ci yerə yüksəlişi bunun bariz sübutudur: «Bu gün ölkəmizdə ənənəvi idarə üsulları ilə müqayisədə daha təkmil və son texnologiyalara əsaslanan «Elektron hökumət» modeli formalaşmaqdadır. 2012-ci ilin aprel ayında istifadəyə verildiyi zaman «Elektron hökumət» portalına cəmi 16 dövlət qurumu qoşulmuşdu və onlardan biri Vergilər Nazirliyi idi. Hazırda Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən Vergilər Nazirliyi üzrə təsdiq edilmiş 60 e-xidmətdən 59-u portalda yerləşdirilərək vətəndaşların, fiziki və hüquqi şəxslərin istifadəsinə verilmişdir. Vergilər Nazirliyi təqdim etdiyi e-xidmətlərin sayına görə birinci yerdədir. Dövlət qurumlarının öz məlumatlarını portala inteqrasiya etmələri və portal üzərindən informasiya mübadiləsinin aparılması e-xidmətlərin təşkilində və tam şəkildə elektronlaşdırılmasında mühüm şərtdir. Vergilər Nazirliyi bu istiqamətdə də örnək olmuşdur və nazirliyin hazırladığı bir veb-servis portal üzərindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ötürülür.

Vergilər Nazirliyi tərəfindən «ASAN imza» verilməsi e-imzanın tətbiqinin genişlənməsində, elektron sənəd dövriyyəsinin inkişafında mühüm rol oynayır. E-imza sertifikatları portala daxil olmaq üçün autentifikasiya vasitəsi olmaqla bərabər, sənədlərin imzalanmasında, bir çox e-xidmətlərdən istifadədə və ümumiyyətlə, elektron sənəd dövriyyəsində əvəzolunmaz vasitədir. MHM-də elektron imzanın tətbiqi məqsədilə «açıq açar infrastrukturu» yaradılmışdır. Elektron imza sertifikatlarını təmin edən Milli Sertifikat Xidmətləri Mərkəzi fəaliyyət göstərir və hazırda bu mərkəz tərəfindən vətəndaşlara, dövlət qurumlarına, yerli icra hakimiyyəti orqanlarına, biznes strukturlarında işləyən hüquqi və fiziki şəxslərə elektron sənədi təsdiq edən e-imza kartları təqdim olunur.

---

## Səmərəli əməkdaşlıq sahibkarlarda məmnunluq yaradır



***Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının baş məsləhətçisi Faiq Səmədov*** bildirmişdir ki, aparılan iqtisadi islahatlar, qanunvericilik bazasının təkmilləşdirilməsi, bazar iqtisadiyyatı prinsiplərinə cavab verən yeni iqtisadi siyasətin həyata keçirilməsi Azərbaycanı dünya miqyasında davamlı inkişaf edən ölkəyə çevirmiş, azad sahibkarlıq mühitinin formalaşması və bu sahəyə lazımi dəstək verilməsi sahibkarlığın inkişafına güclü təkan vermiş, ölkənin ümumi daxili məhsulunda özəl sektorun payı 80%-dən çox olmuşdur.

Qeyd edilmişdir ki, konfederasiya ilə Vergilər Nazirliyi arasında artıq bir neçə ildir ki, bağlanan əməkdaşlıq müqaviləsi çərçivəsində sahibkarlarla vergi orqanları arasında münasibətlərin inkişafına xidmət edən ciddi işlər görülmüşdür: «Əməkdaşlıq müqaviləsinin tələblərinə uyğun olaraq, ölkədə mövcud vergi xidməti mərkəzlərinin 32-də ASK-nın ştatlı işçiləri tərəfindən sahibkarlara uğurlu xidmət göstərilir. Həmin xidmət mərkəzlərinin 5-i Bakı şəhərində, 27-si isə regionlardadır. Vergi xidməti mərkəzlərində sahibkarlara vergi bəyannamələrinin, hesabatlarının elektron qaydada göndərilməsi, «elektron imza», onun kodunun, şifrə və parolunun əldə edilməsi, dəyişdirilməsi və s. bu kimi müraciətləri əsasında xidmətlər göstərilir. Bütün bu işləri, sözsüz ki, sahibkarlar məmnunluqla qarşılayırlar».

F.Səmədov son illərdə dövlət tərəfindən sahibkarlığın uğurla inkişaf etdirilməsi və sahibkarların fəaliyyəti üçün əlverişli biznes mühitinin yaradılması ilə əlaqədar bir çox işlər görüldüyünü və hazırda da ardıcıl şəkildə davam etdirildiyini və bu baxımdan, «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Qanunun əsassız yoxlamaların və müdaxilələrin aradan qaldırılması və bu sahədə lazımi qayda yaradılması üçün tutarlı bir sənəd olduğunu bildirmişdir: «ASK vergi-hüquq münasibətlərinə dair yeni qanunvericilik sənədlərinin, normativ-hüquqi aktların, mövcud vergi qanunvericiliyinə ediləcək dəyişikliklər və əlavələr barədə layihələrin müzakirələrində də yaxından iştirak edir. ASK nəzdindəki 14 daimi komissiyadan biri olan «Maliyyə institutları ilə iş» üzrə daimi komissiya tərəfindən bu yaxınlarda bank sahəsi üzrə Mülki Məcəllədə dəyişikliklər və əlavələrlə bağlı sahibkarlardan daxil olan təkliflərə baxılaraq araşdırmalar aparılmış, 50-dən artıq təklif baxılması üçün aidiyyəti orqanlara göndərilmişdir».

Çıxışının sonunda F.Səmədov ASK ilə Verğilər Nazirliyi arasındakı qarşılıqlı əməkdaşlığın bundan sonra da ölkəmizdə sahibkarlığın inkişaf etdirilməsi naminə uğurla davam etdiriləcəyinə inandığını bildirmişdir.

# «Azərbaycanın vergi sistemi: 15 ilin uğurları və yeni çağırışların astanasında»

## Vergilər Nazirliyi yeniliklərə açıq olan dövlət qurumudur



***Milli Məclisin deputatı Xanhüseyn Kazımlı*** tədbirdə çıxış edərək bildirmişdir ki, Azərbaycanda vergi sistemi digər sahələrlə müqayisədə islahata meyilliliyinə, müasir çağırışlara vaxtında cavabvermə xüsusiyyətinə, strateji hədəflərinə çatmaq üçün çevik siyasətin tətbiq edilməsinə görə fərqlənir: «Ölkəmizin vergi sistemi ötən illər ərzində böyük inkişaf mərhələsindən keçib və onun strategiyasının müəyyən edilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider dövlət gəlirlərinin formalaşmasında aparıcı element olan vergilərin ümumi istehsal prosesinə, onun dinamikasına və strukturuna, həmçinin elmi-texniki tərəqqiyə təsir göstərən mühüm vasitə olduğunu yaxşı anlayırdı və bilirdi ki, Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş dövlətlərinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya etmək üçün düzgün vergi siyasətinin aparılması müstəsna əhəmiyyət kəsb edir. Bu səbəbdən də ulu öndərin xüsusi diqqət və qayğısı sayəsində iqtisadi siyasət konsepsiyasının ayrılmaz tərkib hissəsi olan vergi siyasətində və bazar iqtisadiyyatının inkişafının başlıca elementi olan vergi sistemində köklü dəyişikliklərin aparılmasına, vergi sisteminin müasir standartlar əsasında formalaşdırılmasına başlanıldı. Ulu öndərin uzaqgörən siyasəti və səyi nəticəsində əvvəllər dövlət xəzinəsinə gəlirlərin yığılması ilə məşğul olan fiskal orqan kimi fəaliyyət göstərən vergi xidmətinin funksiyaları genişləndirildi, vergi siyasəti isə biznes mühitini iqtisadi tənzimləmə və stimullaşdırma vasitəsi kimi tətbiq olunmağa başladı. Ölkənin vergi siyasətinin konseptual əsasları hazırlandı, vergi sistemində aparılacaq islahatların fəlsəfəsi, strategiyası və əsas istiqamətləri formalaşdırıldı. Dövlət büdcəsinin mədaxil hissəsinin formalaşmasında vergilərin rolunun artırılması üçün yeni vergi siyasəti həyata keçirildi».

Bildirilmişdir ki, vergi orqanları təkcə struktur baxımdan yenidən qurulmamış, həmçinin vergi xidmətində yeni iş proseslərinin tətbiq edilməsi, vergi ödəyiciləri ilə vergi xidməti əməkdaşları arasında münasibətlərin birbaşa təmas olmadan qurulması, vergi bəyannamələrinin poçtla qəbul edilməsi, bütün ödəmələrin banklar vasitəsilə həyata keçirilməsinə başlanması, vergi xidmətinin yaradılması bütövlükdə vergi inzibatçılığının əhəmiyyətli şəkildə yaxşılaşmasına şərait yaradıb.

Qeyd olunmuşdur ki, ölkədə iqtisadi proseslərin sağlamlaşdırılması sayəsində Azərbaycanın vergi sistemində qazanılan uğurların sayı ilbəil çoxalır, büdcə daxilolmalarında vergilərin rolu əhəmiyyətli dərəcədə artır. Xüsusilə də son illərdə qeyri-neft sektorundan vergi daxilolmalarında əsaslı artım müşahidə olunur: «Vergilər Nazirliyi son illər istər vergi ödəyiciləri üçün elektron xidmətlərin təşkilinə, istər kreativ yeniliklərin tətbiqinə, istərsə də müasir menecment prinsiplərinə əsaslanan idarəetmə üsuluna görə fərqlənən dövlət qurumlarından biridir. Bu gün Vergilər Nazirliyi həm də innovativ yeniliklərə açıq olan, müasir menecment prinsiplərindən çıxış edən dövlət orqanı kimi tanınır. Nazirliyin tətbiq etdiyi elektron xidmətlərin sayının genişlənməsi bu qurumun işinin çevikliyini təmin etməklə bərabər, şəffaflığın, hesabatlılığın artmasına, digər tərəfdən vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin, səmərəliliyinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olub. Azərbaycan hazırda Avropanın ən qabaqcıl vergi modellərini tətbiq edir. Ölkəmizdə elektron audit sisteminin tətbiqi istiqamətində mühüm addımlar atılıb».

## Əlverişli vergi mühiti ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayır



***Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Çingiz Qənizadə*** çıxışında bildirmişdir ki, uzun illər respublikamız keçmiş sovet dövlətinin tərkibində olduğundan özünün müstəqil vergi sistemi olmamış, buna görə də müstəqil maliyyə və onun tərkib hissəsi olan vergi siyasəti apara bilməmişdir: «Müstəqilliyimizi qazandıqdan sonra Azərbaycan bütün sahələrdə olduğu kimi, vergi sahəsində də müxtəlif islahatlar aparmaq zərurəti ilə üz-üzə qalmışdı. 1993-cü ilin iyun ayından ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsindən sonra yaranan sabitlik dövründə iqtisadi islahatların uğurla reallaşdırılması üçün şərait yarandı. Bunun nəticəsində iqtisadiyyatımızda artım tempinin yüksək göstəricilərə çatdırılması, sahibkarlığın, kiçik və orta biznesin təşəkkül tapması, regionların sosial-iqtisadi inkişafında real nəticələr əldə olundu. Ümummilli liderin siyasi kursuna əsaslanaraq Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasət ölkədə sosial-iqtisadi inkişafın və regional siyasətin gücləndirilməsi, sahibkarlığa dövlət qayğısının artırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması, inzibati idarəetmə strukturlarının təkmilləşdirilməsi və beynəlxalq standartlara çatdırılması kimi mühüm aspektləri əhatə etməklə dövlətçilik maraqlarına xidmət edən iqtisadi strategiyanın uğurla həyata keçirilməsinə zəmin yaradıb».

Ç.Qənizadə qeyd etmişdir ki, bu siyasətin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatında müşahidə olunan müsbət dəyişikliklər özünü təkcə bazar münasibətlərinin dərinləşməsində deyil, həm də işgüzar mühitin aktivləşməsi və dinamikləşməsində, sahibkarlıq subyektlərinin sayının günü-gündən artmasında göstərir.

Millət vəkilinin sözlərinə görə, 2000-ci ilin iyul ayında beynəlxalq maliyyə qurumlarının, yerli və xarici iş adamlarının və mütəxəssislərin fikir və tövsiyələri nəzərə alınmaqla Vergi Məcəlləsi layihəsinin hazırlanması prosesində vergitutmanın sadələşdirilməsi, onun bazasının təkmilləşdirilməsi, vergi yükünün azaldılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi və s. prinsiplər əsas götürüldü: «Azərbaycan vergi sisteminin formalaşma tarixinin iki mərhələdən ibarət olmuşdur. 1991-1992-ci illəri əhatə edən 1-ci mərhələdə, əsasən, gəlirlərə və xərclərə qoyulan vergilər haqqında bir çox normativ aktlar, qərarlar qəbul edilmişdir. 1993-2000-ci illəri əhatə edən ikinci mərhələdə isə bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq bir sıra yeni vergi növləri haqqında qanunlar qəbul edilmiş, onların normativ-hüquqi bazası yaradılmış, vergi qanunvericiliyinin tətbiqi ilə bağlı təlimatlar, əsasnamələr işlənib hazırlanmışdır».

Millət vəkilinin sözlərinə görə, Vergilər Nazirliyinin yaradılması iqtisadiyyatımızın bazar prinsiplərinə keçməsi, sahibkarlığın inkişafı və xarici sərmayələrin cəlb edilməsi üçün ölkədə əlverişli mühitin formalaşmasında mühüm rol oynayıb: «Son illəri Azərbaycanın vergi sisteminin keyfiyyətcə yeni inkişaf pilləsinə keçid dövrü hesab etmək olar. Nazirlikdə Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) fəaliyyət göstərir. Vergi ödəyicilərinə göstərilən xidmətlərin dairəsinin ilbəil genişləndirilməsi, «bir pəncərə» sisteminin tətbiqi ilə işə yeni başlayan biznes subyektlərinin qeydiyyatı prosedurunun asanlaşması vergi sisteminin dinamik inkişafda olduğuna dəlalət edir.

Vergi sisteminin modernləşdirilməsi, bu sahənin inkişafı Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Dövlət başçısı cənab İlham Əliyevin ölkənin ictimai həyatının bütün sahələrinə ayırdığı diqqət vergi sistemində münasibətdə də özünü göstərir. 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə fevralın 11-nin vergi işçilərinin peşə bayramı elan edilməsi bu diqqətin təzahürlərindən biridir».

## Vergi sistemindəki islahatlar iqtisadi inkişafa xidmət edir



***İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin sektor müdiri Mehdi Həsənov*** bildirmişdir ki, ölkədə aparılan mövcud iqtisadi siyasətə uyğun olaraq iqtisadiyyatın diversifikasiyası təmin edilmiş, regionların sosial-iqtisadi inkişafı istiqamətində səylər gücləndirilmiş, sahibkarlıq fəaliyyəti üçün əlverişli biznes mühiti yaradılmış, məşğulluğun səviyyəsinin ilbəil yüksəlməsinə nail olunmuşdur: «Qeyri-neft sektorunun inkişaf etdirilməsi, ixrac potensialının genişləndirilməsi, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində tədbirlərin gücləndirilməsi, təsərrüfat subyektlərinin dayanıqlı, stabil və rentabelli fəaliyyətinin təmin olunması, eləcə də respublikamızın investisiya cəlbediciliyi istiqamətində əldə edilən uğurlar, təməli etibarilə iqtisadi artım templəri üzrə bir sıra inkişaf etmiş ölkələri üstələməklə, Azərbaycanın beynəlxalq reytinqini və iqtisadi nüfuzunun artmasını şərtləndirmişdir.

Qeyri-neft sektoruna investisiyaların cəlb edilməsinin intensivləşdirilməsi məqsədilə stimullaşdırıcı mexanizmlərin tətbiqi baxımından da növbəti illərdə həyata keçiriləcək vergi siyasəti əhəmiyyətli təşviqedici iqtisadi vasitə hesab edilir. Qeyri-neft sektorunun inkişafına müsbət təsir edən əsas amil kimi səmərəli vergi siyasətinin həyata keçirilməsi kontekstində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, investisiyaların təşviqi baxımından prioritet sahələrin inkişafına əlverişli şərait yaradılması üçün vergi dərəcələrinin optimallaşdırılması və vergitutma rejiminin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Vergi sistemində aparılan islahatlar bütövlükdə iqtisadi inkişafa, real sektorun daha səmərəli fəaliyyətinin təmin olunmasına, sahibkarlığın inkişafının dəstəklənməsinə və bu istiqamətdə görülən işlərin səmərəliliyinin artırılmasına öz töhfəsini verməklə yanaşı, vergi sisteminin texnoloji cəhətdən modernləşdirilməsi, inzibati idarəetmənin keyfiyyətcə yaxşılaşdırılması və avtomatlaşdırılması yönümündə ciddi uğurların qazanılmasına xidmət etmişdir».

Qeyd olunmuşdur ki, ölkə iqtisadiyyatında, o cümlədən sənaye, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları sahələrində yüksək artım dinamikasının davamlı olması qarşıda duran əsas vəzifələrdəndir və qeyri-neft sektorunda inkişaf meyillərinin təmin olunması vergi sahəsində həyata keçiriləcək tədbirlərdən əhəmiyyətli dərəcədə asılıdır.

## Əmək müqavilələrinin bağlanması qeyri-leqal məşğulluq hallarının aradan qalxmasına xidmət edir



***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək siyasəti şöbəsinin baş məsləhətçisi Bəxtiyar Məmmədov*** ölkədə həyat səviyyəsinin yüksəldilməsi istiqamətində görülən tədbirlərdən söz açaraq bildirmişdir ki, bütün bu işlər sosial təminat sisteminin daha geniş əhali kateqoriyalarına yönəldilməsi ilə müşayiət olunmuşdur: «Hazırda Azərbaycan geniş əhali kateqoriyalarını əhatə edən sosial təminat sisteminə malik bir ölkə kimi tanınır. Son bir ildə ölkə başçısı tərəfindən sosial cəhətdən həssas qruplarla bağlı 10-dan artıq fərman və sərəncam imzalanıb ki, bu da onların sosial müdafiəsinin gücləndirilməsinə və sosial təminat sisteminin əhatə dairəsinin daha da genişləndirilməsinə xidmət edir».

Bildirilmişdir ki, ölkədə həyat səviyyəsinin mütəmadi yaxşılaşması və şəffaflığın təminatı sahəsində son vaxtlar görülən işlər ünvanlı sosial yardım təyin olunan ailələrin sayının azalmasına da səbəb olmuşdur: «Yardım alan ailələrin sayının azalması aztəminatlı ailələrə ödənilən vəsaitin məbləğinin artması ilə müşahidə olunur. Ünvanlı sosial yardım təyinatında şəffaflığın təmin olunması üçün bu yardımları alanların siyahıları həm nazirliyin saytında, həm də əhalinin sosial müdafiəsi mərkəzlərinin inzibati binalarındakı müvafiq lövhələrdə cəmiyyətə açıqlanır. Ünvanlı sosial yardım sisteminin tam avtomatlaşdırılması işləri artıq yekunlaşmaqdadır».

Bildirilmişdir ki, əmək münasibətlərinin əmək müqaviləsi əsasında tənzimlənməsi sahəsində, eləcə də vergi və sosial sığorta haqlarının ödənişində problemlərin yaranması bu sahəyə dövlət nəzarətinin yeni informasiya texnologiyalarının tətbiqi yolu ilə daha səmərəli təşkili məsələsini aktuallaşdırmışdı. ƏƏSMN tərəfindən qısa müddətdə mükəmməl proqram təminatına malik əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin hazırlanaraq «Elektron hökumət» portalı üzərindən istifadəyə verilməsi əmək münasibətlərinin rəsmiləşdirilməsində keyfiyyətcə yeni bir mərhələ açdı. Bununla da əmək hüquqlarının təminatına dövlət nəzarətinin səmərəli təşkili, əmək müqavilələrinin bağlanmasına formal yanaşmalardan irəli gələn, işçinin hazırkı əmək və gələcək sosial təminat hüquqlarını sual altında qoyan qeyri-leqal məşğulluq hallarının aradan qalxmasına şərait yarandı: «Vergilər Nazirliyinin bu sahədə fəaliyyəti, onun həyata keçirdiyi islahat tədbirləri, vergi ödəyicilərinin işinin yüngülləşdirilməsi sahəsində gördüyü işlər təqdirəlayiqdir. İnanıram ki, gələcəkdə bu nailiyyətlər daha da irəli aparılacaq, sahibkarlar kimi muzdla işləyən vergi ödəyicilərinə də diqqət artırılacaq. Sahibkarlar və hüquqi şəxs olan vergi ödəyiciləri vergi ödəmələrindən yayınmağa meyilli olduqları halda, muzdla işləyən vergi ödəyiciləri işəgötürəndə əmək münasibətlərinin rəsmiləşdirilməsində və özlərinin gələcək sosial müdafiəsinin təminatında maraqlıdırlar».

## Aqrar sahənin inkişafında vergi siyasəti mühüm rol oynayır



***Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Murtuzəli Hacıyev*** vurğulamışdır ki, aqrar sahənin inkişafı ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biridir. İndiyədək dövlət tərəfindən istehsalın həcminin artırılması və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı sahəsində bir sıra mühüm layihələr və proqramlar hazırlanaraq həyata keçirilib. «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nda, eləcə də 2014-2018-ci illərə dair «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda aqrar sahəyə xüsusi önəm verilib. Kənd təsərrüfatı məhsullarının istehsalı və rəqabət qabiliyyətliliyinin artırılması, emal müəssisələrində mütərəqqi texnologiyaların tətbiqinin dəstəklənməsi, iri fermer təsərrüfatlarının yaradılması, aqrotexservis xidmətləri şəbəkəsinin genişləndirilməsi, kənd təsərrüfatının texnikaya, mineral gübrələrə və pestisidlərə olan tələbatının təmin edilməsinin yaxşılaşdırılması, şoranlaşmış torpaqların yenidən dövriyyəyə qaytarılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi və digər tədbirlər nəzərdə tutulub.

M.Hacıyev qeyd etmişdir ki, aqrar sahənin inkişafında vergi siyasəti mühüm rol oynayır və vergi güzəştləri də məhz kənd təsərrüfatının inkişafına əlavə stimul vermək üçündür. Vergi güzəştlərinin tətbiqi birbaşa qeyri-neft sektorunun aparıcı sahələrindən hesab olunan aqrar sahənin inkişafına təkan verməkdən ibarətdir: «Ötən 14 ildə güzəştlər nəticəsində büdcəyə köçürülməsi nəzərdə tutulan 1 milyard 400 milyon manat vəsait kənd təsərrüfatı istehsalçılarında qalıb və aqrar sahənin genişləndirilməsinə yönəldilib. Nəticədə kənd təsərrüfatı məhsullarının həcmi 4,4 dəfə artıb, məhsul istehsalı 1,3 milyard manatdan 5 milyard manata çatıb. Yəni güzəştlər illik 280 milyon manatdan artıq həcmdə məhsul istehsalının artmasında mühüm rol oynayıb. Prezident İlham Əliyevin imzaladığı «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə» sərəncama əsasən, istehsalçılar 2014-cü il yanvarın 1-dən 5 il müddətinə, torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilib. Bu qərar artıq cari ilin ötən dövrü ərzində kənd təsərrüfatının bir çox bölmələrində istehsalın artmasında mühüm rol oynayıb. Bu siyasətin davam etdirilməsi nəticəsində qarşıdakı dövrdə kənd təsərrüfatı məhsullarının maya dəyəri xərclərinin və qiymətlərinin aşağı düşməsi, ölkə üzrə məhsul istehsalının əhəmiyyətli dərəcədə artımı mümkün olacaq. Güzəştlər 2019-cu ilə qədər milyardlarla manat vəsaitin kənd təsərrüfatı məhsulları istehsalçılarında qalmasına və aqrar sahənin inkişafına şərait yaradacaq. Ümumiyyətlə, bu tədbirlər kənd təsərrüfatında və yeyinti sənayesində müasir avadanlıq və yeni texnologiyaların tətbiqinə, texnika ilə təchizat səviyyəsinin daha da yaxşılaşdırılmasına, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə etibarlı təminatına faydalı stimul olacaq».

# Vergilər Nazirliyi - 15



## Vergilər Nazirliyi öz vəzifələrinin öhdəsindən şərəflə gəlir

Hər bir ölkənin iqtisadi və sosial inkişafının əsasını təşkil edən dövlət büdcəsi gəlirlərinin formalaşmasında vergi siyasəti mühüm rol oynayır. Dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsi üçün gəlirlərin büdcəyə tam və vaxtında səfərbər edilməsini təmin etmək, əhalinin müxtəlif təbəqələrinin gəlirlərinin yenidən bölüşdürülməsi və formalaşması xüsusiyyətlərini nəzərə almaqla iqtisadiyyatın ayrı-ayrı sahələrinin tənzimlənməsi üçün şəraitin yaradılması bazar iqtisadiyyatının tələblərinə əsaslanan vergi sisteminin əsas vəzifəsidir və inamla qeyd etmək istəyirəm ki, Vergilər Nazirliyinin kollektivi bu vəzifələrin öhdəsindən şərəflə gəlir.

Bazar iqtisadiyyatına keçidin ən vacib şərtlərindən olan vergi münasibətlərinin tənzimlənməsi, beynəlxalq standartlara uyğun vergi sisteminin formalaşması, çevik vergi siyasətinin aparılması iqtisadi strategiyanın tərkib hissəsidir. Azərbaycanda 1990-cı illərin sonlarında iqtisadi islahatlar dərinləşdikcə vergiqoymanın qanunvericilik və metodoloji bazasının təkmilləşdirilməsi zərurəti yaranmışdı. Bütün normativ aktlar vergi sistemini tam şəkildə yox, onun müxtəlif sahələrini əhatə edirdi ki, nəticə etibarilə vergi sisteminin mərkəzləşdirilmiş formada idarə olunmasında bir sıra obyektiv çətinliklər ortaya çıxırdı. Həmin problemlərin aradan qaldırılması isə, ilk növbədə, bütün vergi sisteminin vahid qanunvericilik bazası əsasında tənzimlənməsi və idarə olunmasını zəruri edirdi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Vergi Məcəlləsinin qəbul olunması bu problemlərin aradan qaldırılmasında mühüm rol oynamışdır. Vergi Məcəlləsinin layihəsi üzərində Milli Məclisdə, o cümlədən üzvü olduğum İqtisadi siyasət komitəsində gərgin və səmərəli işin aparılması nəticəsində bu mühüm qanunvericilik sənədi parlamentdə müzakirə edilərək, 2000-ci ilin iyul ayında qəbul olundu və 2001-ci ilin yanvar ayının 1-dən qüvvəyə mindi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən vergi siyasəti nəticəsində vergi qanunvericiliyi mütəmadi olaraq təkmilləşdirilir, müəyyən dəqiqləşmələr aparılır. Bütün bunların nəticəsində Azərbaycanda sabit vergi sistemi yaradılmış və strateji planların həyata keçirilməsi üçün əlverişli şərait mövcuddur.

Vergilər Nazirliyinin yarandığı gündən qazandığı nailiyyətlər dövlətin iqtisadi əsaslarının daha da möhkəmləndirilməsini sürətləndirmiş və ölkədə işgüzar fəallığın yüksəldilməsi, qeyri-neft sektorunun inkişafı, regionların sosial-iqtisadi inkişafının gücləndirilməsi, yoxsulluğun azaldılması və bu kimi digər istiqamətlərdə daha təsirli tədbirlərin həyata keçirilməsi üçün geniş imkanlar yaratmışdır.

Vergilər Nazirliyinin yaradılmasının 15-ci ildönümü münasibətilə nazirliyin bütün əməkdaşlarını təbrik edir, Azərbaycanın hərtərəfli inkişafı naminə həyata keçirdikləri işlərdə müvəffəqiyyətlər arzulayıram.

**Vahid ƏHMƏDOV,**
***Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü***



## Elektron xidmətləri tətbiq edən ilk dövlət qurumlarından biri...

Dövlətin vergi siyasətinin uğurla həyata keçirilməsində başlıca rol oynayan Vergilər Nazirliyinin fəaliyyətə başlaması ilə ölkədə vergi mədəniyyətinin formalaşmasının təməli qoyulub. Dövlət büdcəsinə vergi və digər daxilolmalara dövlət nəzarətini təmin edən qurum kimi Vergilər Nazirliyi ödəmələrdə şəffaflığın artırılması, vergi ödəyicilərinə xidmətlərin daha sadə və rahat göstərilməsi üçün elektron xidmətləri tətbiq edən ilk dövlət qurumlarından biridir. «Elektron hökumət» quruculuğu sahəsində yaxından və fəal iştirak edən nazirlik hazırda 60-dək elektron xidməti vahid www.e-gov.az portalına inteqrasiya edərək istifadəçilərin ixtiyarına verib. Öz fəaliyyətində müasir informasiya texnologiyalarının geniş tətbiqini dəstəkləyən, dövlət idarəetmə sistemində modern texnoloji yeniliklərə əsaslanan layihələrin icrasını davam etdirən Vergilər Nazirliyi digər dövlət qurumları, o cümlədən Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə əməkdaşlığa böyük önəm verir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2013-cü ildə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Vergilər Nazirliyi və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə «ASAN imza» layihəsinə start verilib.

15 illik fəaliyyəti ərzində Vergilər Nazirliyinin həyata keçirdiyi müxtəlif layihələr, icra etdiyi proqramlar, yerinə yetirdiyi tədbirlər və s. haqqında çox danışmaq olar. Əminik ki, möhtərəm Prezidentimiz İlham Əliyevin tövsiyə və tapşırıqları əsasında ölkənin vergi sistemi daha da təkmilləşdiriləcək, dövlətçiliyimizə, xalqımıza, o cümlədən vergi ödəyiciləri və vətəndaşlara uğurla xidmət göstərməkdə davam edəcək.

Vergilər Nazirliyinin yaradılmasının 15 illik yubileyi münasibətilə vergi sistemində çalışan bütün əməkdaşları, eyni zamanda yaradılmış mütərəqqi vergi sistemindən bu gün məmnunluqla yararlanan vergi ödəyicilərini səmimi-qəlbdən təbrik edirəm.

**Müşfiq ƏMİROV,**
***rabitə və yüksək texnologiyalar nazirinin müşaviri***



## Vergilər Nazirliyi öz fəaliyyətində təhsil müəssisələri ilə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir

Vergilər Nazirliyi Azərbaycanda büdcə-vergi siyasətinin formalaşması və həyata keçirilməsində mühüm rola malik dövlət strukturlarındandır. Nazirlik 15 illik fəaliyyəti dövründə xüsusilə də vergi siyasətinin və vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin elektronlaşdırılması və dövlət büdcəsinə vergi daxilolmalarının artırılması istiqamətində ciddi uğurlar əldə etmişdir. Əminliklə qeyd etmək olar ki, bu gün Vergilər Nazirliyinin vergi ödəyicilərinə göstərdiyi elektron xidmətlər ölkədə vergi inzibatçılığının təkmilləşdirilməsi işində əhəmiyyətli dərəcədə dönüş yaratmışdır.

Vergilər Nazirliyi öz fəaliyyətində təhsil müəssisələri ilə əlaqələrin inkişafına da xüsusi əhəmiyyət verir. Vergi mütəxəssislərinin hazırlanması, vergi problemləri üzrə elmi tədqiqatların aparılması və vergi maarifçiliyi istiqamətlərində Azərbaycan Dövlət İqtisad Universiteti ilə nazirlik arasında sıx əməkdaşlıq yaranmışdır və ümid edirəm ki, bu, gələcəkdə də davam edəcəkdir.

Dünyanın bütün ölkələrində olduğu kimi Azərbaycanda da vergi siyasəti və vergitutma ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun olaraq daim təkmilləşməsi və yeniləşməsi zəruri olan dinamik sahədir. Başda hörmətli nazir Fazil Məmmədov olmaqla Vergilər Nazirliyinin kollektivini təbrik edir, hamınıza cansağlığı, uzun ömür, bu mürəkkəb və məsuliyyətli işdə yeni-yeni uğurlar diləyirəm.

**Ədalət MURADOV,**
***Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor***



## Azərbaycanın sosial-iqtisadi inkişafında Vergilər Nazirliyinin rolu danılmazdır

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi quruculuq sahəsində Vergilər Nazirliyi fəaliyyətə başladığı gündən bu əhəmiyyətli proseslərdə fəal iştirak etmişdir.

Azərbaycanın vergi inzibatçılığının təkmilləşdirilməsi dövlətin iqtisadi siyasətində prioritet istiqamətlərdən biri kimi xüsusi önəmə malikdir və bu sahədə sistemli tədbirlərin həyata keçirilməsi məhz bu zərurətdən irəli gəlir. Vergi xidmətində yeni üsul və vasitələrin tətbiqi, vergi ödəyiciləri ilə vergi xidməti əməkdaşları arasında sağlam münasibətlərin qurulması, vergi bəyannamələrinin elektron formada qəbulu, bütün ödəmələrin banklar vasitəsilə həyata keçirilməsinə başlanması vergi inzibatçılığının əhəmiyyətli şəkildə yaxşılaşmasına, şəffaflığın təmin edilməsinə real şərait yaradır. Sevindirici haldır ki, həmvətənlərimiz, xüsusilə də sahibkarlarımız könüllü şəkildə vergi ödəməyi öz vəzifə borcları hesab edirlər. Vergilər Nazirliyində çalışan peşəkarların gərgin əməyi nəticəsində insanlarda vergiödəmə mədəniyyətinin formalaşması istiqamətində faydalı işlər görülür.

Qeyd etmək lazımdır ki, Vergilər Nazirliyi ilə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında işgüzar münasibətlərə əsaslanan xoş əməkdaşlıq niyyəti bütün sahələrdə aydın görünür. Vergi-hüquq münasibətlərinə dair yeni qanunvericilik sənədlərinin, normativ-hüquqi aktların, həmçinin mövcud vergi qanunvericiliyinə ediləcək dəyişiklik və əlavələrin layihələrinin hazırlanmasında və müzakirələrdə konfederasiyanın nümayəndələri fəal iştirak edirlər.

Möhtərəm Prezident İlham Əliyev tərəfindən inamla və uğurla davam etdirilən siyasi kurs və islahatların real nəticəsi olaraq, ölkənin sosial-iqtisadi inkişaf strategiyası reallaşıb və bu istiqamətdə də Vergilər Nazirliyinin mühüm xidmətləri danılmazdır. Dövlət başçısının irəli sürdüyü iqtisadi inkişaf doktrinasına uyğun olaraq, qeyri-neft sektorunun sürətli yüksəlişi, iqtisadiyyatın şaxələndirilməsi və «inklüziv» iqtisadi artım strategiyası ölkədə sahibkarlığın davamlı inkişafına təkan verir.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılmasının 15 illik yubileyi münasibətilə bütün vergi orqanı əməkdaşlarını səmimi-qəlbdən təbrik edir, ölkəmizin sürətli inkişafı və xalqımızın maddi rifahının daha da yaxşılaşması naminə dəyərli fəaliyyətində uğurlar arzulayıram. Ümidvaram ki, nazirliklə konfederasiyamız arasında səmimi işgüzar münasibətlər bundan sonra da inkişaf edəcək, üzərimizə düşən vəzifələrin yerinə yetirilməsində birgə fəaliyyət göstərəcəyik.

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin 15 illik yubileyi münasibətilə Avropadaxili Vergi Administrasiyaları Təşkilatından (IOTA), tərəfdaş ölkələrin vergi administrasiyalarının rəhbərlərindən nazirliyin ünvanına çoxlu sayda təbrik məktubları daxil olmuşdur. Onlardan bəzilərini təqdim edirik.*

***Hörmətli cənab Məmmədov,***

Yaponiyanın Milli Vergi Agentliyi adından Sizi 11 fevral - Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılmasının 15 illiyi münasibətilə təbrik edirəm.

Ümid edirəm ki, növbəti illər administrasiyanız üçün uğurlu olacaq və qurumlarımız arasında qarşılıqlı əməkdaşlıq münasibətlərini gələcəkdə daha da inkişaf etdirəcəyik.

**Hörmətlə,**
**Masaaki Kaizuka,**
*Yaponiya Milli Vergi Agentliyinin Beynəlxalq əlaqələr bölməsinin rəhbəri*

***Hörmətli cənab Məmmədov,***

Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılmasının 15 illiyi münasibətilə Sizi təbrik etməkdən şərəf duyuram.

Müasir dövrdə vergi administrasiyaları milli hüdudları aşan fəaliyyətlərinin genişləndiyinə görə müxtəlif çağırışlarla üzləşməli olur. Bu çağırışlar yalnız beynəlxalq əməkdaşlıq və peşəkar tərəfdaşlıq münasibətləri vasitəsilə səmərəli şəkildə həll edilə bilər. IOTA kimi beynəlxalq təşkilat çərçivəsində müstəsna əhəmiyyəti olan təcrübə mübadiləsi və məhsuldar əməkdaşlıq iki qurum arasında yaranan xoş münasibətlərin bariz nümunəsidir.

Səmimi qəlbdən inanıram ki, qarşılıqlı mənafe naminə əməkdaşlığımızı daha da möhkəmləndirəcəyik.

**Hörmətlə,**
**Hans-Georg Kramer,**
*Avstriya Respublikası Federal Maliyyə Nazirliyinin baş katibi*

***Hörmətli cənab nazir!***
***Hörmətli təşkilat üzvləri!***
***Hörmətli həmkarlar!***

IOTA təşkilatının prezidenti kimi Azərbaycan Respublikasının Vergilər Nazirliyinin yaradılmasının 15 illiyi münasibətilə administrasiyanızın ünvanına xoş sözlər çatdırmaqdan məmnunluq duyuram. Nazirliyiniz 15 il müddətində Azərbaycan vergi sisteminin formalaşması və inkişafı istiqamətində böyük uğurlar əldə etmişdir. Bu nailiyyətlərə görə sizi təbrik edirəm.

Düşünürəm ki, IOTA təşkilatının üzvü kimi digər üzv ölkələrlə müsbət təcrübə mübadiləsi aparmalı və qarşılıqlı əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirməliyik.

Bu tarixi gün həm nazirliyiniz, həm də təşkilatımız üçün əhəmiyyətlidir. Bir daha təbrik edir, sizə ən xoş arzularımı çatdırır və işlərinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**
**Hans Bokpoel,**
*IOTA-nın prezidenti*

**Hörmətli cənab Məmmədov,**

Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılmasının 15 illiyi münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

İcazə verin, bu münasibətlə Rusiyanın Federal Vergi Xidməti adından və şəxsən öz adımdan sizə və rəhbərlik etdiyiniz kollektivə yeni-yeni uğurlar, nailiyyətlər, sülh və əmin-amanlıq arzulayım.

Fürsətdən istifadə edərək, Sizə yüksək ehtiramımı bildirirəm. Bir daha diqqətinizə çatdırmaq istərdim ki, Rusiya Federasiyasının Federal Vergi Xidməti ölkələrimiz və administrasiyalarımız arasında ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində maraqlıdır.

**Hörmətlə,**
**Mixail Mişustin,**
*Rusiya Federasiyasının Maliyyə Nazirliyi Federal Vergi Xidmətinin rəhbəri*

***Hörmətli cənab Məmmədov,***

İspaniya Vergi Agentliyi adından Sizi və rəhbərlik etdiyiniz administrasiyanın kollektivini Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılmasının 15 illiyi münasibətilə təbrik edirəm.

Məlum olduğu kimi, Azərbaycan vergi sisteminin təkmilləşdirilməsi və vergi administrasiyasının möhkəmləndirilməsi istiqamətində gördüyünüz işlər cəmiyyətinizin inkişafına xidmət edir.

Bu baxımdan, Avropadaxili Vergi Administrasiyaları Təşkilatı məlumat və təcrübə mübadiləsi üçün əlverişli platforma sayılır. Burada Azərbaycan və İspaniya vergi administrasiyalarının rəsmiləri bir-biri ilə görüşüb əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirə bilərlər.

Son illər ərzində Azərbaycan Respublikası Vergilər Nazirliyi və İspaniya Krallığının Maliyyə Nazirliyi arasında qarşılıqlı münasibətlərin daha da inkişaf etdirilməsi iki ölkə arasında «İkiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş»in imzalanması və Vergilər Nazirliyi ilə «İnsan resurslarının inkişafı sahəsində Tvininq layihəsi» üzrə əməkdaşlığın qurulması nəticəsində baş vermişdir.

Ümidvaram ki, qarşılıqlı əməkdaşlıq münasibətlərimiz gələcəkdə daha da inkişaf edəcək və administrasiyalarımız üçün faydalı olacaqdır.

**Hörmətlə,**
**Santiaqo Menendez Menendez,**
*İspaniya Krallığının Vergi Agentliyinin baş direktoru*

***Hörmətli cənab Məmmədov,***

Braziliyanın Federal Gəlirlər Katibliyi adından Sizi və rəhbərlik etdiyiniz kollektivi Azərbaycan Respublikası Vergilər Nazirliyinin yaradılmasının 15 illiyi münasibətilə təbrik edirəm.

Gələcək illərdə nazirliyinizə yeni-yeni uğurlar arzulayır, administrasiyalarımız arasında qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün maraqlı olduğumuzu bir daha vurğulayıraq.

**Hörmətlə,**
**Jorge Antonio Deher Raçid,**
*Braziliya Maliyyə Nazirliyi Federal Gəlirlər Katibliyinin rəhbəri*